Xalqın qəzeti!

# Xalq qəzeti

№ 107 (30511) 23 may 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzeti

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Məğlub generalın sayıqlamaları



Səhifə ⇨ 3

# Avropanın Azərbaycan qazına tələbatı artır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci il oktyabr 1-də Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimindəki çıxışında Yunanıstan–Bolqarıstan Qaz İnterkonnektoru layihəsinin Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində və qaz təchizatının şaxələndirilməsində mühüm rol oynayacağnı bildirərək enerji təhlükəsizliyinin hər bir ölkənin milli təhlükəsizliyinin bir hissəsi olduğunu qeyd edib.**

*(ardı 7-ci səhifədə)*





## Azərbaycan–İran: Aramızda qəlb bağlılığı, tarixi bir bağlılıq və kök bağlılığı var

**Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev mayın 21-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olub, Prezident Seyid İbrahim Rəisinin, Xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və onları müşayiət edən digər şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar başsağlığı verib. Dövlətimizin başçısının səfirlikdə dedikləri, ümumən verdiyi mesajlar son dərəcə önəmlidir.**

Əvvəlcə bildirək ki, prezidentlər İlham Əliyevlə Seyid İbrahim Rəisi mayın 19-da İran–Azərbaycan dövlət sərhədində görüşmüş, Araz çayı üzərində inşa olunmuş “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız qalası” hidroqovşağının açılışı mərasimində birgə iştirak etmişdilər. Həmin görüşdə dövlət başçılarının səsləndirdikləri siyasi tezislər son illər ölkələr arasında nəzərə çarpmış müəyyən soyuqluğun tamamilə aradan qalxmasının göstəricisi kimi diqqət çəkməklə yanaşı, Bakının və Tehranın gələcəyə müştərək baxış platformasının mövcudluğunun və həmin platformanın fundamental xassəyə malikliyinin təsdiqi olmuşdu.

*(ardı 3-cü səhifədə)*

## “Baqrat şou”nun iflasını artıq revanşistlər də anlayırlar



Səhifə ⇨ 4

## Makron Yeni Kaledoniya yangınını söndürə biləcəkmi?



Səhifə ⇨ 5

## Cüdoçumuz Dünya birincisidir



Səhifə ⇨ 11

# “Cırtdan”ın spikerinə hörmətsizlik

## Uislin Ermənistan parlamentindəki çıxışına sözardı

**Lüksemburq Deputatlar Palatasının sədri Klod Uisl Ermənistana gəlib və ölkənin parlamentində çıxış imkanı qazanıb. O, nitqində hansı cəfəng fikirləri dilə gətirib, bu barədə söz açacağıq. Ancaq əvvəlcə bir maraqlı məqamın üzərində dayanaq.**

Deməli, K.Uils çıxış edərkən Erməni milli assambleyasının müxalifətdən olan deputatları tam tərkibdə iclas zalından çıxıblar. Çox güman ki, bu səhnəni görən lüksemburqlu qonağın gözü bərələ qalıb. Amma yayılmış məlumatlarda onun düşdüyü durum barədə heç nə olmadığından, məsələnin üzərində dayanmırıq. Sadəcə deyək ki, Ermənistan parlamentinin revanşist-şovinist kəsimi böyük hersoqluq kimi adlandırılan ölkənin ali şəxsinə çox böyük hörmətsizlik göstərib. Amma, ona elə bu da azdır. Sonda biləcəksiniz niyə?

İkincisi, haqqında söz açdığımız hörmətsizlik həm də ümumən erməni siyasi düşərgəsi daxilindəki ziddiyyətlərin nəticəsidir. Diqqət yetirək, K.Uisl prinsipcə erməni avantürizmi üçün aktual olan məsələlərdən danışıb. Müxalif siyasilər isə hətta bunu da eşitmək istəməyiblər. Çünki qonaq sədr kollektiv Qərbi təmsil edir. Deməli, sözügedən avantürizmin reallaşma yollarına dair fikir ayrılıqları son dərəcə ciddidir.

Üçüncüsü, K.Uisl ümumən mənasız məsələləri gündəmə gətirib. Yəni, bu adama qulaq asmağa ehtiyac yoxdur. Ehtiyacın olmadığını isə erməni müxalif siyasilər öz əməlləri ilə sübuta yetiriblər. Yaxşı olar ki, Lüksemburqun Deputatlar Palatasının sədri durumdan nəticə çıxarsın və bir daha Ermənistan parlamentində çıxış fikrinə düşməsin. Çünki onun dəstək kimi nəzərdə tutduğu tezislər birmənalı qarşılanmır.

***



İndi isə lüksemburqlu spikerin sərsəmləmələrinə diqqət yetirək. Əslində, cırtdan ölkənin təmsilçisi çıxışında yeni bir söz deməyib. O, rəhbəri olduğu qurumun təxminən bir həftə əvvəl Ermənistana dəstəklə bağlı qəbul etdiyi qətnamədə yer alanları təkrarlayıb. Əlbəttə ki, söhbət anti-Azərbaycan mahiyyət daşıyan, sırf ermənipərəstliyə söykənmiş qərəzli tezislərin təkrarlanmasından gedir.

Ümumən, Lüksemburq Deputatlar Palatasının çıxardığı qətnamənin üzərində dayanmaq iki cəhətdən zəruri idi. Birincisi, sənəddə beynəlxalq aləmin erməniləri müdafiə trayektoriyasındakı ayrı-ayrı tezislər yer almışdı. Yəni, hazırda Avropanın və dünyanın hansı ölkəsi, hansı beynəlxalq təşkilatı Ermənistanı müdafiə xarakterli qətnamə çıxarsa, mətni Lüksemburq Deputatlar Palatasınınkından fərqlənməyəcək.

İkinci məsələ bilavasitə Lüksemburqun özü ilə bağlıdır. Məlumdur ki, bu sayaq sənədlər erməni lobbi və diaspor təşkilatlarının yastığının altından çıxır. Görünür, dünya erməniliyi artıq “cırtdan”lardan istifadə mərhələsinə keçib.

Əlqərəz, Lüksemburq Deputatlar Palatasının Ermənistanı dəstəkləmək, regionda sülh və sabitliyin bərqərar olması naminə qəbul etdiyi qətnaməsində vurğulanıb ki, Azərbaycanın, guya, əsassız şəkildə həyata keçirdiyi hərbi əməliyyat nəticəsində 100 mindən çox erməni Qarabağdan məcburi köçmək məcburiyyətində qalıb. K.Uisl Ermənistan parlamentində bununla bağlı söz açarkən bir il əvvəl İrəvana deputat kimi gəldiyini diqqətə çatdırıb. Ardınca isə şivən ritorikasına və sentimentallığa baş vuraraq deyib ki, 2023-cü ilin sentyabrında “Azərbaycanın əsassız hərbi əməliyyatları nəticəsində 100 mindən çox erməninin zorla deportasiyası, Qarabağda baş vermiş faciəli hadisələrdən sonra” Ermənistana sədr kimi qayıtmalı olub. Sən demə, bu qatı ermənipərəstin vəzifəsi böyüyübmüş. K.Uislin ötən il də İrəvana baş çəkdiyini nəzərə alsaq, qətnamə oyununun kimin yastığının altından çıxdığını təsəvvürə gətirmək elə də çətin deyil.

K.Uisl erməni müxaliflərin saymazyana yanaşdıqları çıxışında Beynəlxalq Ədalət Məhkəməsinin 17 noyabr 2023-cü il tarixli qərarından da söz açıb. O qərardan ki, Lüksemburq Deputatlar Palatasınınn qətnaməsində də ona istinad var idi. Daha doğrusu, manipulyativ istinad. Qətnamədə bildirilmişdi ki, BƏM-in qərarına əsasən, beynəlxalq hüquq normalarına hörmətlə yanaşılmalı, eləcə də erməni hərbi əsirlər dərhal azadlığa buraxılmalıdırlar. Belə nəticə hasil olmuşdu ki, lüksemburqlu parlamentarilərin beynəlxalq hüquqdan anlayışları yoxdur. Hər halda, Azərbaycan tərəfi erməni hərbi əsirləri Ermənistan ərazisində saxlamayıb. Belə olan halda hansı hüquq əsas götürülüb?

*(ardı 4-cü səhifədə)*

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” 2001-ci il 30 iyun tarixli 518 nömrəli, “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında” Əsasnamənin və “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanlarının təsvirləri”nin təsdiq edilməsi barədə” 2005-ci il 22 iyul tarixli 268 nömrəli, “Xüsusi təyinatlı təhsil müəssisələrinin təsis edilməsi Qaydaları”nın və “Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı”nın təsdiq edilməsi haqqında” 2010-cu il 24 may tarixli 274 nömrəli fərmanlarında və “Hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının müavinətlərinin artırılması haqqında” 2006-cı il 29 noyabr tarixli 1789 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturu”nun 3-cü hissəsinin dördüncü abzasında “Ali Hərbi Məktəbi” sözləri “Hərbi İnstitutu” sözləri ilə əvəz edilsin.

**2.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında” Əsasnamənin və “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanlarının təsvirləri”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 iyul tarixli 268 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 604 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında” Əsasnamənin 2-1-ci fəslinin adında, 30-1-ci və 30-2-ci hissələrinin birinci abzaslarında, 30-2.1—30-2.3-cü bəndlərində, 30-2.4-cü bəndinin birinci, ikinci və üçüncü cümlələrində, 30-3-cü hissəsinin birinci abzasında, 30-3.1.9-cu yarımbəndində, 30-4-cü hissəsinin birinci abzasında, 30-4.1—30-4.3-cü bəndlərində, 30-4.4-cü bəndinin birinci və üçüncü cümlələrində, 30-5-ci hissəsinin birinci abzasında, 30-5.1—30-5.3-cü bəndlərində, 36-cı hissəsinin üçüncü abzasının birinci və ikinci cümlələrində, 37-1-ci hissəsinin birinci abzasında, 37-1.1—37-1.3-cü bəndlərində və 39-cu hissəsinin ikinci abzasında ismin müvafiq hallarında “Ali Hərbi Məktəb” sözləri ismin müvafiq hallarında “Hərbi İnstitut” sözləri ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanlarının təsvirləri”ndə 6-1—6-4, 16-1—16-10, 20-1—20-4 və 26-1 nömrəli şəkillərdə “Ali Hərbi Məktəbinin” sözləri “Hərbi İnstitutunun” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 274 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 403 (Cild I) ilə təsdiq edilmiş “Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı”nın 4.2-ci bəndində “Ali Hərbi Məktəbi” sözləri “Hərbi İnstitutu” sözləri ilə əvəz edilsin.

**4.** “Hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının müavinətlərinin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 noyabr tarixli 1789 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 11, maddə 978 (Cild I) 1-ci hissəsində “Ali Hərbi Məktəbinin” sözləri “Hərbi İnstitutunun” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 22 may 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323 (Cild I); 2024, № 1, maddə 31; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 mart tarixli 17 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”nin 16.4-1-ci bəndi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 20 may 2024-cü il**

## F.M.Seyidovun Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fərid Mirmufid oğlu Seyidov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 22 may 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 oktyabr tarixli 1148 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında ali hərbi rütbəli vəzifələrin siyahısı”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 oktyabr tarixli 1148 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 881 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında ali hərbi rütbəli vəzifələrin siyahısı”nda dəyişiklik təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 22 may 2024-cü il**

# Əli Əsədov İranda anım mərasimində



Nazirlər Kabinetindən bildiriblər ki, Baş nazir Əli Əsədov İran İslam Respublikasının Birinci vitse-prezidenti, Prezident vəzifəsini icra edən Məhəmməd Moxberlə görüşərək, ona Azərbaycan Respublikasının Prezidenti, hökuməti və xalqı adından dərin hüznlə başsağlığı verib.

Bildirilib ki, böyük dövlət xadimi, görkəmli siyasətçi Seyid İbrahim Rəisi bütün həyatını ölkəsinə fədakarlıqla və sədaqətlə xidmətə həsr edib.

Qeyd edək ki, Azərbaycan Respublikasının nümayəndə heyətinə xarici işlər naziri Ceyhun Bayramov, həmçinin Milli Məclisin Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Əziz Ələkbərov, Cavanşir Paşazadə, Cəbi Quliyev və digər rəsmi şəxslər daxildir.

**Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq Baş nazir Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar mayın 22-də Tehran şəhərində keçirilən rəsmi anım mərasimində iştirak edib.**



## Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri

### *Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma*




**Mayın 22-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasına dövlət səfərinə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonu Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

## Ulu Öndərin məzarını ziyarət



**Mayın 22-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ölkəmizə dövlət səfəri çərçivəsində Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

## Şəhidlərin xatirəsinə ehtiram



**Azərbaycanda dövlət səfərində olan Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mayın 22-də Şəhidlər xiyabanını ziyarət edib.**

Prezident Emoməli Rəhmon Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtın mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

**AZƏRTAC**

## Fransanın YAP-a qarşı ittihamı əsassızdır

**“Fransanın Xarici rəqəmsal müdaxilələrdən müdafiə üzrə Dövlət xidmətinin (VİGİNUM) Yeni Kaledoniya hadisələri ilə əlaqədar Yeni Azərbaycan Partiyasını sosial şəbəkələrdə saxta məlumatlar yaymaqda və sistemli qaralama kampaniyası aparmaqda ittiham etməsi absurd və qərəzli yanaşmadır”.**

Bu fikirləri YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli bildirib.

Şöbə müdiri diqqətə çatdırıb ki, bu gün sosial medianın müxtəlif seqmentlərinə, xüsusilə də “X” və feysbuk platformalarına nəzər saldıqda Fransanın ondan 17 min kilometr uzaqda yerləşən Yeni Kaledoniyada mütərəqqi dünyanın sivil dəyərlərinə zidd olaraq həyata keçirdiyi neokolonialist siyasətinin müxtəlif ölkələrdən olan insanların tənqidinə məruz qaldığını, ciddi etiraz və narazılıqlarla qarşılandığını görmək mümkündür. Azərbaycan vətəndaşlarının, o cümlədən 700 mindən artıq insanı öz sıralarında birləşdirən Yeni Azərbaycan Partiyasının üzvlərinin bu məsələ ilə əlaqədar fərdi münasibət bildirmələri də təbiidir.

YAP-ın rəsmi sosial şəbəkə hesablarında məsələ ilə əlaqədar paylaşımlar edilməsi iddiasına münasibət bildirən şöbə müdiri qeyd edib: “Bu, aşkar dezinformasiyadır və həqiqətə əsla uyğun deyil. Yeni Azərbaycan Partiyasının rəsmi sosial media hesablarında, iddia edildiyi kimi, Yeni Kaledoniya hadisələri ilə əlaqədar “separat xarakterli xəbərlər” və ya hər hansı bir saxta məlumat paylaşılmayıb. Bu saxta iddianı – uydurma ittihamı tirajlayan bəzi media nümayəndələrini diqqətli olmağa, media və sosial şəbəkələrdə xəbər paylaşanda jurnalistikanın dəqiqlik prinsipini əsas götürməyə və dezinformasiya yaymamağa çağırırıq”.

# Azərbaycan–İran: Aramızda qəlb bağlılığı, tarixi bir bağlılıq və kök bağlılığı var

**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyev bunları bildirmişdi: "Hörmətli cənab Prezident, mən hesab edirəm ki, bugünkü görüş və mərasim İran–Azərbaycan əlaqələrinin tarixində gözəl, parlaq səhifə kimi qalacaq. Çünki bu gün açılışını edəcəyimiz layihə həm texniki nöqteyi-nəzərdən çox önəmlidir, eyni zamanda, iki xalqı, iki dövləti daha da sıx birləşdirəcək. Xalqlarımızın birgə uğuru, təbii ki, dostlarımızı sevindirir, bunu bəyənməyənlər isə hesab edirəm ki, öz işləri ilə məşğul olsalar, daha yaxşı olar. Əsas odur ki, İran və Azərbaycan dövlətləri bu gün çox güclü birgə siyasi iradə göstərirlər, öz xalqlarına və bütün dünyaya açıq bəyan edirlər ki, biz birlikdəyik və bundan sonra da birlikdə olacağıq. İran–Azərbaycan əlaqələri bölgəmizdə sabitliyin önəmli şərtidir. Təbii ki, belə gözəl layihə xalqlarımızın rifahını yaxşılaşdıracaq və iş yerlərini artıracaq, beləliklə uğura doğru növbəti addım olacaq. Əminəm ki, gələcəkdə buna oxşar birgə layihələrin sayı çox olacaqdır".

İran Prezidenti də mərasimdə səmimi fikirlər səsləndirmişdi: "Allahın adı ilə. Cənab Prezident, çox xoşbəxtəm ki, Azərbaycan Respublikasının hörmətli Prezidenti cənab İlham Əliyev ilə yenə də bir daha yaxından görüşürük və birgə müzakirəmizi yenidən nəzərdən keçiririk. Böyük xoşbəxtlik ondan ibarətdir ki, bu görüş bir yerdə baş tutur, burada böyük bir layihə həyata keçirilib və bu, iki xalq üçün çox uğurlu bir görüşdür. Hazırda biz istismara verilməsi iki xalq və iki dövlət üçün çox əhəmiyyət kəsb edən bir layihənin açılışında iştirak edəcəyik. Bunun özü əlamətdar bir hadisədir ki, iki xalq, iki dövlət arasında da çox mühüm böyük layihələr həyata keçirilə bilər. Ola bilsin ki, bəziləri bizim bu görüşlərimizi və birgə uğurlarımızı bəyənməsinlər. Bunlar bizim üçün əhəmiyyət kəsb etmir. Əsas odur ki, ölkələrimiz, dövlətlərimiz və xalqlarımız üçün nə xeyirlidirsə, biz onu birgə həyata keçirdik".

Ayrıca onu da bildirək ki, Azərbaycan Prezidentinin "Biz ta qədimdən gələn ulu əcdadlarımızın arzularını indi həyata keçiririk. Əminəm ki, bundan sonra da iki qardaş xalq bir-biri ilə sıx təmasda yaşayacaq, quracaq, belə gözəl xariqələr yaradacaq" fikri ilə İranın dövlət başçısının "Biz Azərbaycanın uğurunu, nailiyyətini öz nailiyyətimiz bilirik. Bizim Azərbaycanla münasibətlərimiz, bağlılığımız təkcə qonşuluq bağlılığı deyil, aramızda qəlb bağlılığı, tarixi bir bağlılıq və kök bağlılığı var. Bu, tarixi bir hadisə, yəni, iki ölkə, iki xalq arasında tarixi bir hadisənin əsası olacaq və bu, tarixə də həkk ediləcək" fikri bir-birini tam sürətdə tamamlamışdı.

***

Prezident İlham Əliyev İranın ölkəmizdəki səfirliyində başsağlığı diləklərini çatdırarkən də mayın 19-da keçirilmiş görüşü xatırlayıb. Seyid İbrahim Rəisini böyük dövlət xadimi, görkəmli siyasətçi və İran xalqının etibarını qazanmış şəxsiyyət kimi xarakterizə etmiş ölkəmizin lideri vurğulamışdı ki, onunla dövlət sərhədində böyük infrastruktur layihəsinin açılışında birgə iştirakı İran-Azərbaycan əlaqələrinin nə qədər möhkəm olmasından xəbər verir. Ən əsası isə bu iştirak "həm xalqlarımıza, həm bütün dünyaya çox açıq mesaj idi ki, biz dostuq, qardaşıq, biz bundan sonra da birlikdə olacağıq".



Bəli, dövlətimizin başçısı həm mərhum Prezident Rəisinin, həm də özünün sözügedən açılış mərasimindən sonrakı fikirlərinin çox ciddi siyasi məna yükü daşıdığını diqqətə çatdırıb. Başlıca məqam isə hər iki prezidentin gələcək inkişafda bölgədə yerləşən ölkələrin fəal iştirakı məsələsini önə çəkməsidir ki, cənab İlham Əliyev başsağlığı verərkən, xüsusən bu məqamın üzərində dayanıb, məsələnin fundamentallığını vurğulayıb. Dövlətimizin başçısı fikirləri ilə beynəlxalq aləmə bir daha mesaj vermiş olub. Söhbət "region region ölkələri üçündür" mesajından gedir. O mesajdan ki, Tehranın böyük əzmlə dəstəklədiyi "3+3" regional platformasının başlıca ideya motividir.

Bildiyimiz kimi, İran da Cənubi Qafqaza aidiyyatı olmayan qüvvələrin regiona yeni düzən, oyun qaydaları gətirmək niyyətlərinə qarşıdır. Yəni, İslam Respublikasının strateji xəttini məhz bu yanaşma təşkil edir. Əlbəttə, belə yanaşmanın formalaşmasında Prezident Rəisinin xidmətləri böyükdür. Ancaq, hər bir halda, bu dəst-xətt heç də ayrı-ayrı şəxslərə bağlı olmamalıdır. Dövlətimizin başçısı səfirlikdə bildirdikləri ilə mövcud preambulaya bir daha aydınlıq gətirdi, eyni zamanda, götürülmüş kursun davamlılığı xüsusunda dövlətimizin təminatını açıqladı. Bu, ölkəmiz baxımından da İranla birgə əməkdaşlıq xəttinin stratejiliyinin yüksək səslə ifadəsi idi: "Bildiyiniz kimi, faciədən əvvəl biz iki saatdan çox birlikdə idik. Bir saatdan çox davam edən ikitərəfli görüş əsnasında bir çox önəmli məsələlər müzakirə edilmişdir. İran-Azərbaycan əlaqələrinin inkişafının gələcək istiqamətləri bir daha təsdiqlənmişdir və hər iki tərəfin güclü siyasi iradəsi bir daha nümayiş etdirilmişdir. Bununla bərabər, biz konkret infrastruktur layihələri haqqında geniş fikir mübadiləsi aparmışdıq, önəmli qərarlar qəbul edilmişdir".

Prezident İlham Əliyevin mərhum dövlət başçısı Seyid İbrahim Rəisi ilə görüşdə iştirak edən şəxslərin sərhəd təması zamanı müzakirə olunmuş məsələləri İranın yeni rəhbərliyinə çatdıracaqlarına əminliyini vurğulaması müstəsna məqamdır. Bu da Bakının Tehranla münasibətlərinin önəminin növbəti dəfə, özü də ali səviyyədə bəyan edilməsidir. Prezident İlham Əliyevin vurğuladığı kimi: "Çünki, bu, İran və Azərbaycan xalqlarının iradəsinə söykənir və biz mərhum Prezident Rəisi ilə söhbət əsnasında qəti iradəmizi bildirdik ki, bundan sonra böyük layihələrin sayı çox olacaq, həm ikitərəfli, həm çoxtərəfli formatda".

Sonda bir daha deyək ki, Azərbaycan Prezidentinin İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olarkən dediyi fikirlərdə daha böyük mesaj yükü Azərbaycan–İran münasibətlərini gözü götürməyən qüvvələrədir. Dövlətimizin başçısı həmin qüvvələrə qarşı ölkəmizin müqavimət əzmini prinsipial şəkildə nümayiş etdirdi. İndi qalır, eyni prinsipiallığı İranın yeni rəhbərliyinin əsas götürməsi. Əminik ki, belə də olacaq və Azərbaycan–İran münasibətlərindəki müsbət dinamika bundan sonra daha yeni və sıx əməkdaşlıq konturlarına əsaslanaraq inkişafını tapacaq. Əminliyimiz həm də ona görədir ki, hər iki ölkə xalqlarının istər ənənə bağlılıqları, istər ortaq tarixi bölüşmələri, istərsə də adət yaxınlıqları və mənafe uyğunluqları bunu, bütövlükdə, yeni qlobal şəraitdə birgə addımlamağımızı tələb edir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Məğlub generalın sayıqlamaları

## Separatçı Karapetyanın antikonstitusiya çağırışları
## Ermənistan Cinayət Məcəlləsinin maddələri ilə cinayət sayılır




**Ermənistanda mövcud hakimiyyəti devirməyə çalışanların, "kilsə hərəkatı"na dəstək verən qüvvələrin sırasında "beşinci kolon"la yanaşı, xaricdəki diasporun, lobbiçilərin qızışdırdığı qruplar, eləcə də Paşinyan iqtidarının sabiq məmurları da yer alır. Sonuncuların nümayəndələrindən biri də hazırda Moskvaya sığınmış Ermənistanın keçmiş müdafiə naziri, "Ümumerməni Cəbhəsi" hərəkatının lideri Arşak Karapetyandır.**

O, Ermənistan ordusunun bölmələrini keçmiş ərazilərdən geri çəkilmək əmrinə tabe olmamağa çağırıb. "Mən bilirəm ki, bu istiqamətdən geri çəkilmək üçün yüksək rütbəli generalın imzaladığı yazılı əmr var. Yəni, biabırçı geri çəkilmə ilə bağlı" – Karapetyan Ermınistanın Tavuş bölgəsində baş verən hadisələri şərh edərkən deyib. Keçmiş nazir ordu zabitlərinə müraciət ünvanlayaraq bildirib: "Xidmət etdikləri müddətdə onlar müvafiq qaydalara tabe olmalıdırlar. Amma zabit rütbəsi və şərəfi olan hər bir şəxs lazım gələrsə, öz həyatını da qurban verməyə borcludur. Biz öz şərəfimizi qorumaq və sonra qalib gəlmək üçün hər şeyi etməliyik", – deyə Karapetyan bəyan edib.

İndi Moskvada oturub zabit şərəfindən dəm vuran Karapetyan bir müddət əvvəl 11 min fərarisi olan bir ordunu yenidən qurmağın "yolları" barədə planlarından söz açır: "Özümüzü silahlandırmaqdansa, ordunu bacarıqla idarə etmək lazım idi ki, Azərbaycana 5 milyardlıq silah qalmasın". Ermənistanın keçmiş müdafiə naziri Paşinyan hakimiyyətinin orduya tanış olmayan bahalı Qərb silahları almasına qarşı çıxıb. (Qeyd edək ki, Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsində düşməndən götürülmüş hərbi qənimətin dəyərinin 5 milyard ABŞ dollarına yaxın olduğunu bildirib).

* * *

Hazırda adı korrupsiya qalmaqalında hallanan erməni generalı "sandığın ağzını açaraq", üç il bundan əvvəl Moskvada apardığı separat danışıqlardan da bəhs etmişdir: "2021-ci ildə mən müdafiə naziri təyin olunanda Rusiyanın müdafiə naziri ilə razılıq əldə etmişdik. Həmin razılığa əsasən, Rusiyanın müxtəlif akademiyalarından 40 yüksək rütbəli general, zabit və hərbi sahənin professoru Ermənistana gəldi. Onlar bilikli, təcrübəli zabitlər və generallar idi. Bu ekspertlərlə birlikdə bir sənəd hazırladıq. Sənəddə gələcək təhlükəsizlik sistemimizdən bəhs edilirdi. Bundan sonra biz Rusiyanın Müdafiə naziri ilə görüşəndə ona bu dəstəyə görə təşəkkür etdim. Dedim ki, sizin işiniz bununla bitmir, indi zəhmət olmasa, mütəxəssislər göndərin ki, layihəni həyata keçirək. Bizdə Ermənistana gəlib 3 il Ermənistan ordusunda işləməli olan 80-ə yaxın zabitin siyahısı var idi".

Bu açıqlaması ilə "beşinci kolon"un üzvü olduğunu faş edən generalın sözlərinə görə, sözügedən sənəddə Ermənistan ordusuna verilməli olan silah–sursat da göstərilibmiş və onların təminatının bir hissəsini Rusiya tərəfi öz üzərinə götürübmüş: "Bütün bunları həyata keçirsəydik, Qarabağı çətin ki, itirərdik və bugünkü kimi sərhəddin o üzünə qorxu ilə baxmazdıq".



2016-cı il aprel döyüşlərindən bir neçə gün sonra o vaxtkı prezident Serj Sarkisyanın əmri ilə Silahlı Qüvvələrin Baş Qərargahının kəşfiyyat idarəsinin rəisi vəzifəsindən yol verilən nöqsanlara görə azad edilən "fərasətli" general üstündən beş il keçəndən sonra başından daha böyük qələtə imza atacaqdı.

Erməni mediasının məlumatına əsasən, Karapetyan "1 mart" hadisələri ilə bağlı Robert Köçəryana qarşı ifadə verən yeganə generaldır. Məhz bu "xidmətinə" görə Paşinyan onu özünə məsləhətçi təyin etmişdi. Müdafiə naziri vəzifəsinə təyinatından cəmi üç ay sonra (2021-ci ilin avqustundan noyabrına qədər –red.) qovulmuş Arşak Karapetyan indi işdən azad edilməsinin səbəblərindən danışıb və bu zaman baş naziri satqınlıqda ittiham edib. Xatırladaq ki, 2021-ci il noyabrın 16-da dövlət sərhədində Ermənistanın təxribatları nəticəsində baş verən hərbi insident zamanı Azərbaycan Ordusu 7 şəhid verib, 10 hərbi qulluqçumuz isə yaralanıb. Sonradan sərhəddə silahlı insidentin Karapetyanın özbaşınalığı səbəbindən törədildiyini etiraf edən baş nazir bu barədə müdafiə nazirinin ona məlumat vermədiyini demişdi: "Bu cür hallarda heç kimi bu vəzifədə hətta yarım saat saxlamaram". Karapetyanın həmin "özbaşınalığı" kimin göstərişi əsasında etdiyini güman etmək o qədər də çətin deyil.

* * *

Hayastanın "Keçmiş" qəzeti iddia edir ki, Ermənistan hakimiyyəti Karapetyanın nüfuzunun tədricən artmasından narahatdır. Bəzi ekspertlər daxildə onun tərəfdarlarının sayının getdikcə artdığını deyirlər. İntəhası, bu ehtimal özünü doğrultmayıb. Praqmatik erməni analitiklərinin qənaətinə görə, A.Karapetyan keşiş Baqrat Qalstanyanın rəhbərlik etdiyi hərəkatı dəstəklədiyini bildirsə də, onun Ermənistanda özü üçün geniş seçici bazasını yaratmaq şansı sıfıra bərabərdir. Mövcud durumda reallıq ondan ibarətdir ki, Ermənistanda rusiyayönlü istənilən qüvvə tez bir zamanda marginallaşır və bu fakt Nikol Paşinyanın hakimiyyətdə duruş gətirməsini şərtləndirən əsas amillərdən biridir. Hər halda, Kremlin göstərişi ilə hərəkət etdiyi şübhə doğurmayan keçmiş müdafiə nazirinin boynuna Paşinyana qarşı hərəkatda icra edəcəyi konkret missiyanın qoyulduğu şübhəsizdir.

"Ermənistan yəqin ki, dünyada yeganə ölkədir ki, başqa bir ölkənin tələbi ilə öz konstitusiyasını dəyişdirmək istəyir". Bu sözləri bir müddət bundan əvvəl "Ümumerməni cəbhəsi" hərəkatının lideri Arşak Karapetyan bildirib. Məğlub general fikirlərini belə tamamlayıb: "Azərbaycan yalnız bizim konstitusiyanı dəyişdirməyimizi istəmir, həm də bizim tariximizi əlimizdən almaq istəyir".

Bizim də öz növbəmizdə fərari erməni generalının nəzərinə danılmaz fakta çevrilmiş bu həqiqəti çatdırmağımız yerinə düşər: Yəqin ki, Ermənistan dünyada yeganə ölkədir ki, konstitusiyasında qonşu ölkələrin ərazilərinə iddia öz əksini tapıb. Tarixə gəldikdə isə saxtalaşdırdığınız "şanlı salnamələrinizə" nəinki bizim, dünyanın heç bir arxivin də ehtiyacı yoxdur.

Günümüzün gerçək tarixini isə erməni KİV-ləri rəsmi məlumat kimi tirajlamağa başlayıb. Onların yazdığına görə, işğal illərində Xeyrimlinin inzibati ərazisinə daxil olan torpaqlarda Kirants kənd sakinləri tərəfindən tikilən 2 ev və 3 mağaza Azərbaycanın nəzarətinə verilib. Əldə olunan razılığa əsasən, sərhədin delimitasiya və demarkasiya olunmuş hissəsini hər iki tərəfin sərhədçiləri qoruyurlar. Artıq Kirants və Xeyrimli kəndləri arasında sərhədin delimitasiyası başa çatıb.

* * *

Oxuculara xatırladaq ki, 2016-cı ildən Azərbaycan və Ermənistan sərhədinin Qazax rayonu istiqamətindən keçən hissəsinə sərhəd qoşunları nəzarət edirlər. Ermənistan ordusunun bölmələri işğal olunmuş kəndlərdən çıxarıldıqdan sonra Azərbaycan sərhədçiləri irəliləyərək demarkasiya olunmuş sərhəd xəttində xidmətə başlayıblar. Fəqət Ermənistandakı müxalif–revanşist və kənardan idarə edilən qüvvələr vəziyyətlə barışmaq istəmirlər. Onların əsas məqsədi Paşinyanı postundan devirməklə Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanmasına mane olmaq, bölgəni yeni hərbi qarşıdurma meydanına çevirməkdir. Bu isə baş tutması mümkünsüz plan, keçib getmiş qatarın vaqonuna minmək kimi xam xəyaldlır.

### Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq:**

– Ermənistanın müdafiə naziri vəzifəsində çox qısa müddət işləmiş Arşak Karapetyan indi Rusiyaya sığınıb. Özünü böyük hərbi "sərkərdə" hesab edən bu şəxs düşünür ki, bütün müxalif qüvvələr birləşərək, Nikol Paşinyana qarşı mübarizəyə qalxmalıdır. Guya, bu yolla onlar arzuladıqları nəticəni əldə edə biləcəklər. Amma görünən mənzərə ondan ibarətdir ki, onların planı baş tutmur və heç nə alınmır.

Daxildə siyasi təxribatla məşğul olan qüvvələrin arzusu gözlərində qaldı. Keşiş Baqrat hakimiyyətə qarşı kifayət qədər kontingenti toplaya bilmədi. Onun "istefa", "impiçment" kimi gurultulu bəyanatlarının da səmərəsi olmadı. İndi də hayların "fərari" generalı Arşak Karapetyan bu hərəkata qoşulmağa çalışır. Bu da, faktiki olaraq, sonda heç nəyi dəyişməyəcək. Çünki, Karapetyanın Ermənistan cəmiyyətində sosial bazası, geniş dəstəyi yoxdur. O, ölkəsindən qaçan, canını həbsdən qurtaran korrupsioner bir hərbçidir. Moskvada oturub siyasi bəyanatlar verməklə, çağırışlar etməklə Ermənistanda siyasi vəziyyəti dəyişə biləcəyini düçünürsə, deməli, başı xarab olub.

Həmin separatçı, avantürist, xaricin agenti keşiş Baqratın əli ətəyindən uzun durumda Tavuşa qayıtması da təsadüfi deyil. Demarkasiya prosesi gedir, sərhəd dirəkləri basdırılıb, sərhədçilər öz postlarında yerləşiblər.

Mövcud siyasi quruluşu devirməyə, ordunu itaətsizliyə edilən çağırışlara görə cinayət məsuliyətinə cəlb olunma presedenti Ermənistan Cinayət Məcəlləsində də nəzərdə tutulur. Arşak Karapetyan Moskvadan İrəvana qayıtdıqda Ermənistan prokurorluğu ona qarşı konkret ittiham irəli sürərək cinayət işi qaldıra bilər. Əgər Paşinyan iqtidarı bunu etməsə, yəqin bu işi Azərbaycan hüquq–mühafizə orqanları yerinə yetirməli olacaq.

Azərbaycan Respublikası Baş Prokurorluğunun üç il bundan əvvəl yaydığı məlumatda deyilir ki, Ali Baş Komandan İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, törədildiyi vaxtdan asılı olmayaraq sülh və insanlıq əleyhinə, müharibə cinayətləri törətmiş şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb olunması təmin ediləcək. Xankəndidəki keçmiş separatçı rejimin başçılarının saxlandığı Bakı həbsxanası özünün növbəti sakinlərini gözləyir.

***P.S.*** *Bu günlərdə Ermənistan baş prokurorluğu 2016–2018-ci illərdə ölkənin müdafiə naziri olmuş Vigen Sarkisyanın İrəvan və ABŞ-dakı evlərinin, habelə pullarının müsadirə olunmasını tələb edib. Korrupsiyaya qarşı mübarizə məhkəməsi qanunsuz mənşəli əmlakın müsadirəsi ilə bağlı baş prokurorluğun iddiasını icraata qəbul edib. Qanunsuz mənşəli əmlakın müsadirəsi departamenti məhkəməyə keçmiş müdafiə naziri Vigen Sarkisyanın və onunla əlbir olan şəxsin tutulması tələbini təqdim edib. Siyahıya İrəvanın mərkəzində 1 mülk (dəyəri 181 milyon 125 min dram), ABŞ-ın Massaçusets ştatında yaşayış massivi (dəyəri 940 milyon 909 min dram – 2 milyon 50 min ABŞ dolları) və 255 milyon 454 min dram qeyri-qanuni vəsait daxildir.*

***İmran BƏDİRXANLI***
***XQ***

# TBMM heyəti Milli Məclisdə



**Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin (TBMM) Milli təhsil, mədəniyyət, gənclik və idman komissiyasının sədri Mahmut Özərin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə qardaş ölkələrimiz arasında əlaqələrin ən yüksək səviyyədə olduğu qeyd edilərək, xalqlarımızı birləşdirən ortaq tarixi, dil, dini və milli-mənəvi dəyərlərin münasibətlərimizin əsasında dayandığı vurğulanıb. Bildirilib ki, ikitərəfli əlaqələrin inkişafında iki ölkə rəhbərlərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi böyük əhəmiyyət kəsb edir.

Söhbət zamanı bu gün dövlət başçılarımızın liderliyi ilə ölkələrimizin bütün sahələrdə uğurlu əməkdaşlığından məmnunluq ifadə edilib. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı hörmət və etimada əsaslanan qardaşlıq münasibətləri, siyasi iradəsi və qətiyyəti Azərbaycan-Türkiyə əlaqələrinin hərtərəfli inkişafında və müttəfiqlik səviyyəsinə çatmasında çox mühüm rol oynadığı diqqətə çatdırılıb.

Milli Məclisin Sədri, Azərbaycan Prezidentinin "Bizim ailəmiz Türk dünyasıdır" fikrini xatırladaraq, ölkələrimizin türk dövlətləri arasında da münasibətlərin inkişafına mühüm töhfələr verdiyini bildirib. O, bu sahədə parlamentlərin də üzərinə mühüm vəzifələr düşdüyünü söyləyib.

Görüşdə parlamentlərimizin də ölkələrimiz və xalqlarımız arasında əlaqələrin inkişafına dəstək və töhfələr verdiyi, hazırda qanunverici orqanlar arasında da əməkdaşlığın yüksək səviyyədə olduğu qeyd edilib. Bildirilib ki, bu gün Milli Məclislə TBMM arasında çoxşaxəli əməkdaşlıqla yanaşı, üçtərəfli və çoxtərəfli formatlarda da işbirliyi mövcuddur. Həmçinin parlamentlər beynəlxalq təşkilatlarda səmərəli fəaliyyət göstərir və bütün məsələlərdə ortaq mövqedən çıxış edirlər.

Spiker xatırladıb ki, Milli Məclislə Türkiyə Böyük Millət Məclisi arasında Əməkdaşlıq haqqında saziş imzalanıb. Bu sənəd parlamentlərimiz arasında bir çox sahələrdə əlaqələrin daha da dərinləşməsini özündə ehtiva edir. Saziş Şuşa Bəyannaməsinin parlamentlərarası əməkdaşlığa dair bəndinin həyata keçirilməsi və Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərinin parlament səviyyəsində də əks etdirilməsi baxımından mühüm bir mexanizmdir. Bu mənada parlament komitələri, dostluq qrupları arasındakı əlaqələr çox önəmlidir.

Azərbaycana səfərindən və Milli Məclisdə olmağından məmnunluğunu ifadə edən Türkiyə Böyük Millət Məclisinin komissiya sədri Mahmut Özər bu il may ayının əvvəlində VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olduğunu və forumun çox yüksək səviyyədə təşkilini qeyd edib. Bununla yanaşı, qardaş ölkələrimiz arasında bütün digər sahələrdə olduğu kimi, təhsil sahəsində də geniş əlaqələrin mövcudluğu bildirilib.

S.Qafarova gənc nəslin tərbiyəsi, ailə dəyərlərimizin qorunması istiqamətində təhsilin xüsusi rolunu vurğulayaraq deyib ki, gənc nəslin milli dəyərlərimizə bağlı, qardaşlıq münasibətlərimizə sədaqət ruhunda yetişdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Tərəflər Türkiyə-Azərbaycan Universitetinin yaradılmasından məmnunluqlarını ifadə edərək, bunun ölkələrimiz arasında qardaşlığın təzahürü olduğu vurğulanıb. Qeyd edilib ki, bu universitet gənclərimizin daha yaxşı təhsil almasına və gələcək inkişafına öz töhfəsini verəcək.

**Ə.BƏDƏLOV**
**XQ**

# Leyla Əliyevanın BMT görüşləri



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva İsveçrənin Cenevrə şəhərinə işgüzar səfəri çərçivəsində Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Ərzaq Proqramının Cenevrə Qlobal ofisinin direktoru Cankarlo Çirri və BMT Ətraf Mühit Proqramının Avropa üzrə yeni təyin olunmuş regional direktoru Arnold Kraylhuber ilə görüşüb.**

ÜƏP rəsmisi ilə keçirilən görüşdə IDEA təşkilatı ilə ÜƏP arasında BMT-nin Dayanıqlı İnkişaf məqsədlərindən olan Yer kürəsində aclığın aradan qaldırılması üzrə birgə fəaliyyət, o cümlədən münaqişələr, təbii fəlakətlər və iqlim dəyişmələrindən əziyyət çəkən insanların ərzaqla təminatına dair müzakirələr aparılıb.

Leyla Əliyeva IDEA İB-nin Azərbaycanda və bölgəmizdən kənarda müxtəlif BMT qurumları ilə çoxşaxəli əməkdaşlıq nümunələrini diqqətə çatdıraraq, ÜƏP ilə daha sıx tərəfdaşlığa hazır olduqlarını vurğulayıb. Bu xüsusda o, son illər Azərbaycanda könüllülər hərəkatının geniş vüsət tapdığını və istər ölkə daxilində, istərsə də ölkədən kənarda dəyərli təcrübə qazandıqlarını nəzərə alaraq, ÜƏP-in dünyanın müxtəlif bölgələrində fəaliyyətlərinə Azərbaycan könüllülərinin cəlb olunmasını təklif edib.

ƏMP regional direktoru ilə keçirilən görüşdə IDEA İctimai Birliyinin BMT-nin bu proqramı ilə Azərbaycanda həyata keçirdikləri müxtəlif layihələrə istinad edilib, uğurlu əməkdaşlıq nümunələri kimi canlı aləmin bir sıra növlərinin mühafizəsini ehtiva edən layihələr, o cümlədən Xəzər dənizinin ekologiyasının mühafizəsi və bərpası təşəbbüsləri göstərilib. Leyla Əliyeva xüsusilə qeyd edib ki, 30 ilə yaxın işğal altında olan ərazilərimizdə meşələr qırılıb, su hövzələri çirkləndirilib, təbii ehtiyatlarımız amansızcasına istismar olunub, nəticədə ölkəmizin ekologiyasına ciddi zərər vurulub. Bu baxımdan işğala məruz qalmış ərazilərimizdə təbiətin bərpası və dayanıqlı inkişafın təmin edilməsi istiqamətində ƏMP ilə əməkdaşlığın vacibliyi qeyd olunub.



IDEA İB-nin rəhbəri hər iki BMT proqramının nümayəndəsini bu ilin noyabrında Bakıda keçiriləcək COP29 konfransına dəvət edib və bu proses çərçivəsində birgə tədbirlər keçirmək imkanlarını müzakirə etməyə hazır olduqlarını diqqətə çatdırıb.

# "Cırtdan"ın spikerinə hörmətsizlik

(əvvəli 1-ci səhifədə)

K.Uisl Ermənistan parlamentindəki çıxışında rəhbərlik etdiyi qurumun qətnaməsində yer alan daha bir tezisi qabardıb. Söhbət 1991-ci ilin Almaatı Bəyannaməsindən gedir. Sözügedən bəyannamə keçmiş SSRİ-nin müttəfiq respublikalarının bir-birinin ərazi bütövlüklərini tanımalarını əsas götürürdüsə, o zaman həmin sənədə uyğun olaraq erməni hərbçilər Azərbaycan ərazisində olmamalı idilər. Olublarsa, deməli ən azı sərhədi qanunsuz keçiblər.

Lüksemburq Deputatlar Palatasının sədri çıxışında Ermənistan demokratiyasına dair nağıl da danışıb. Ola bilər, erməni müxaliflər həm də bu nağılı bildikləri üçün onun dediklərini dinləmək istəməyiblər. Necə də bilməsinlər? Axı bu şəxsin sədri olduğu qurumun bir həftə əvvəlki qətnaməsində də həmin nağıldan bəhs edilmişdi. Hər halda K.Uislin təfəkkürünün mücərrəd guşəsi qısa müddətdə təzə demokratiya mifi uyduracaq potensialda deyil. Çünki qətnamənin özü də köhnə havalara köklənmiş sənəd idi. Görünür, erməni demokratiyası "xəmiri" hələ çox su aparacaq. O cümlədən, İrəvanın Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutuna qoşulması da. Lükemburqlu deputatlar kimi, deputatbaşı K.Uisl də Ermənistanı Roma Statutuna qoşulduğuna görə möhkəmcə tərifləyib və deyib ki, guya sənədin ratifikasiyası ölkənin demokratikliyinin göstəricisidir...

Nəhayət, Lüksemburq Deputatlar Palatasının sədrinin Ermənistan parlamentindəki çıxışının son hissəsinə keçid alaq. Burada söhbət Avropa İttifaqı-Ermənistan siyasi münasibətlərindən gedib. Mövcud məsələdə spikerin üzərində dayandığı başlıca məqam Aİ-nin Azərbaycan-Ermənistan şərti sərhədindəki mülki müşahidə missiyası ilə bağlıdır. Sən demə, missiyanın səlahiyyət müddəti artırılmalı imiş. Hətta, müşahidəçilər Azərbaycanla Ermənistan arasında vasitəçiliyi reallaşdırmalı imişlər. Deyəsən, cənab Uisl İrəvanda olarkən yeməyini qarışdırıb, ya da hava ona ağır gəlib. Hər şey mümkündür. Nə bu adam, nə də onun ölkəsindəki həmkarları hələ də bilmirlər ki, Bakı və İrəvan arasında vasitəçilik dövrü arxada qalıb. Ən əsası isə belələri artıq saxta "ermənipərəstlik zəngulələri"nin hay avantürizminin davamı baxımından hansısa əhəmiyyət daşımadığının fərqinə varmırlar. Yaxşı olar ki, onlar Avropadakı erməni lobbi və diasporlarından başqa cür "faydalanmaq" yolları tapsınlar. Əks-halda, kənardan çox gülünc görünürlər.

Bəli, erməni müxaliflərin K.Uisl danışarkən iclas zalını tərk etmələri də lüksemburqlu deputat üçün biabırçı durumdur. O boyda məsafə qət edib Ermənistana gələsən, ölkədə hörmətsizlik görəsən? Bu, ona lazım idi?!

***R.ƏVƏZ***
***XQ***

# "Baqrat şou"nun iflasını artıq revanşistlər də anlayırlar

**Ermənistanda bir aydan çoxdur davam edən etiraz aksiyalarına dözümlü yanaşan Nikol Paşinyan iqtidarının, deyəsən, "tolerantlıq limiti" bitmək üzrədir. Əgər əvvəllər sanksiyalaşdırılmamış etiraz və itaətsizlik aksiyalarına çıxanlar saxlanıldıqdan bir müddət sonra sərbəst buraxılırdılarsa, son günlər etirazçılarla bağlı həbs qətimkan tədbirinin seçilməsi diqqəti cəlb edir. Ölkənin istintaq komitəsi dünən Hayastanın tanınmış müğənnisi "Spitaktsi Hayko" ləqəbli Aykaram Gevondyanın oğlu Qraçya Gevondyanın saxlanıldığı barədə məlumat yayıb. Məlumata görə, Gevondyan bir qrup şəxslə hökumət, parlament və polis binalarını zorakılıqla ələ keçirməyi planlaşdırmaqda ittiham edilir.**

Onun revanşist qüvvələrin mayın 26-da İrəvanın mərkəzində keçirməyi planlaşdırdıqları mitinq zamanı həmin hərəkətləri etmək niyyətində olduğu vurğulanıb. Gevondyanın əməllərinin üstünün onun telefon danışıqları əsnasında açıldığı qeyd edilib. Xəbərdə o da qeyd olunur ki, Qraçya parlamentdəki müxalifət fraksiyasının nümayəndələrindən birinə yaxındır. İstintaq komitəsinin yaydığı bütün videokadrlarda Gevondyanın sabiq prezident Robert Koçaryanın deputat oğlu Levonun yanında olduğu görünür. Saxlanılan şəxsin aprelin sonlarından etibarən, ölkədə keçirilən etiraz aksiyalarında fəal iştirak etməsi də diqqətdən yayınmır.

Q.Gevondyanın hakimiyyəti ələ keçirməyə cəhddə ittiham olunmasını onun vəkilləri isə təsdiqləyiblər. Onlar bildiriblər ki, cinayət işi hazırda təhqiqat mərhələsindədir. Vəkillər həbs qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı şikayət də veriblər. Hüquqşünasların fikrincə, bu, yalnız qarşıdakı günlərdə gözlənilən küçə iğtişaşlarını cilovlamaq üçün edilib və azad toplaşmağa qarşı yönəlib. Müdafiə tərəfi iddia edib ki, Gevondyanın hərəkətlərində hakimiyyəti ələ keçirməyə yönəlmiş hərəkətlərə dair eyham belə yoxdur. Ancaq onların şikayəti təmin edilməyib.

Ümumilikdə, Azərbaycanla demarkasiya prosesinə başlanılması səbəbindən Ermənistanda yaşanan gərgin atmosfer davam edir. Biz hər gün müxalifətin hakimiyyət əleyhinə hansısa addım atmasının, media müstəvisində ittihamlar irəli sürülməsinin şahidi oluruq. Müxalifət mayın 26-da arxiyepiskop Baqrat Qalstanyanın başçılığı ilə yeni mitinqə hazırlaşır. Eyni zamanda, hakim düşərgənin mənsubları da qarşı tərəfin ittihamlarını cavabsız qoymurlar. Hiss olunur ki, iqtidar komandasında monolitlik var. Onlar müdafiə deyil, hücum mövqeyindədirlər.

"Hraparak" qəzeti hökumət mənbələrinə istinadən məlumat yayıb ki, baş nazir Paşinyan "Vətən naminə Tavuş" hərəkatının və onun lideri B.Qalstanyanın addımlarını diqqətlə müşahidə edir. Qəzet, hətta, mübaliğəyə yol verərək, Paşinyanın prosesləri 24 saat boyunca canlı yayım vasitəsilə izlədiyini yazıb. Qeyd edilir ki, Ermənistan hökumətinin başçısı Qalstanyanın keçirdiyi görüşlərdəki çıxışlarını və mətbuata açıqlamalarını da diqqətlə nəzərdən keçirdikdən sonra, hökumət üzvlərinə və ya hakim partiyanın rəhbərliyinə bu bəyanatlara reaksiya verilib-verilməməsi ilə bağlı təlimatlar göndərir.

Onu da bildirək ki, etiraz aksiyalarına apostol kilsəsinin nümayəndəsinin rəhbərlik etməsi müxalifətin və iqtidarın qarşılıqlı ittihamlarında dini çaların öz əksini tapmasına səbəb olub. Qalstanyan özü mitinqlərdə və digər görüşlərdəki çıxışlarında dindən gen-bol bəhs edir. İki gün öncə parlamentin sədri Alen Simonyan "İncil"dən sitat gətirmişdi. Dünən isə hakim "Mülki müqavilə" partiyasından olan deputat Hayk Koncoryan müxalifəti tənqid edərkən bir qədər də qabağa gedib. O, sabiq prezidentlər Levon Ter-Petrosyanı, Robert Koçaryanı və Serj Sarkisyanı şeytan adlandırıb. Deputat revanşistləri siyasi murdarlıqda və cibgirlikdə ittiham edib. Koncoryanın sözlərinə görə, keçmiş hakimiyyətlər siyasi cibgirliklə xırda şeyləri yox, ölkənin bütün sərvətlərini mənimsəyiblər: "Xalqın olan-qalanını çapıb-taladınız, ciblərinizə doldurdunuz, hakimiyyətdən sui-istifadə etdiniz, indi də başqa donda qayıtmağa çalışırsınız. Ermənistanda siyasi bütpərəstliyin heç bir perspektivi yoxdur, çünki ölkədə yeni nizam, yeni siyasi ənənə yaranıb, demokratiya bərqərar olub. Bəziləri inanmırlar, amma biz hər şeyi bilirik. Kimlərsə yenə oğruları geri qaytarmağa çalışırlar. Hakimiyyəti geri almaq üçün insanların duyğularını istismar edirlər".

Şeytanın İsa məsihi üç dəfə sınadığı "Bibliya" hekayəsindən sitat gətirən Koncoryan deyib: "Şeytan erməni xalqını da Ter-Petrosyanın, Koçaryanın və Sarkisyanın timsalında üç dəfə sınayıb. Erməni xalqı şeytanın hər üç sınağından üzüağ çıxıb".

Deputat qeyd edib ki, Koçaryan 44 günlük müharibədən sonra baş nazir Paşinyanı devirərək hakimiyyəti ələ keçirməyə üç dəfə cəhd etsə də, bu cəhdlər nəticəsiz qalıb. Onun sözlərinə görə, Koçaryan bu dəfə orta əsrlər təfəkkürü ilə hərəkət edən erməni apostol kilsəsinə sığınaraq, onun çətiri altında özünün məkrli planını həyata keçirməyə çalışır: "Bu, həqiqətən də görünməmiş bir haldır. Kilsə üçün problem təkcə ondadır ki, indi orta əsrlər deyil. Hər yerdə kameraların olduğunu da hesablamamısınız. İndi orta əsrlər olmadığı kimi, o dövrün inkvizisiya münasibətləri də yoxdur. Hansısa din adamı özü orta əsrlərdə yaşaya bilər, amma o, düşüncə tərzini XXI əsrin xalqına sırıya bilməz".

B.Qalstanyanın mayın 21-də Qarabağdakı keçmiş separatçı rejimdə müxtəlif "vəzifə tutmuş" şəxslərlə və "deputatlarla" İrəvanda bağlı qapılar arxasında görüş keçirməsi də Ermənistanda müzakirə mövzusudur. Politoloq David Stepanyan Ermənistanda hakimiyyət dəyişikliyinə dair proqram açıqlayacağını elan edən Baqratın alternativlərinin olmadığına inanır: "Nə təklif etdiklərini anlamaq istəyirəm. Deyirlər ki, demarkasiya pisdir. O zaman daha yaxşısını təklif etsinlər, biz də dinləyək. Alternativ fəaliyyət planı yoxdursa, deməli, alternativ də yoxdur. Mən Paşinyanı Qalstanyan, Danielyan və ya Petrosyanla əvəz etmək fikrində deyiləm, buna əsas yoxdur".

D.Stepanyanın sözlərinə görə, "Vətən naminə Tavuş" hərəkatı müxtəlif mərkəzlərlə işləyir, amma ətrafında birlik yoxdur. Onun fikrincə, bunu iştirakçılarının sayı günbəgün azalan Qalstanyanın aksiyaları da sübut edir: "Küçələrdə insanların sayı azaldıqca, aqressivləşirlər. Aqressivləşdikcə sağa-sola hücum edirlər, qarşılarına çıxana "satqın" deyirlər. Bu dini hərəkat cəmiyyətdə tolerantlıq yaratmalı, insanları bir ideya, bəlkə də din ətrafında toplamalıdır, amma bunun tam əksini görürük, cəmiyyəti bölünməyə aparır. Artıq aqressivlik bütün hədləri aşır və bu, çox narahatedicidir".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** "XQ"yə açıqlamasında bildirdi ki, artıq Ermənistanın radikal müxalifəti də keşiş



Baqratın Paşinyanı devirə bilməyəcəyini anlamağa başlayıb. Onun sözlərinə görə, radikal müxalifət hər vasitədən istifadə etdi. Onlar 2021-ci ilin fevralında hərbi çevriliş yoluna baş vurdular, sonra bunun uğursuz olduğunu görüb həmin ilin yazında mitinqlər keçirdilər. Yenə də uğursuz olaraq, 2022-ci ildə bu addımlarını təkrarlamaq istədilər. İndi də uğursuzluğa düçar olublar. Çünki erməni cəmiyyətinin böyük hissəsi Paşinyanı dəstəkləyir: "Həmin erməni cəmiyyəti ki, artıq müharibə istəmir, bölgədə sülh istəyir. Paşinyan da onlara arxayındır. Keşiş heç bir nəticə əldə edə bilmədiyi üçün Tavuşa qayıtdı. Düzdür, bir-iki gün sonra yenidən İrəvana gələrək burada müxtəlif görüşlər keçirdi. Ancaq onun siyasi müxalifətin liderləri ilə görüşləri də nəticə vermədi. Baqrat mayın 26-da yeni mitinq planlaşdırır. Mən mitinqə çox adamın qatılacağını gözləmirəm. Artıq bu "potensial" da xərclənib".

E.Şahinoğlu qeyd etdi ki, keşiş baş nazir olmaq iddiasını ortaya qoyub, amma bunun üçün katolikosun xeyir-duasını vacib sayıb: "Ancaq katolikos da anlayır ki, keşişi hakimiyyət uğrunda mübarizədə dəstəkləmək hökumət başçısı ilə birbaşa qarşıdurmaya getmək deməkdir. Paşinyan daha sonra kilsəyə ayırdığı yardımları da kəsə bilər. Bununla bağlı parlament sədri Alen Simonyanın açıqlaması var. Yəni, Paşinyana Azərbaycanla məsələləri rahat şəkildə həll etməyə artıq heç nə mane olmur".

Politoloq onu da dedi ki, Prezident İlham Əliyev son açıqlamalarında iki ölkənin sülhə indiki qədər yaxın olmadığını bildirib: "Bu reallıqdır. Paşinyan da son aylarda "sülh sazişi üçün vaxt yetişib" deyir. Ermənistanda radikal müxalifət və kilsə sülhə maneə deyil. Onlar Paşinyandan xeyli zəifdirlər. Demək, həm rəsmi Bakının, həm də rəsmi İrəvanın saziş imzalamaq üçün iradəsi var, məsələni yekunlaşdırmaq lazımdır. Buna baxmayaraq, Ermənistanın hökumət üzvləri sülh sazişinə sərhəd məsələsini salmağa çalışırlar. Onlar sərhədin Alma-Ata bəyannaməsi əsasında müəyyənləşdirilməsini istəyirlər. Prezident İlham Əliyevin mövqeyi belədir ki, bütün məsələləri sülh sazişinə daxil etmək mümkün deyil. Çünki sərhədlərin müəyyənləşməsi vaxt aparan prosesdir. Digər tərəfdən Azərbaycan və Ermənistan arasında ortaq razılaşmada vurğulanıb ki, sərhəd harada mümkündürsə, Alma-Ata bəyannaməsinə görə müəyyənləşəcək, harada mübahisə yaranacaqsa, orada məsələ qarşılıqlı razılaşma əsasında həll olunacaq. Bu o deməkdir ki, əslində, rəsmi İrəvan da sərhədin hamısının adı çəkilən bəyannaməyə görə müəyyənləşməsinin çətinliklərini anlayır. Belə olan halda Alma-Ata bəyannaməsi sülh və ya çərçivə sazişinin imzalanmasına mane olmamalıdır".

Müsahibimiz İran Prezidenti və onu müşayiət edən nümayəndə heyətinin sərhədə gələrək dövlətimizin başçısı ilə görüşməsi nümunəsindən Ermənistan baş nazirinin də yararlana biləcəyini vurğuladı. Onun fikrincə, danışıqlarda əldə edilən müsbət nəticələr göstərir ki, Azərbaycanın və Ermənistanın vasitəçilərə ehtiyacı yoxdur. Tərəflər sülh və ya çərçivə sazişinin imzalanması üçün üçüncü ölkənin axtarışına ehtiyac duymurlar.

Politoloq onu da bildirdi ki, sülh və ya çərçivə sazişinin sərhədin sıfır nöqtəsində imzalanması mümkündür. Məsələn, Qazax və Tavuş istiqamətində sərhəd artıq müəyyənləşib, həmin hissədə şərait yaradıb liderlərin görüşü və sülh sazişinin imzalanması üçün hazırlıqlara başlanıla bilər. Bu, həm də sərhədin müəyyənləşən hissəsinin liderlər tərəfindən təsdiqi anlamına gələr.

***Səxavət HƏMİD***
***XQ***

# İlham Əliyev: postmüharibə dövrünün memarı

**III MƏQALƏ**

**Güclü zəkalar ideyalar yaradırlar.**

**Sokrat**

## Liderin strateji yol xəritəsi

XXI əsrdə müstəqil dövlətin başçısı və xalqın liderinin strateji yol xəritəsinin olması mütləq şərtdir. Dünya miqyasında geosiyasi vəziyyət o dərəcədə həssas və sürətli dəyişmə dinamikasına malikdir ki, milli və regional səviyyələrdə mənzərənin qlobal miqyasla daimi fəlsəfi və siyasi-nəzəri müqayisələri aparılmalıdır. Bu əsasda qısa və uzunmüddətli proqnozlar verilməlidir. Lakin buna realpolitika çərçivəsində nail olmaq üçün başlıca hədəf – strateji məqsəd dəqiq müəyyən edilməlidir. Əks halda ən yaxşı elmi əsası olan təhlil və proqnozlaşdırma üsulu belə ola biləcəkləri adekvat müəyyən etməyə yetərli olmayacaq. Bu tezisin fəlsəfi, konseptual və siyasi-nəzəri analizi ayrı məsələdir.

Qısa onu deyə bilərik ki, dünyanı mürəkkəb şəbəkə və ya qeyri-xətti mürəkkəb sistem kimi təsəvvür etsək, hər bir təkamül mərhələsində proseslərin rəngarəngliyi fonunda həmişə ortaq inkişaf istiqamətinin mövcud olduğunu görərik. Məsələ ondan ibarətdir ki, belə bir qeyri-müəyyən şəraitdə konkret məqsəd aydın olmayanda, sistem müxtəlif variantlar arasında manevrlər edir. Bunun nəticəsi inkişaf da ola bilər, deqradasiya da. Bu da riskdir.

Lakin xoşbəxtlikdən başqa bir özəllik də vardır. İnsanla bağlı olan istənilən mürəkkəb qeyri-xətti sistemi və ya şəbəkəni idarə etmək mümkündür. Bunun üçün əsas məqsəd müəyyən olunur, idarəetmə və nizamlama parametrləri ilə sistem (və ya şəbəkə) bütövlükdə həmin strateji məqsədin "cazibə sahəsinə" istiqamətləndirilir. Məhz həmin ümumi anlayış olan "cazibə sahəsi"nə toplumu və dövləti istiqamətləndirmək liderlik məharətini tələb edir!

Azərbaycan üçün bu strateji "cazibə sahəsi"nin məzmununu Ulu öndər siyasi aspektdə dəqiq müəyyən etmişdir. Onun ümumi ifadəsi müstəqil, demokratik, hüquqi dövlət və güclü vətəndaş cəmiyyətidir.

Strateji məqsədə çatmaq üçün, anladığım qədəri ilə, milli güclü dövlətdən regional güclü lider dövlətə keçid və sonrakı mərhələdə türk dövlətlərinin təşkilatlanması çərçivəsində aparıcı rola sahib olmaq və, nəhayət, digər beynəlxalq təşkilatlardakı fəaliyyətdən də maksimum yararlanmaqla Azərbaycan Respublikasının dünya dövlətləri sistemində "nizamlayıcı güc"lərdən biri səviyyəsinə yüksəlmək kimi vəzifələr müəyyən edilmişdir. Buna nail olmaq mexanizmləri də dəqiq müəyyənləşdirilmişdir və onları biz daim müşahidə edirik.

Bununla yanaşı, zaman kontekstində məsələnin liderlik aspektinin böyük məNası vardır. Burada istiqamətverici rolu Heydər Əliyevin yuxarıda vurğuladığımız liderlik təcrübəsinin özünəinam, cəmiyyətin daxili birlik və həmrəylik fəlsəfəsini yeniləşdirmə və milli dövlət quruculuğu kontekstində milli-regional-qlobal sintezin təmini kimi əlamətlər ön plana çıxır. Eyni zamanda, liderliyin bu əlamətlərinin konkret mərhələdə necə məzmunlaşması məsələsi aktuallaşır. Ona görə də hansı mərhələdən bəhs edilirsə, strateji yol xəritəsinin "cizgiləri"ni həmin kontekstdə müəyyən etmək zəruriyyəti dərk edilməlidir. Bizi "postmüharibə dövrü" adlandırılan tarixi dönəmdə liderin strateji yol



xəritəsinin məzmunu və funksional özəllikləri maraqlandırır.

Beləliklə, təhlili davam etdirmək üçün "Postmüharibə dövrü nədir?"– sualına fəlsəfi cavab tapılmalıdır.

## Postmüharibə dövrü

Bu terminin iki aspektdə anlamı vardır. Birinci, "postmüharibə" sözü müharibədən sonrakı zamanı ifadə edir. Yəni xronoloji olaraq müharibədən sonrakı vaxt başa düşülür: "Dövr" (və ya mərhələ) isə müharibədən sonra konkret proseslərə bütöv obyekt, vahid dinamika və bir neçə illik zaman kontekstində baxmağı ifadə edir. Məsələn, müharibədən sonra müəyyən illər çərçivəsində geosiyasi, siyasi, mədəni, iqtisadi, təhlükəsizlik və başqa proseslərə aid məntiqi çərçivədə özünüyaradan sistem və ya şəbəkə kimi baxmaq nəzərdə tutula bilər. Bu, artıq subyektin seçimindən, baxış özəlliyindən və qarşıya qoyulan məqsəddən asılıdır. Ancaq burada fəlsəfi və siyasi-nəzəri baxımdan çox əhəmiyyətli olan bir məqam mövcuddur. O, "postmüharibə dövrü" termininin ikinci – sırf fəlsəfi anlamına aiddir.

Deməli, ikinci, müəyyən hadisədən sonrakı zaman sürəcini "dövr" kimi mənalandırmaq üçün yeni keyfiyyətlər kompleksi müəyyən edilərək, onların kontekstində hansısa dövrdən bəhs etmək olar. Keyfiyyətlərin müəyyən edilməsi əsas hədəfi müəyyən etməyə əsaslanır. Bununla idraki dairə qapanır – hansısa böyük hadisədən sonra müəyyən dövrdən danışmaq üçün öncə nəzərdə tutulan zaman sürəcində strateji məqsəd və ona uyğun görmək istədiyin keyfiyyətlər kompleksi müəyyən olunmalıdır. Buna politologiyada liderlik strategiyası deyirlər. Daha doğrusu isə liderin strategiyası əsasında konkret mərhələnin "yaradılması"ndan söhbət gedir. Məhz bu mənada dünyanın məşhur filosofları, politoloqları, sosioloqları, psixoloqları, kulturoloqları Ümummilli liderdən, "bayraqdar lider"dən, "super liderdən" bəhs edirlər. Henri Kissincer də vurğuladığımız əsərində "postmüharibə dövrünü yaradan liderlər və onların qlobal düzənə təsiri"ndən yazırdı!

Bizcə, bu qısa izahlar və anlamların təsviri Heydər Əliyev–İlham Əliyev xəttinin Azərbaycan müstəqil dövlətçiliyi baxımından nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Həm də bizə tam əsas verir ki, "postmüharibə dövrü" anlayışı prizmasında İlham Əliyevin liderliyinin çox vacib bir özəlliyini fəlsəfi və siyasi-nəzəri təhlil edək. Nəyi nəzərdə tuturuq?

## Geosiyasi və siyasi memarlar

"Geosiyasi memar" və ya "arxitektor", "siyasi arxitektor" və ya "dövlət arxitektoru" kimi ifadələr məcazdır (metaforadır). "Arxitektor" sözü qədim yunancadan tərcümədə "baş inşaatçı (və ya qurucu)" anlamını verir. Bu terminlə yunanlar müxtəlif obyektləri inşa edənlərin başçısına status verirdilər. Yəni, kimsə bütün quruculuq işlərini ideyadan tutmuş layihədən keçərək konkret reallaşmaya qədər olan mərhələdə aparıcı rol oynamalı idi. Burada yaradılan yeni maddi strukturun (məsələn, binanın, körpünün və ya yolun) layihələşdirilməsi və sistemin təşkilinə məsul olan mütəxəssisdən söhbət gedir. Təbii ki, burada arxitektorun peşəkar olması əsas şərtdir.

Müasir dövrdə politoloqlar və filosoflar "axitektor" (memar) anlayışını metaforik mənada dövlət qurucularına, yeni milli, regional və qlobal geosiyasi struktur-funksional sistem (və ya mühit) yaradanlara və bütövlükdə, müxtəlif aspektləri özündə ehtiva edən şəbəkə formalaşdıran kreativlik keyfiyyətinə malik olan liderlərə aid edirlər. Təbii ki, burada da struktur formalaşdırma ilə yeni sistemin yaranmasının təşkilini həyata keçirən funksiyalar vəhdətdə olmalıdır.

Bu ümumi anlamın işığında "postmüharibə dövrünün arxitektoru" ifadəsini siyasi liderlik konktestində təhlil etmək olar. Onun semantik və funksional aspektlərinin fəlsəfi və siyasi-nəzəri izahını vermək mümkündür.

## Yeni dövrün quruсu lideri

Cənubi Qafqazın geosiyasi mənzərəsi və dinamikası kontekstində postmüharibə dövrü məsələsi son dərəcə dərin və çox sayda faktorlara bağlıdır. Çünki əsrlərlə bu regionda formalaşmış geosiyasi arxitekturanı dağıdıb, əvəzində müasir tələblərə uyğun olan yeni geosiyasi struktur-funksional şəbəkə yaratmaqdan söhbət gedir. Əlbəttə, bu cür çoxşaxəli yenidənqurmanı yalnız böyük liderlər reallaşdıra bilərlər.

Böyük dövlətlərin Cənubi Qafqazda maraqlarının nəinki azalmadığını, hətta, yeni vüsət və məzmunda daha da artdığını nəzərə alsaq, əvəzində qəlizliyi daha aydın olar. Yəni postmüharibə dövründə yeni geosiyasi dinamika yaratmaq istəyən lider müxtəlif istiqamətlərdən ciddi maneələrlə rastlaşacaq. Onları aşmadan nə yaxşı ideyanı və konstruktuv quruculuq proqramını belə həyata keçirmək imkansızdır.

II Qarabağ savaşından sonra ötən illər göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev yeni dövrün arxitektoru kimi çox uğurla fəaliyyət göstərir. Bütün maneələrə baxmayaraq, Azərbaycanın dövlət başçısı "yeni region" formalaşdırır. Həmin kontekstdə fəlsəfə və politologiya üçün çox aktual olan məsələ İlham Əliyevin "postmüharibə dövrü"nü necə məzmunlaşdırmağa çalışdığının əsas əlamətlərini izah etməkdən ibarətdir. Öncə, Azərbaycan Prezidentinin vurğulanan kontekstdə strateji məqsədinə aydınlıq gətirməyə çalışaq.

## Yeni strateji məqsədlər

Strateji məqsəd postmüharibə dövrünün məzmununu müəyyələşdirməkdədir. Məhz bu əlamətlərdən çıxış edərək Azərbaycan Prezidentinin postmüharibə dövrünü necə qurması haqqında danışa bilərik. Aydın görünür ki, Prezident İlham Əliyev postmüharibə dövründə Azərbaycanın yalnız sülh, barış, əməkdaşlıq və təhlükəsizliyi birgə təmin etmək kimi faktorları fəaliyyətinin mərkəzinə gətirmişdir. Bunlar müasir mərhələdə müstəqil Azərbaycan dövlətçiliyinin təkamülü aspektində çox vacib məsələlərdir.

Belə ki, Prezident İlham Əliyev müstəqil Azərbaycan Respublikasının dövlət kimi əsas keyfiyyətini belə müəyyən etmişdir: regionda müharibə variantını istisna edən, sülh, əməkdaşlıq və təhlükəsizliyi qalıcı regional faktorlar statusuna yüksəldən güclü, suveren və müstəqil dövlət!

Eyni zamanda, İlham Əliyevin vurğulanan istiqamətdə göstərdiyi siyasi-diplomatik fəaliyyət sülhün, əməkdaşlığın və təhlükəsizliyin sıx qarşılıqlı əlaqədə reallaşdırıldığına dəlalət edir. Yəni vurğulanan əlamətlər ayrı-ayrılıqda deyil, diplomatik məharət və real siyasi liderlik vasitəsi ilə məzmunlaşdırılır. Bu aspekt çox vacibdir.

Məsələ ondan ibarətdir ki, yuxarıda dövrün müəyyən geosiyasi özəllikləri prizmasında Cənubi Qafqazda sülh, əməkdaşlıq və təhlükəsizlik məsələlərini və real dəyişiklik etmək üçün qeyd etdiyimiz sistemüstü şəbəkə diplomatiyasını formalaşdırmaq lazımdır. Sistemüstü şəbəkə diplomatiyası geosiyasi arxitektura baxımından son dərəcə vacib olan sülh və əməkdaşlığı milli təhlükəsizliklə regional miqyasda əlaqələndirməyi tələb edir. Postmüharibə dövrünün geosiyasi arxitekturası bu "geosiyasi üçbucaq" daxilində struktur-funksional şəbəkəyə çevrilə bilər.

Real olaraq, sülh, əməkdaşlıq və təhlükəsizliyin vəhdətinə nail olmaq çox çətin məsələdir. Burada siyasi-diplomatik müstəvidə həmin faktorlar arasında nisbəti elə saxlamaq gərəkdir ki, regional miqyasda geosiyasi ahəngdarlıq pozulmasın. Geosiyasi ahəngdarlıq isə mütləq surətdə konseptual səviyyə ilə yanaşı, real fəaliyyət sahəsində ziddiyyətsiz hərəkəti tələb edir.

Öz növbəsində ziddiyyətsiz fəaliyyət praktikada çox sayda əməkdaşlıq formatları arasında elə əlaqələr qurmaq deməkdir ki, onlar bütöv halda regionun tərəqqisinə xidmət etsin. Məsələnin bu tərəfi praktiki siyasi liderlikdə çox mürəkkəb situasiyada aydın və sadə addımlarla ümumi mənzərəni mümkün ziddiyyətlərdən və qeyri-müəyyənliklərdən xilas etməyi nəzərdə tutur. Buradan postmüharibə dövründə sistemüstü şəbəkə diplomatiyasının çox aktual bir məqamına keçid etmək lazım gəlir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Günün sualı**

# Makron Yeni Kaledoniya yanğınını söndürə biləcəkmi?

**Yeni Kaledoniyada vəziyyət gərgin olaraq qalır. Fransa hərbçiləri Parisdən Fransanın bu dənizkənarı ərazisinin taleyi ilə bağlı qərarlarda iştirak etmək hüququna malik olmasını tələb edərək, yerli əhalinin etirazlarını vəhşicəsinə darmadağın edir. Qarşıdurmada 6 nəfərin öldüyü və 200-dən çoxunun yaralandığı bildirilir. Təxminən 240 etirazçının həbs olunması barədə məlumat var. Fransa hərbçilərinin cəza tədbirlərini davam etdirdikləri vaxtda prezident Emmanuel Makron Yeni Kaledoniyaya getməyə hazırlaşır.**

Fransanın mərkəzi hakimiyyət orqanları bazar ertəsi bildiriblər ki, təhlükəsizlik qüvvələri hava limanı ilə paytaxt Numea arasındakı yolu açıblar. Yeni Kaledoniyanın Ali Komissiyası jandarmların 40 kilometrlik yol boyu 76 barrikada və dağıntıları təmizlədiyini və yaxın günlərdə yolun yanmış avtomobillər də daxil olmaqla tamamilə təmizlənəcəyini bildirib. Səlahiyyətlilər hələlik hava limanının kommersiya reysləri üçün nə vaxt açılacağını açıqlamayıb. Bununla belə, fransızlar iğtişaşların tamamilə yatırılmadığını da etiraf ediblər. Paytaxt Numea şəhərinin meri Sonia Lagarde həftə sonu jurnalistlərə bildirib ki, Yeni Kaledoniya "mühasirə vəziyyətindədir". Onun sözlərinə görə, arxipelaqda bir çox ictimai bina yandırılıb və Fransadan hərbi qüvvə göndərilməsinə baxmayaraq adada vəziyyət qeyri-sabit olaraq qalır. Son məlumatlara görə, adadakı 1700 polisdən əlavə, Fransa hakimiyyəti Yeni Kaledoniyaya daha 1000-ə yaxın jandarm göndərib.

Xatırladaq ki, Yeni Kaledoniyada iğtişaşlar Fransa parlamentinin yerli qanunvericilik məclisinə seçkilərin prosedurunu dəyişdirən qanun layihəsini qəbul etməsindən sonra başlayıb. Çərşənbə günü təsdiqlənən düzəlişlərə görə, Fransadan 10 ildir Yeni Kaledoniyaya köçənlər də səsvermə hüququna malik olacaqlar. Təbii ki, bu, Yeni Kaledoniyanın yerli əhalisi olan kanakların narazılığına səbəb oldu. Kanaklar haqlı olaraq narazıqlarını bildirirlər ki, bu qanun onların maraqlarına cavab vermir. Ona görə ki, 270 min əhalisi olan ada sakinlərinin 40 faizini aborigen əhali təşkil edir və gəlmələrin sayının artması fonunda sözügedən qanunun qəbul edilməsi Kanak icmasının siyasi çəkisini azaldacaq. Yerli əhali hesab edir ki, yeni qanun onların seçki çəkisini azaldacaq, xalqı marginallaşdıracaq və beləliklə də kanakları adanın taleyini təyin etmək imkanından məhrum edəcək.

Yeni Kaledoniyadakı böhran Fransada müxalifət düşərgəsinin prezident Emmanuel Makron və onun hökumətini tənqid etməsinə səbəb olub. Sol düşərgədə belə bir fikir üstünlük təşkil edir ki, konstitusiya islahatından imtina etmək lazımdır, asayiş nümayəndələrinin zor tətbiq etməsi yolverilməzdir. Sosialist deputatlar müstəmləkəçilik vərdişləri,



repressiya, avtoritarizm və xalqın iradəsi haqqında danışırlar. Qanun layihəsinə səs verən sağ düşərgənin nümayəndələri isə əksinə, hökumətin bu tədbirlə bağlı qərarından əvvəl güc nümayiş etdirməyi və fövqəladə vəziyyət tətbiq etməyi istəyirlər.

Bu fonda Milli Birlik partiyasının rəhbəri Marin Le Penin bəyanatı maraq doğurur. "Le Monde" qəzetinə müsahibəsində o, qırx ildən sonra yeni referendumun keçirilməsini nəzərdə tutan yeni hərtərəfli iqtisadi sazişin bağlanmasının zəruriliyindən danışıb. Siyasətçi vurğulayıb ki, atası Jan-Mari Le Pen tərəfindən yaradılan Milli Cəbhə partiyası həmişə radikal baxışı müdafiə edib və Yeni Kaledoniyanın müstəqilliyinə qarşı olub. Marin Le Pen bu məsələdə özünü "daha az doqmatik" hesab edir. O, 2027-ci il prezident seçkilərində qalib gələrsə, kanakların istək və ənənələrini və onların torpaqlarına bağlılığını nəzərə alan məğlubiyyətsiz kompromis vəd edir.

Əlbəttə, Fransanın siyasi elitasında prezidentə qarşı tənqidlərin artması onsuz da reytinqi aşağı olan Makronu təxirəsalınmaz qərarlar qəbul etməyə vadar edir. Son məlumatlara görə, Yeni Kaledoniyadakı iğtişaşlar Fransa prezidentini iş qrafikində düzəlişlər etməyə məcbur edib. Makron Normandiyaya planlaşdırdığı səfər əvəzinə dənizaşırı ərazisinə yollanacaq. Məsələ ondadır ki, Avropa Parlamentinə seçkilər ərəfəsində Makronun partiyası müxalifətə uduzur. Siyasi şərhçilərin sözlərinə görə, seçkilərdə məğlubiyyət Makronun siyasətinə və onun vəzifədə qalmasına böyük zərbə olacaq. Çünki o, parlamentin aşağı palatası olan Milli Assambleyada mütləq çoxluqdan məhrumdur. İndi konstitusiya islahatı aparmaq onun üçün çətindir, Milli Birlik partiyası Avropa seçkilərindən nəzərəçarpacaq müvəffəqiyyətlə keçərsə, bunu etmək daha da çətinləşəcək.

Göründüyü kimi, Makron üçün çətin vəziyyət yaranıb və o, Yeni Kaledoniyada tez bir zamanda kompromis tapmağa çalışacaq. Amma bir çox mütəxəssis bunun qısa zamanda əldə ediləcəyinə inanmır. Ona görə ki, kanaklar mərkəzin onların istəyinə laqeyd yanaşmasının şahidi oldu. Paris aborigen xalqın tələblərini dinləmək və problemləri həll etmək əvəzinə, adaya qoşun göndərdi. Belə etimadsızlıq şəraitində də Yeni Kaledoniyada Makronun arzuladığı sabitliyi əldə etmək çətin olacaq.

**S.ELAY**
**XQ**

# Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin adının dəyişdirilməsi və "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 iyul tarixli 680 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutu adlandırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

**3.** "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 iyul tarixli 680 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 689 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında və 1-ci hissədə "Ali Hərbi Məktəbinin" sözləri "Hərbi İnstitutunun" sözləri ilə əvəz edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi" aşağıdakı redaksiyada verilsin:

## "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunun Nizamnaməsi

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutu (bundan sonra – İnstitut) ali və əlavə təhsil proqramlarını həyata keçirən, tətbiqi elmi tədqiqatlar aparan xüsusi təyinatlı dövlət ali hərbi təhsil müəssisəsidir.

1.2. İnstitut öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin normativ hüquqi aktlarını, Azərbaycan Respublikası daxili işlər nazirinin əmr və sərəncamlarını rəhbər tutur.

1.3. İnstitutun fəaliyyətinin əsas məqsədi ali təhsilin bakalavriat səviyyəsi üzrə ali hərbi təhsilli zabit kadrları hazırlamaq, hərbi elmlər sahəsində tətbiqi elmi tədqiqat işlərinin aparılmasını həyata keçirmək və hərbi qulluqçuların əlavə təhsilini təşkil etməkdir.

1.4. İnstitut hüquqi şəxsdir, onun müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, döyüş bayrağı və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin adı və öz adı həkk olunmuş möhürü, ştampları və blankları vardır.

1.5. İnstitutun əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. İnstitut məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.6. İnstitut öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.7. İnstitut "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya edilir.

1.8. İnstitutda siyasi partiyaların və dini qurumların strukturlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.

1.9. İnstitut Bakı şəhərində yerləşir.

**2. İnstitutun fəaliyyət istiqamətləri**

2.1. İnstitutun fəaliyyətinin əsas istiqamətləri tədris, təlim-tərbiyə, metodiki və elmi tədqiqat işlərindən ibarətdir.

2.2. Tədris işi hərbi-nəzəri və hərbi-praktiki biliklərə yiyələnmiş ali hərbi təhsilli zabit kadrları hazırlamaqdan, bütün növ tədris məşğələlərinin planlaşdırılmasından və həyata keçirilməsindən, təcrübi məşğələlərə rəhbərlik etməkdən, dəyişən heyətin tədris materialını mənimsəməsinin qiymətləndirilməsindən ibarətdir.

2.3. Təlim-tərbiyə işi şəxsiyyətin formalaşması üçün mütəşəkkil məqsədyönlü proses olmaqla, hərbi vətənpərvərlik, mənəvi-əxlaqi, hüquqi və fiziki tərbiyə məsələlərinin həllinə kompleks yanaşma əsasında tədris prosesi ilə birgə aparılır.

2.4. Təlim-tərbiyə işinin mahiyyəti aşağıdakılardan ibarətdir:

2.4.1. dəyişən heyətə vətənpərvərlik hisslərini aşılamaq, onları Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və digər normativ hüquqi aktlara əməl etmək, habelə insan və vətəndaş hüquq və azadlıqlarına hörmət ruhunda tərbiyə etmək;

2.4.2. dəyişən heyətə dövlətə, xalqa sədaqət, xidməti borcun yerinə yetirilməsinə məsuliyyətlə yanaşma, yüksək intizam və mənəviyyat, mətinlik, fiziki dözümlülük və hərbi peşəkarlıq keyfiyyətləri aşılamaq;

2.4.3. dəyişən heyətin hərbi nizam-intizamını və döyüş hazırlığını təmin etmək;

2.4.4. dəyişən heyətin milli və ümumbəşəri dəyərlərə yiyələnməsini təmin etmək.

2.5. Metodiki işin məqsədi bütün növ tədris məşğələlərinin keçirilməsi metodikasını təkmilləşdirmək, onun keyfiyyətini və effektivliyini artırmaq, rəhbər heyətin, professor-müəllim heyətinin və dəyişən heyətin komandirlərinin peşəkarlıq səviyyəsini artırmaqdır.

2.6. Metodiki işin əsas formaları aşağıdakılardır:

2.6.1. tədris məşğələlərinin, təlim-tərbiyə işinin aparılması və təminatı üçün tədris-metodiki sənədlərin işlənilməsi;

2.6.2. rəhbər heyətin, professor-müəllim heyətinin və dəyişən heyətin komandirlərinin pedaqoji ustalığının artırılması, bu məqsədlə tədris-metodiki toplantıların, müşavirələrin və elmi-metodiki konfransların keçirilməsi;

2.6.3. tədris məşğələlərinə nəzarətin həyata keçirilməsi;

2.6.4. pedoqoji (metodiki) təcrübənin keçirilməsi və onun nəticələrinin tədris prosesində tətbiqi;

2.6.5. tədris və təlim-tərbiyə prosesi metodikasına İnstitutun Elmi Şurasında və kafedra iclaslarında baxılma.

2.7. İnstitutun elmi tədqiqat fəaliyyəti hərbi elmin müvafiq sahələrinin inkişafına və tətbiqi elmi tədqiqatların nəticələrinin tədris prosesində tətbiqinə yönəldilir.

2.8. Elmi tədqiqat işinin mahiyyəti aşağıdakılardan ibarətdir:

2.8.1. dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, məcmuələr, mühazirə, elmi-metodiki və konfrans materialları, həmçinin məlumat bülletenləri hazırlamaq;

2.8.2. tətbiqi elmi tədqiqat işlərinin aparılmasını təşkil etmək və həmin sahədə metodiki kömək göstərmək.

**3. İnstitutun vəzifələri və hüquqları**

3.1. İnstitutun vəzifələri aşağıdakılardır:

3.1.1. təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

3.1.2. təlim-tərbiyə prosesində innovativ texnologiyalardan və yeni təlim üsullarından istifadə etmək;

3.1.3. ali təhsilin bakalavriat səviyyəsi və əlavə təhsil üzrə təhsil proqramlarını həyata keçirmək;

3.1.4. İnstitutun profilinə uyğun olaraq tətbiqi elmi tədqiqatlar aparmaq və elmi-metodiki sənədləri hazırlamaq;

3.1.5. təhsil proqramlarına (kurikulumlara) uyğun tədris-metodiki sənədlər hazırlamaq;

3.1.6. İnstitutun Elmi Şurasının işini təşkil etmək;

3.1.7. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, İnstitutun fəaliyyət istiqamətləri üzrə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.8. İnstitutun daimi heyətinin əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.9. İnstitutun fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.10. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.11. İnstitutda dövlət sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.12. İnstitutun informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.13. İnstitutun strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Baş İdarəsinə təkliflər vermək;

3.1.14. İnstitutun maddi-tədris bazasının möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində işlər görmək;

3.1.15. İnstitutda kargüzarlığı və vətəndaşların qəbulunu normativ hüquqi aktların tələblərinə uyğun təşkil və təmin etmək;

3.1.16. dəyişən heyətin "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq attestasiyasını keçirmək;

3.1.17. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhsil haqqında dövlət sənədini və təhsilə dair digər sənədləri vermək;

3.1.18. təlim-tərbiyə prosesini yüksək səviyyədə təşkil etmək, onun monitorinqini keçirmək, dəyişən heyətin intellektual, mədəni və mənəvi inkişafını təmin etmək, peşəkarlıq xüsusiyyətlərinin formalaşdırılmasına nəzarət etmək;

3.1.19. İnstituta hər il təsdiq edilən dövlət büdcəsində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları (bundan sonra - Daxili Qoşunlar) üçün nəzərdə tutulmuş vəsait çərçivəsində ayrılan büdcə vəsaitindən, habelə kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.20. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn, habelə bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün İnstitutun aşağıdakı hüquqları vardır:

3.2.1. şəxsi heyət üçün idman, sağlamlıq, iaşə və məişət xidmətlərini təşkil etmək;

3.2.2. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.3. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.4. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.5. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.6. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.7. İnstitutun hərbi qulluqçularına və mülki işçilərinə fəxri adlar, dövlət təltifləri və mükafatlar verilməsi üçün Azərbaycan Respublikası daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı (bundan sonra – Daxili Qoşunların komandanı) qarşısında vəsatət qaldırmaq;

3.2.8. Daxili Qoşunların təlim mərkəzlərindən istifadə etmək;

3.2.9. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn, habelə bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. İnstitutun strukturu və idarə olunması**

4.1. İnstitutun strukturuna rəhbərlik, kafedralar, şöbələr və xidməti bölmələr daxildir.

4.2. İnstitutun strukturunu, ştat cədvəlini və xərclər smetasını Azərbaycan Respublikasının daxili işlər naziri təsdiq edir.

4.3. İnstitutun rəhbərliyi rektordan və prorektorlardan ibarətdir.

4.4. İnstitutun rektoru Azərbaycan Respublikası daxili işlər nazirinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən, prorektorlar isə Daxili Qoşunların komandanının təqdimatına əsasən Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

4.5. İnstitutun rektoru bilavasitə Daxili Qoşunların komandanına tabedir. İnstitutun rektoru İnstitutun bütün şəxsi heyətinin birbaşa rəisi olmaqla, onların fəaliyyətini təşkil edir, ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

4.6. İnstitutun rektoru:

4.6.1. İnstitutun fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.6.2. İnstitutun struktur bölmə rəhbərlərinin səlahiyyətlərini və digər şəxsi heyətin vəzifə öhdəliklərini müəyyən edir;

4.6.3. İnstitutda daxili intizam və günün nizam qaydalarını təsdiq edir;

4.6.4. İnstitutun ştat vahidlərinin sayına və strukturunun təkmilləşdirilməsinə dair Daxili Qoşunların komandanına təkliflər verir;

4.6.5. İnstitutun maddi vəsaitlərinin uçotunu təşkil edir, onlardan istifadəyə nəzarət edir;

4.6.6. Azərbaycan Respublikası daxili işlər nazirinin əmr və sərəncamlarında, habelə Daxili Qoşunların komandanının əmrlərində nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

4.6.7. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin hüquqi aktlarının icrasını fəaliyyət istiqamətlərinə uyğun olaraq təşkil edir və bu işə nəzarəti həyata keçirir, habelə İnstitutun fəaliyyəti ilə bağlı icrası məcburi olan daxili əmr və göstərişlər verir;

4.6.8. şəxsi heyətə hərbi rütbələr verilməsi, şəxsi heyət üzvlərinin təltif edilməsi, vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Daxili Qoşunların komandanı qarşısında vəsatət qaldırır;

4.6.9. dəyişən heyətdən olan hərbi qulluqçunun İnstitutdan xaric edilməsi məqsədilə Daxili Qoşunların komandanına təqdimat verir;

4.6.10. İnstitutun daimi və dəyişən heyətinin pul təminatını, əməyinin ödənilməsini və mükafatlandırılmasını təşkil edir;

4.6.11. İnstitutda kargüzarlıq və arxiv işinin aparılmasını, dövlət sirrinin qorunmasını, təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini və məxfilik rejiminə riayət olunmasını təmin edir;

4.6.12. İnstitutda vətəndaşların qəbulunu və müraciətlərinə baxılmasını təmin edir.

4.7. İnstitutun 2 (iki) prorektoru vardır. Prorektorlar İnstitutun rektoruna tabe olmaqla, şəxsi heyətin birbaşa rəisləridirlər.

4.8. Tədris, metodiki və təlim-tərbiyə işlərinə bilavasitə rəhbərliyi İnstitutun tədris işləri üzrə prorektoru, elmi tədqiqat işlərinə bilavasitə rəhbərliyi isə Hərbi elmi şöbənin rəisi həyata keçirir.

4.9. İnstitutun ali idarəetmə orqanı İnstitutun ictimai əsaslarla fəaliyyət göstərən Elmi Şurasıdır (bundan sonra – Elmi Şura).

4.10. Elmi Şuranın tərkibi İnstitut rektorunun təqdimatı ilə Daxili Qoşunların komandanı tərəfindən təsdiq edilir. Elmi Şuranın tərkibinə İnstitutun rektoru (Elmi Şuranın sədri), prorektorları, şöbə və kafedra rəisləri (müdirləri) daxildirlər. İnstitut rektorunun Daxili Qoşunların komandanı qarşısında qaldırdığı vəsatətə əsasən, Elmi Şuranın tərkibinə digər şəxslər də daxil edilə bilərlər. Elmi Şuranın professor-müəllim heyətindən, elmi işçilərdən, habelə başqa mütəxəssislərdən ibarət olan digər üzvləri həmin kollektivlərin iclaslarında gizli səsvermə yolu ilə, iclasda iştirak edən şəxslərin sadə səs çoxluğu ilə seçilirlər. Elmi Şuranın iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Elmi Şuranın iclaslarında qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul olunur.

4.11. İnstitutun tədris işləri üzrə prorektoru Elmi Şura sədrinin müavinidir. Elmi Şura üzvlərindən biri açıq səsvermə yolu ilə, Elmi Şuranın iclasında iştirak edən üzvlərin sadə səs çoxluğu ilə Elmi Şuranın katibi seçilir. Elmi Şuranın səlahiyyət müddəti 3 (üç) ildir. Elmi Şuranın yenidən yaradılmasını və ya üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsini İnstitut rektorunun vəsatəti əsasında Daxili Qoşunların komandanı həyata keçirir.

4.12. Elmi Şuranın qərarları İnstitut rektorunun əmrləri ilə elan olunur.

4.13. Elmi Şura:

4.13.1. bu Nizamnamədə dəyişiklik edilməsinə dair təkliflər hazırlayır;

4.13.2. İnstitutun perspektiv inkişaf və cari planlarına dair qərarlar qəbul edir;

4.13.3. təhsil, metodiki iş, təlim-tərbiyə işi, maddi-tədris bazası, redaksiya-nəşriyyat, döyüş hazırlığı məsələləri ilə bağlı qərarlar qəbul edir;

4.13.4. İnstitutun struktur bölmələrinin hesabatlarını dinləyir;

4.13.5. professor-müəllim heyətinə və əməkdaşlara elmi-pedaqoji fəaliyyətə görə elmi adların verilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq vəsatət qaldırır;

4.13.6. İnstitutda tədris prosesinin, tədris-metodiki işin və elmi tədqiqat işlərinin planlaşdırılmasını, təşkilini və həmin sahəyə nəzarəti həyata keçirir;

4.13.7. İnstitutun struktur bölmələrinin vəzifələrini təsdiq edir;

4.13.8. İnstitutda elmi tədqiqat işlərinin istiqamətlərini müəyyən edir;

4.13.9. İnstitutun fəaliyyət istiqamətləri, idarə olunması və tədrisin təşkili ilə bağlı digər məsələlərə baxır.

4.14. Dəyişən heyətdə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə əməletmə vərdişi yaratmaq və İnstitutda nizam-intizamı təmin etmək məqsədilə intizam orqanları – Ali İntizam Şurası və Tabor İntizam Şurası yaradılır. İntizam orqanlarının strukturu, vəzifələri və hüquqları Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən müəyyən olunur.

**5. Tədris işinin təşkili və elmi tədqiqat fəaliyyəti**

5.1. İnstitutda tədris işi "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, bu Nizamnamə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müvafiq normativ hüquqi aktları əsasında təşkil olunur və aparılır.

5.2. İnstitutda ali təhsilin aşağıdakı səviyyələri üzrə təhsil proqramları (kurikulumlar) həyata keçirilir:

5.2.1. bakalavriat;

5.2.2. əlavə təhsil.

5.3. İnstitutda təhsil əyani formada təşkil olunur. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, İnstitutda əlavə təhsil üzrə digər təhsilalma formaları tətbiq edilə bilər. Tədris dili Azərbaycan dilidir.

5.4. İnstitutda tədris məşğələlərinin əsas növlərini – mühazirə, seminar, tematik müKalimə (kollokvium), praktiki məşğələlər, məsləhət saatı, elmi tədqiqat işləri təşkil edir. Ayrı-ayrı fənlər üzrə Elmi Şuranın qərarı ilə müəyyən edilmiş digər növ məşğələlər də keçirilə bilər.

5.5. İnstitutda mütəxəssis hazırlığı elmlə təhsilin vəhdəti əsasında həyata keçirilir.

5.6. İnstitutda aparılan elmi tədqiqat işləri tətbiqi xarakter daşıyır.

5.7. İnstitut apardığı elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində tətbiq olunmasını və onların elmi məqalələr, metodiki vəsaitlər şəklində dərc olunmaqla, elmi forumlarda məruzə edilərək yayılmasını təşkil edir.

5.8. İnstitutda həyata keçirilən elmi tədqiqat fəaliyyətinin məqsədləri aşağıdakılardır:

5.8.1. tətbiqi elmi tədqiqatlar aparılmasını və elmi-texniki işlərin həyata keçirilməsini təmin etmək;

5.8.2 kadrların elmi potensialından səmərəli istifadə etməklə təlimin keyfiyyətini yüksəltmək;

5.8.3. professor-müəllim heyətinin ixtisas səviyyəsini artırmaq;

5.8.4. tədris prosesi ilə elmi fəaliyyətin vəhdətini təmin etmək;

5.8.5. elmi tədqiqatların nəticələrinin tədris prosesində və Daxili Qoşunların praktiki fəaliyyətində tətbiqi barədə vəsatət qaldırmaq;

5.8.6. elmi tədqiqat işlərinin əsas istiqamətləri üzrə yerli və beynəlxalq təcrübəni öyrənmək və ümumiləşdirmək;

5.8.7. Daxili Qoşunlar üçün analitik, məsləhət və proqnozlaşdırma fəaliyyətini həyata keçirmək;

5.8.8. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin normativ hüquqi aktlarının layihələrinin hazırlanmasında iştirak etmək;

5.8.9. yerli və xarici ekspertlərin iştirakı ilə elmi seminarlar, konfranslar, simpoziumlar və digər tədbirlər keçirmək.

5.9. İnstitutda elmi tədqiqat fəaliyyəti Elmi Şuranın təsdiq etdiyi perspektiv inkişaf və cari planlara uyğun olaraq həyata keçirilir.

**6. İnstituta qəbul**

6.1. Azərbaycan Respublikası vətəndaşlarının İnstituta qəbulu "Hərbi vəzifə və hərbi xidmət haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun həyata keçirilir.

6.2. İnstituta qəbul yerlərinin sayı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

6.3. İnstitutda ali təhsilin bakalavriat səviyyəsinə qəbul olunmaq üçün namizədlər Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müəyyən etdiyi tələblər əsasında həmin Nazirlik tərəfindən seçilirlər.

6.4. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq İnstitutda ali təhsilin bakalavriat səviyyəsinə qəbul biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir.

6.5. Abituriyentlərin İnstituta kursant qismində qəbulu İnstitut rektorunun əmri ilə təsdiq olunur.

6.6. Hərbi qulluqçuların İnstitutda əlavə təhsili Daxili Qoşunların komandanının müvafiq əmri ilə həyata keçirilir.

6.7. İnstituta qəbul edilən və əvvəllər hərbi and içməmiş dəyişən heyət Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi" ilə müəyyən olunmuş qaydada hərbi and içir.

**7. Daimi və dəyişən heyət**

7.1. İnstitutun şəxsi heyəti daimi və dəyişən heyətdən ibarətdir.

7.2. Daimi heyətə rəhbərlik, dəyişən heyətin komandirləri, professor-müəllim heyəti və elmi heyət, digər hərbi qulluqçular və mülki işçilər daxildir.

7.3. Daimi heyətdən olan hərbi qulluqçuları Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnaməyə uyğun olaraq, Azərbaycan Respublikasının daxili işlər naziri və Daxili Qoşunların komandanı vəzifəyə təyin və vəzifədən azad edir. Hərbi qulluqçular istisna olmaqla, daimi heyətdən olan digər şəxsləri İnstitutun rektoru Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq işə qəbul və işdən azad edir.

7.4. Daimi heyətdən olan hərbi qulluqçuların hüquq və vəzifələri Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam nizamnaməsi", Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi", Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu və hərbi xidmət sahəsində Azərbaycan Respublikasının digər qanunları, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, habelə bu Nizamnamə və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin normativ hüquqi aktları ilə müəyyən olunur.

7.5. Hərbi qulluqçular istisna olmaqla, daimi heyətin tərkibinə daxil olan digər şəxslərin, o cümlədən İnstitutun inzibati, inzibati-idarəetmə, inzibati-təsərrüfat, mühəndis-texniki, tədris-köməkçi heyətinə aid şəxslərin hüquq və vəzifələri Azərbaycan Respublikasının Əmək Məcəlləsi, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, bu Nizamnamə və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin normativ hüquqi aktları ilə müəyyən olunur.

7.6. Daimi və dəyişən heyət vəzifə öhdəlikləri və təlim-tərbiyə prosesi ilə bağlı olmayan işlərə və tədbirlərə yalnız Daxili Qoşunların komandanının razılığı ilə cəlb oluna bilərlər.

7.7. Professor-müəllim heyətinə şöbə və xidməti bölmələrin rəisləri (müdirləri), onların müavinləri, kafedra rəisləri (müdirləri), professor, dosent, baş müəllim və müəllim vəzifələrini tutan hərbi qulluqçular və mülki işçilər aiddirlər.

7.8. Professor-müəllim heyətinin say tərkibi, tədris yükündən asılı olaraq, Daxili Qoşunların komandanının əmri ilə müəyyən edilir.

7.9. Professor-müəllim heyəti vəzifələrinə təyinat zamanı elmi ada və elmi dərəcəyə, vəzifənin profilinə uyğun ali təhsilə və pedaqoji təcrübəyə malik şəxslərə üstünlük verilir.

7.10. Professor-müəllim heyətinin üzvləri məşğələlərin keçirilməsi zamanı dəyişən heyətin rəisləri hesab olunurlar. Professor-müəllim heyətinin tədris məşğələlərinin keçirilməsi zamanı verdiyi göstərişləri dəyişən heyət mütləq yerinə yetirməlidir.

7.11. Tədris, təlim-tərbiyə, metodiki və elmi tədqiqat işləri kafedraların planları, həmçinin tədris ili üçün fərdi planlar əsasında professor-müəllim heyəti tərəfindən həyata keçirilir.

7.12. Professor-müəllim heyəti və elmi işçilər təlim-tərbiyə sahəsində uğurlarına və nailiyyətlərinə görə hərbi qulluqçulara münasibətdə Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam nizamnaməsi"ndə, digər işçilərə münasibətdə Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş həvəsləndirmə tədbirləri ilə yanaşı, dövlət mükafatları, fəxri adlar, orden və medallar, döş nişanları və fəxri fərmanlarla təltif edilə bilərlər.

*(ardı 9-cu səhifədə)*

# Avropanın Azərbaycan qazına tələbatı artır

## IGB tutumunun genişləndirilməsində növbəti mərhələyə start verilib

**(əvvəli 1-ci səhifədə)**

Dövlətimizin başçısı nitqində dünyada cari geosiyasi vəziyyətin bu fikri bir daha sübuta yetirdiyini, Azərbaycan qazının Avropa bazarlarına çıxarıldığını və indi isə "mavi yanacağ"ın Bolqarıstana daxil olduğunu vurğulayıb.

Artıq bir neçə gündür ki, Azərbaycan təbii qazını Bolqarıstana nəql edən Yunanıstan-Bolqarıstan İnterkonnektorunun (IGB) tutumunun genişləndirilməsinin məcburi mərhələsi başlayıb.

IGB-nin operatoru ICGB şirkətinin yaydığı məlumata görə, bütün maraqlı tərəflərin bu il iyunun 24-dək qeydiyyat sənədlərini, iyulun 2-12-dək isə məcburi mərhələ ilə bağlı təkliflərini təqdim etməsi istənilir. Məcburi mərhələ ilə bağlı nəticələrin cari ilin sentyabrında açıqlanması nəzərdə tutulur.

ICGB-nin səyləri Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Ukrayna, Moldova və Slovakiyanın Transmissiya Xidmətləri Operatorlarını (TSO) birləşdirən Şaquli Qaz Dəhlizi təşəbbüsünün bir hissəsi kimi, Mərkəzi və Cənub-Şərqi Avropaya, eləcə də Ukrayna və Moldovaya təbii qaz tədarükünə yönəldilib.

Bildirilir ki, IGB-nin hazırda illik ötürmə qabiliyyəti 3 milyard kubmetrdir və müvafiq prosedurlar başa çatdıqdan sonra borunun tutumu 5 milyard kubmetrə qədər artırıla bilər.

"Mövcud təbii qaz infrastrukturunun istifadəsi sahəsində daha güclü əməkdaşlığın təşviq edilməsi, Şaquli Qaz Dəhlizi çərçivəsində genişləndirmə təşəbbüsləri əlaqələri artıracaq və Avropa bazarlarına istehlak ehtiyaclarını ödəmək üçün müxtəlif mənbələrdən daha böyük həcmdə təbii qaz idxal etmək imkanı verəcək. IGB-nin şaxələndirilmiş mənbələrdən qaz tədarükü geniş region üçün mühüm əhəmiyyət kəsb edir və genişlənmə mayeləşdirilmiş təbii qazın (LNG) təkmilləşdirilmiş bazar çıxışını da təmin edəcək", – deyə ICGB-nin məlumatında qeyd olunub.

Qeyd edək ki, IGB-nin ümumi uzunluğu 182 kilometrdir, Bolqarıstanın və Yunanıstanın qaz nəqli şəbəkələrini birləşdirir. Layihə 2011-ci ildə Bolqarıstanda qeydiyyatdan keçən Bolqarıstan-Yunanıstan "ICGB AD" investisiya şirkəti tərəfindən Bolqarıstanın Enerji Holdinqi və Yunanıstanın "IGI Poseidon" şirkətinin səhmdarları ilə birlikdə reallaşdırılır və hər biri 50 faiz paya malikdir.

İnterkonnektorun ümumi dəyəri 240 milyon avrodan çoxdur. Avropa Komissiyası 2010-cu ildə texniki-iqtisadi əsaslandırmalar üçün 45 milyon avro qrant yardımı və Bolqarıstanın həyata keçirdiyi proqram çərçivəsində 35 milyon avro məbləğində daha bir ödəniş ayırıb. Avropa İnvestisiya Bankı isə 110 milyon avro kredit verib.

Xatırladaq ki, IGB Azərbaycanın "Şahdəniz-2" yatağından hasil edilən təbii qazı Bolqarıstana çatdırır. Bu məqsədlə Bolqarıstanın "Bulgargaz EAD" dövlət şirkəti "Şahdəniz" konsorsiumu ilə müqavilə imzalayıb. Boru xəttinin illik ötürmə gücü 3 milyard kubmetr təşkil edir. Perspektivdə bu göstərici ildə 5 milyard kubmetrədək artırıla bilər. Beləliklə, Azərbaycan təbii qazı Bolqarıstanın tələbatının 25-30 faizini ödəyir.

Onu da qeyd edək ki, Azərbaycan qazının Avropaya nəqli 2020-ci ilin axırında Cənub Qaz Dəhlizinin (CQD) sonuncu seqmentinin – TAP-ın işə düşməsi ilə başlayıb. Hazırda Türkiyə, Gürcüstan, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya Azərbaycan qazının alıcılarıdır. Göründüyü kimi, yeni çağırışlar qarşısında Azərbaycan qazına tələbat artır.

Yeri gəlmişkən, dövlətimizin başçısı yuxarıda xatırlatdığımız IGB-nin açılış mərasimindəki nitqində vurğuladığı kimi, Avropanın enerji xəritəsini dəyişmiş




CQD qitə üzrə ən böyük infrastruktur layihələrindən biridir. Ölkə rəhbəri daha sonra diqqətə çatdırıb ki, Azərbaycan CQD-ni başlayan tərəf olmaqdan qürur hissi duyur: "Cənub Qaz Dəhlizi qazı istehlakçılara yeni marşrutla, o cümlədən yeni mənbədən nəql edir. Bu vaxta qədər yeganə mənbə Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz yatağı olmuşdur. Lakin Azərbaycanın bir neçə digər qaz yatağında hasilat bu yaxınlarda başlayacaq və təchizat həcmlərinin artırılmasına töhfə verəcəkdir".

Onu da deyək ki, Yunanıstan-Bolqarıstan qaz kəməri 2022-ci il oktyabrın əvvəlində kommersiya istismarına verilib. IGB Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının istismarının II mərhələsi çərçivəsində hasil edilən "mavi yanacağ"ın Bolqarıstana nəqlini nəzərdə tutur. "Bulgargaz EAD" dövlət şirkəti "Şahdəniz-2" yatağından 1 milyard kubmetr qazın tədarükü üçün "Şahdəniz" konsorsiumu ilə müqavilə imzalayıb.

Ümumi uzunluğu 182 kilometr olan boru kəmərinin 150 kilometrlik hissəsi Bolqarıstan ərazisindən keçir. Boru kəmərin illik ötürücülük qabiliyyətinin 3-5 milyard kubmetr olacağı gözlənilir.

Əsrimizin ən böyük layihələrindən biri olan Cənub Qaz Dəhlizi (CQD) dörd seqmentdən – "Şahdəniz Mərhələ-II", Cənubi Qafqaz Boru Kəməri (CQBK), Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Qaz Boru Kəmərindən (TAP) ibarətdir.

Yeri gəlmişkən, 1997-ci ildən bünövrəsi qoyulan CQD 2003-cü ildə layihənin rentabelsizliyi ehtimalı, eyni zamanda, digər təzyiqlərin və bürokratik proseslərin nəticəsi olaraq reallaşmadı. Lakin 2013-cü ildə Prezident İlham Əliyev CQD-nin dörd layihəsi – "Şahdəniz", "Cənub Qafqaz Boru Kəməri", TANAP və TAP-ın genişləndirilməsi ilə bağlı müvafiq sərəncam imzaladı. Bu 4 layihənin hər birinin genişləndirilməsi isə CQD-nin işə salınmasını gerçəkləşdirdi. Bununla da, Azərbaycan qazı ilə Avropanın təchiz edilməsinə start verildi. 2014-cü ildə bu proseslərin hüquqi status alması, proseslərdə idarəçiliyin daha yüksək səviyyədə aparılması məqsədilə Prezident İlham Əliyev tərəfindən CQD Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. 2015-ci ildən isə CQD Məşvərət Şurasının toplantıları keçirilməyə başladı.

Xatırladaq ki, CQD-nin 2018-ci il mayın 29-da Səngəçal terminalında rəsmi açılış mərasimi keçirilib və Azərbaycan təbii qazı həmin dəhlizin sisteminə vurulub. Beləliklə, Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində qurulan "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birgə qaz hasilatına başlanılıb. Həmin il iyulun sonunda isə "Şahdəniz Bravo" platformasından ilk qaz əldə olunduğu vaxtdan isə hasilat tədricən artıb. Mövcud "Şahdəniz" qurğularının hasilat gücü gündəlik 56 milyon (ildə 20 milyard) standart kubmetr təşkil edib.

CQD artıq Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. İtaliyada dəfələrlə qeyd olunub ki, enerji qiymətlərinin kəskin artması nəticəsində yaranmış böhrandan ölkənin uğurla çıxmasına məhz Azərbaycan qazı kömək edib. Xatırladaq ki, Azərbaycan İtaliyaya neft tədarükündə birinci, qaz tədarükündə isə üçüncü yerdədir. Gələcəkdə Albaniya, Monteneqro, Bosniya və Herseqovina, həmçinin Xorvatiya istehlakçıları da TAP-ın şimal qoluna çevriləcək İon-Adriatik boru kəməri (2025-ci ildə istifadəyə verilməlidir) vasitəsilə Azərbaycan qazından istifadə edə biləcəklər.

Azərbaycanın təmin etdiyi əlavə həcmlər bu ildən Serbiyanın, həmçinin ötürücülük gücü artırılan TAP-ın təchizatının da mənbəyidir. Bütün bunlar, eləcə də "Abşeron Faza1", "AÇG Dərin Qaz", "Ümid Mərhələ-2", "Qarabağ" layihələrinin işlənilməsi üzrə görülən tədbirlər mövcud şəraitdə Azərbaycanın səylərinin və etibarlı tərəfdaş olmasının bariz göstəriciləridir.

**V.BAYRAMOV**
**XQ**

## İpoteka kreditlərinin sayı 50 mini keçib

**İpoteka və Kredit Zəmanət Fondu (İKZF) 50 min 35 borcalana 3 milyard 75 milyon 946 milyon manat kredit verib.**

İKZF-dən aldığımız məlumata əsasən, indiyə qədər 439 milyon 716 manat məbləğində biznes kreditlərinə zəmanət verilib, 4434 mənzil isə kirayəyə vermək yolu ilə reallaşdırılıb.

Xatırladaq ki, İKZF 2017-ci ilin sonunda "Azərbaycan İpoteka Fondu" və "Kredit Zəmanət Fondu" ASC-lərin birləşməsi nəticəsində yaradılıb və onların hüquqi varisidir. Fond milli maliyyə təsisatlarına uzunmüddətli subsidiyalaşdırılmış ipoteka kreditlərinin verilməsi və ucuz maliyyə resurslarına çıxışın təmin edilməsi ilə bağlı likvidlik dəstəyini verən dövlət agenti kimi fəaliyyət göstərir.



## Büdcə gəlirləri 9 faiz artıb

**Bu ilin yanvar–aprel aylarında Azərbaycanın dövlət büdcəsinin gəlirləri 13 milyard 259,4 milyon manat, xərcləri isə 10 milyard 749,5 milyon manat təşkil edib.**



Dövlət Statistika Komitəsindən aldığımız məlumata əsasən, həmin göstəricilər 2023-cü ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 9 faiz və 20,4 faiz çoxdur.

Son nəticədə 4 ayda büdcədə 2 milyard 509,9 milyon manat profisit yaranıb. Bu isə 1 il əvvələ nisbətən 22,4 faiz azdır.

## Bakı Limanı–Aİ: 8 birgə layihə

**"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin Baş direktoru Taleh Ziyadov "Ambisiyanın artırılması, fəaliyyətin verilməsi: COP29 Davamlı Biznes Forumu"nda rəhbərlik etdiyi qurumun Avropa İttifaqı (Aİ) ilə sıx əməkdaşlığı nəticəsində 2016-cı ildən indiyədək birgə 8 layihə tamamlandığını bildirib.**

T. Ziyadovun sözlərinə görə, Bakı Limanının əsas məqsədi Çindən Avropaya qədər "yaşıl dəhliz" yaratmaqdır: "Bu isə o deməkdir ki, bütün nəqletmə marşrutları, dəmir yolu infrastrukturu "yaşıl" olmalıdır.

Xatırladaq ki, Prezident İlham Əliyevin iştirakı ilə 2018-ci il mayın 14-də açılışı olmuş Bakı Limanının 1-ci mərhələdə yükaşırma potensialı 15 milyon ton, o cümlədən 100 min TEU konteynerdir. Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat qovşaqlarının kəsişməsində yerləşən, yüksək texniki imkanlara malik, əməliyyatlar sahəsində nümunəvi rəqəmsal və yaşıl həllər tətbiq olunduğu limanın yükaşırma həcmi hər il artır. Eyni zamanda, dünyada formalaşan yeni reallıqlar fonunda tranzit ölkə kimi Azərbaycana böyük tələb formalaşıb və bu amil də respublikamızın ən böyük dəniz qapısı, logistika mərkəzi olan Bakı Limanına cəlb edilən yükün həcmi sürətlə artıb.



**XQ**

## İnvestisiya şirkətlərinin vəsaitləri 121 milyon manata yüksəlib

***Ötən il ölkəmizdə investisiya şirkətlərinin vəsaitləri əvvəlki illə müqayisədə 12 faiz artaraq 121 milyon manat təşkil edib.***

Azərbaycan Mərkəzi Bankının (AMB) "2023-cü il üzrə maliyyə sabitliyi hesabatı"na əsasən, bu dövrdə investisiya şirkətlərinin öhdəlikləri isə 9 faiz artaraq 75 milyon manata, balans kapitalı isə 46 milyon manata çatıb.

Hesabatda qeyd olunub ki, investisiya şirkətlərinin müştəri vəsaitləri əvvəlki illə müqayisədə 29 faiz artaraq 1,6 milyard manata yüksəlib. Bunun əsas səbəbi isə xarici bazarda broker xidmətləri olub. Belə ki, hesabat ili ərzində xarici bazarda broker xidmətləri üzrə müştəri aktivləri 27 faiz artıb.

AMB-nin hesabatında vurğulanıb ki, investisiya şirkətlərinin kapital mövqeyi komfort zonadadır. 2023-cü ilin sonuna olan məlumatlara əsasən, sektor üzrə məcmu kapital 42,6 milyon manat, tələb olunan kapital isə 5,3 milyon manat təşkil edib. Bu da investisiya şirkətlərinin kifayət qədər kapital buferinə sahib olmasını şərtləndirir.

**XQ**

**Keçmiş sovet dövlətinin tərkibində müttəfiq respublikalar olan Azərbaycan və Özbəkistan tarixi müstəqilliklərinə qovuşduqdan sonra ikitərəfli əlaqələr dostluq, qardaşlıq və strateji müttəfiqlik müstəvisində inkişaf etməyə başlayıb. Xatırladaq ki, Azərbaycan və Özbəkistan respublikaları arasında diplomatik münasibətlərin əsası 29 il əvvəl qoyulub. Hazırda Azərbaycan keçmiş sovet müttəfiqi və indiki strateji tərəfdaşı olan dost və qardaş Özbəkistanla qarşılıqlı fəaliyyətdə, eləcə də bir sıra beynəlxalq platformalarda uğurla əməkdaşlıq edir. Məhz bunun nəticəsidir ki, son illər ölkələrimiz arasında münasibətlər özünün ən yüksək inkişaf səviyyəsinə gəlib çatıb.**

# Özbəkistanla əməkdaşlığın yeni mərhələsi, önəmli hədəfləri

Son illər isə Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin qarşılıqlı səfərləri ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsinə yeni bir dinamizm gətirib. Həmin səfərlər çərçivəsində dövlət başçılarının dostluq və qarşılıqlı etimad şəraitində keçən görüşləri ölkələrimiz arasında ikitərəfli əlaqələrin, o cümlədən iqtisadi münasibətlərin inkişafı, əmtəə dövriyyəsinin artırılması, nəqliyyat və energetika sahələrində əməkdaşlığın möhkəmləndirilməsi üçün geniş imkanlar yaradıb.

Eyni zamanda Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında ikitərəfli əməkdaşlıq üzrə müştərək hökumətlərarası komissiyanın fəaliyyəti ölkələrimiz arasında ticarət-iqtisadi əməkdaşlığın inkişafına böyük töhfə verir. Yeri gəlmişkən, 2023-cü ildə Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsinin həcmi 178,8 milyon dollar təşkil edib. Cari ilin yanvar–mart aylarında isə qarşılıqlı ticarətin məbləği 35,8 milyon dollar səviyyəsində olub. Bu, mövcud reallığı əks etdirməsə də, yaxın illərdə idxal-ixrac əməliyyatlarının artması şəksizdir.

Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyən Özbəkistan dəfələrlə beynəlxalq təşkilatlar, ikitərəfli və çoxtərəfli görüşlər çərçivəsində dövlətimizin ərazi bütövlüyü ilə bağlı mövqeyini qətiyyətlə müdafiə edib. Sevindirici haldır ki, bu gün qardaş Özbəkistan işğaldan azad olunmuş torpaqlarımızda həyata keçirilən quruculuq işlərində fəal iştirak edir. Bu baxımdan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin bilavasitə təşəbbüsü ilə Füzuli rayonunda bu ölkənin vəsaiti hesabına inşa olunmuş məktəb qardaş özbək xalqının hədiyyəsi kimi dəyərləndirilə bilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri, Hökumətlərarası Komissiyanın həmsədri Laziz Kudratovu qəbul edərkən Özbəkistan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən inkişaf proseslərinin Azərbaycanda böyük maraqla izlənildiyini vurğulayıb. Dövlətimizin başçısı Özbəkistana səfərini məmnunluqla xatırlayaraq bu ölkənin sənaye potensialı və tarixi-mədəni irsin qorunması ilə bağlı məsələlərin uğurla həll edilməsinin şahidi olduğunu bildirib. Prezident İlham Əliyev Laziz Kudratovun ölkəmizə səfərinin iqtisadi əməkdaşlığın möhkəmlənməsi ilə bağlı layihələrin bir daha nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığını




diqqətə çatdırıb.

Özbəkistan Prezidentinin ölkələrimiz arasında tərəfdaşlıq münasibətlərinin səviyyəsini yüksək qiymətləndirdiyini bildirən Hökumətlərarası Komissiyanın həmsədri Laziz Kudratov da Azərbaycan Prezidentinin uzaqgörən və müdrik siyasəti nəticəsində əldə edilmiş uğurların Özbəkistanda sevinclə qarşılandığını diqqətə çatdırıb. Qonaq, həmçinin ölkəmizin beynəlxalq aləmdə nüfuzunun möhkəmləndiyini, iqtisadiyyatımızın dinamik şəkildə inkişaf etdiyini, investisiyaların həcminin artdığını, eləcə də Azərbaycanın qlobal çağırışlara baxmayaraq, inflyasiyanı saxlamağa uğurla müvəffəq olduğunu yüksək qiymətləndirib.

Mayın 21-də Qubada keçirilən II Azərbaycan–Özbəkistan regionlararası forum da ölkələrimiz arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov forumdakı çıxışında bildirib ki, Özbəkistan Azərbaycan biznesini təşviq edildiyi azsaylı ölkələrdəndir. Bu ölkənin Azərbaycan sahibkarları üçün vacib bazara çevrildiyini vurğulayan nazirin sözlərinə görə, iki ölkə arasında 500 milyon ABŞ dolları kapitallı olan birgə fond yaradılıb. Qeyd olunub ki, hazırda Azərbaycan və Özbəkistanda 10 potensial layihə nəzərdən keçirilir. Nazir deyib ki, qarşı tərəflə təzliklə işğaldan azad edilmiş ərazilərdə ilkin mərhələdə 400-dən çox iş yeri təmin edəcək iri müəssisənin işə salınması planlaşdırılır. Bu siyahıya avtomobil istehsalı sahəsini də daxil etmək olar.

Eyni zamanda Özbəkistan tərəfi Ələt Azad İqtisadi Zonasının təklif etdiyi imkanlara diqqət yetirilməyə çağırılıb. "Həm tənzimləmə, həm də infrastruktur baxımından bu, regionda ən əlverişli və müasir formatdır. Bu kontekstdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə yerləşən sənaye parklarını qeyd etmək istərdim. Yaranmasından kifayət qədər az vaxt keçməsinə baxmayaraq, Ağdam Sənaye Parkı rezident sayına görə ölkənin ikinci ən böyük parkına çevrilib,– deyə nazir əlavə edib.

"Azərbaycan və Özbəkistan məişət texnikasının birgə istehsalı sahəsində əməkdaşlıq etməyi planlaşdırır. Birgə istehsal baxımından digər əməkdaşlıq sahəsi Ələt Azad İqtisadi Zonasıdır. Bu, yeni sənaye sahələri yaratmaqda maraqlı olan özbəkistanlı sahibkarlar üçün doğru yerdir. Biz artıq Ələt Azad İqtisadi Zonası ərazisində məişət texnikası və alüminium radiatorların istehsalı üzrə layihələrin hazırlanması və həyata keçirilməsinin aktiv mərhələsinə keçiririk". Bu fikirləri isə Quba forumunda Özbəkistanın investisiya, sənaye və ticarət naziri Laziz Kudratov səsləndirib. Ölkəmizin şirkətləri Özbəkistanda analoji istehsal müəssisələrinin yaradılması imkanlarını nəzərdən keçirməyə çağıran L. Kudratov Mərkəzi Asiyada obyektlərin yaradılmasına hazır olan və bununla bağlı imkanları nəzərdən keçirən Azərbaycan şirkətləri üçün ən əlverişli şəraiti yaratmağa hazır olduqlarını vurğulayıb.

"Azərbaycan və Özbəkistan arasında əməkdaşlığın üçüncü sahəsi nəqliyyat sektorudur. Birbaşa aviareyslər yaradılıb, biz Azərbaycanın infrastrukturu ilə daşımaları fəal şəkildə artırırıq və bu il bu istiqamətdə 1 milyon tondan çox Özbəkistan yükü daşınacaq. İlin birinci rübündə bu rəqəm 300 min ton təşkil edib. Şirkətlərimizin bu dəhlizdən daha çox istifadə etmələri üçün güzəştlər və üstünlüklər verdiyinə görə Azərbaycan tərəfinə minnətdarıq", – deyə o əlavə edib.

Tədbirdə, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin avqust ayında Özbəkistana dövlət səfərinin hazırlanmasına dair "yol xəritəsi" imzalanıb.

**M.YAQUBZADƏ**
**XQ**

# COP29: Azərbaycanın “yaşıl” gələcəyə töhfələri artır

**Azərbaycanda alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması istiqamətində önəmli layihələr həyata keçirilir. Bu, ölkədə energetika infrastrukturunun tam yenilənməsi, enerji təminatının yüksək səviyyədə və təhlükəsiz şəraitdə təmin edilməsi, sahəyə məqsədli investisiya qoyulması və digər fəaliyyətlərdə öz əksini tapır. Bütün bunların nəticəsində hazırda Azərbaycan enerji transformasiyası sahəsində lider dövlətlərdən biri kimi diqqət çəkir. Məhz bu səbəbdən də COP29 sessiyasının Bakıda keçirilməsi təsadüfi xarakter daşımır və bu nüfuzlu layihənin paytaxtımızda gerçəkləşməsi ölkədə innovasiyaların inkişaf strategiyasının məntiqi nəticəsidir.**



“COP29-un Bakıda keçirilməsi beynəlxalq aləmdə ölkəmizə olan etimadın sübutudur” mövzusunda redaksiyamızda təşkil edilən “dəyirmi masa”da bu barədə ətraflı söhbət açıldı. Qonaqlarımız Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri, “Environmental Protection First” Koalisiyasının həmtəsisçisi Amin Məmmədov, “Qadın, İnkişaf, Gələcək” İctimai Birliyinin sədri Gülşən Axundova və “Sağlamlığa Xidmət” İctimai Birliyinin icraçı direktoru, “Environmental Protection First” Koalisiyasının həmtəsisçisi Pərvanə Vəliyeva idi.

**“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov** “dəyirmi masa”da bildirdi ki, dünyada mühüm önəm daşıyan məsələlərin müzakirə edildiyi və həll yollarının axtarıldığı qlobal platformalardan biri olan COP toplantılarının keçirildiyi bütün zamanlarda daim diqqət mərkəzində olub. Çünki bu tədbirlərdə beynəlxalq aləmi ciddi düşündürən, narahat edən kəskin iqlim dəyişmələri, temperaturun qlobal səviyyədə artmasının doğurduğu ciddi fəsadlar, ekstremal hadisələr və təbii fəlakətlərin nəticələri ətrafında geniş söhbətlər açılıb, insan sağlamlığı ilə əlaqədar problemlərin həlli yolları axtarılıb və bu istiqamətlərdə mühüm sənədlər imzalanıb.



Bakıda keçiriləcək COP29-un da bu baxımdan tarixi əhəmiyyət daşıyacağını bildirən baş redaktor, eyni zamanda, ötən il Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində reallaşan COP28 tədbirində bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında müəyyən məsələlərlə bağlı yaranan fikir ayrılığının da Bakı toplantısında aradan qaldırılacağına, bununla bərabər iqlim dəyişikliyi, ənənəvi və alternativ enerji resurslarının gələcək istehsalı, habelə istehlakı ilə bağlı vacib qərarların qəbul ediləcəyinə əminliyini vurğuladı.

Baş redaktor qeyd etdi ki, respublikamızın belə bir önəmli qlobal platformaya – COP29-a evsahibliyi etməsi isə, ilk növbədə, ölkəmizin beynəlxalq aləmdəki nüfuzu ilə bağlıdır. Bu, həm də respublikamızın müsbət ekoloji dəyişikliklər yaratmaq istiqamətində son illər ərzində əldə etdiyi uğurlardan qaynaqlanır, “yaşıl” və sağlam gələcəyin qurulması istiqamətində üzərinə götürdüyü öhdəliyi yüksək səviyyədə həyata keçirməkdən irəli gəlir.

Əflatun Amaşov yuxarıdakı fikrinin təsdiqi olaraq diqqətə çatdırdı ki, Azərbaycan bu gün “yaşıl enerji” sahəsində beynəlxalq təşkilatlar, müxtəlif dünya dövlətləri və sərmayədarlarla fəal şəkildə səmərəli əməkdaşlıq edir. Ölkəmiz 1995-ci ildə BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişikliklərinin mənfi təsirlərinin azaldılması üzrə beynəlxalq səylərə qoşularaq bu istiqamətdə mühüm layihələr gerçəkləşdirir.

Baş redaktor çıxışının sonunda bu mövzu ilə bağlı redaksiyanın fəaliyyətinə də toxunaraq respublikamızın evsahibliyi edəcəyi belə bir önəmli qlobal platformaya ciddi hazırlaşması, bu istiqamətdə əhəmiyyətli layihələrin icra olunması barədə “XQ”-də müxtəlif səpkili materiallarin dərcinə prioritet istiqamət kimi yanaşıldığını diqqətə çatdırıb.

**Amin MƏMMƏDOV:**

– Bu ilin noyabr ayında 100-dən çox ölkənin dövlət və hökumət başçıları, ekologiya və ətraf mühit məsələlərinə cavabdeh nazirləri, həmçinin böyük şirkətlərin, beynəlxalq təşkilatların, BMT-nin müvafiq qurumlarının nümayəndələri COP29 konfransında iştirak edəcəklər. Toplantıda iqlim dəyişikliyi ilə mübarizə, gələcəkdə bərpaolunan enerji ehtiyatlarının istifadəsi, su ehtiyatlarının idarə olunması, təbii fəlakətlərin qarşısının alınması kimi məsələlər müzakirə olunacaq. Bunun üçün ayrılan maliyyə vəsaitlərinin düzgün və ədalətli bölünməsi məsələsi də gündəmə gələcək.



Onu da qeyd edim ki, keçirildiyi ölkədən asılı olmayaraq COP hər il dünyanın diqqətini özünə cəlb edən yüksək səviyyəli tədbirdir. Azərbaycan bu tədbirin yüksək səviyyədə reallaşması üçün bütün resurslarını səfərbər edir. Hazırlıq prosesləri intensiv şəkildə davam edir.

Azərbaycan COP29-a evsahibliyi etməklə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəfi kimi üzərinə götürdüyü öhdəliklər, “yaşıl enerji” sektorunda reallaşdırdığı layihələr haqqında dünya ictimaiyyətinin diqqətinə məlumatlar çatdırmaq imkanı əldə edəcək.

Yeri gəlmişkən, burada mühüm bir məqamı da xatırlatmaq istərdim. Belə ki, torpaqlarımız 30 il işğal altında olduğu dövrdə Ermənistan tərəfindən Azərbaycanın ətraf mühitinə böyük ziyan vurulub. COP29-da bu zərərin aradan qaldırılması üzrə də respublikamızın həyata keçirdiyi fəaliyyətlərlə bağlı təqdimatlar etmək imkanı olacaq.

Azərbaycan konvensiya çərçivəsində üzərinə götürdüyü öhdəliklər əsasında 2030-cu ilə qədər ümumi enerji istehlakında alternativ enerjinin payının 30 faizə qədər artırılması üzrə şərti öhdəlik götürüb. Ötən əsrin 90-cı illərində alternativ enerjidən, ümumiyyətlə, istifadə olunmurdusa, artıq son illərdə bu istiqamətdə önəmli uğurlar əldə olunub. Hətta Azərbaycanın enerji ixracatçısı ölkəsinə çevrilməsi də qarşıya mühüm hədəf kimi qoyulub.

İqlim dəyişikliyindən irəli gələn fəsadların aradan qaldırılması və ətraf mühitin mühafizə edilməsi dövlət və ya özəl qurumları düşündürməklə bərabər, hər bir vətəndaşı da narahat etməlidir. Hər bir şəxs üzərinə düşən müəyyən öhdəliklərə məsuliyyətlə yanaşmalı, ekologiyanın qorunması üçün səy göstərməlidir.

Xatırladım ki, bu gün dünyada ekoloji məsələlərlə məşğul olan qurumların keçirdiyi təlimlərin də strateji məqsədi əsasən, qeyd edilən problemlərlə bağlıdır. Qlobal çağırışlara hər zaman məsuliyyətlə yanaşan Azərbaycanda da ekologiya və ətraf mühitin mühafizəsi məsələsi bütün dövrlərdə prioritetlər sırasında olub. İstər aidiyyəti dövlət qurumları, istər özəl təşkilatlar, istərsə də vətəndaş cəmiyyətinin nümayəndələri ölkənin ekoloji mühitinin daim sağlam, təmiz qalması üçün davamlı tədbirlər, layihələr həyata keçirirlər. Dəniz sahilinin təmizlənməsi, plastik, eləcə də digər zərərli tullantıların toplanılaraq müvafiq yerlərə təhvil verilməsi, ağacəkmə kampaniyalarının təşkil olunması kimi bir çox ekoloji tədbirlər deyilənlərin əyani nümunəsidir.

Azərbaycanın ətraf mühitin qorunması sahəsində bir çox beynəlxalq konvensiyalara qoşularaq üzərinə düşən öhdəlikləri uğurla yerinə yetirir. Eyni zamanda, COP-un məqsədlərindən birinin–karbon qazının miqdarını sənayeləşdirmədən əvvəlki dövrdə olduğu kimi, 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaq və “yaşıl enerji” növlərinin yaradılması istiqamətində önəmli layihələr gerçəkləşdirir.

SOCAR COP28-də metan tullantılarının sıfıra endirilməsi, 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılması ilə bağlı öhdəlik götürməsi və ötən müddətdə bu yöndə mühüm uğurlar əldə etməsi də bunun bariz ifadəsidir. Prezident İlham Əliyevin işğaldan azad edilmiş torpaqları “Yaşıl enerji” zonası elan etməsi və 2050-ci ilədək bu ərazilərin “Netto sıfır emissiya” zonasına çevrilməsi ölkəmizin qarşıya qoyulan məqsədlərə doğru inamla irəliləməsinin təsdiqidir.

Mən Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsini Hidrometeorologiya ixtisası üzrə bitirdiyimdən təhsilim bilavasitə iqlim dəyişiklikləri ilə bağlıdır. Eyni zamanda, ötən müddətdə müxtəlif yerli və beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də və Dünya Bankında çalışmışam. Qeyd etmək istəyirəm ki, hazırda dünyada iqlim dəyişiklikləri ilə bağlı məsələyə spektik yanaşmalar çoxdur. Adətən, bir qayda olaraq bu tendensiyanın arxasınca qaçanlar da var. Amma bir mütəxəssis kimi iqlim dəyişikliyini birmənalı olaraq demək mənə bir qədər çətin görünür.

Yeri gəlmişkən, mən ali məktəbdə rəhmətlik Müseyibovdan dərs almışam, akademik Budaq Budaqovun rəhbərliyi ilə elmi iş yazmışam. Onlar sovet dövrünün tanınmış hidroloq alimlərindən olublar. O zaman hidroloq kimi iqlim dəyişikliklərinin su ehtiyatlarına təsirindən yazmışdım. Müəllimlərim mənə deyirdilər ki, iqlimə nə olub ki, hansı iqlim dəyişikliyindən danışırsan? Mən də fikrimi əsaslandırmaq üçün bildirirdim ki, ingilis dilini öyrəndiyim üçün müxtəlif dünya mətbuatından oxuyuram ki, bütün dünya yığışıb iqlim dəyişiklikləri ilə bağlı sammit keçirir. Həyəcan təbili çalıb deyirlər ki, bəs dünya dağılır. Onlar isə hidrometeoroloji prizmadan yanaşaraq, hətta fiziki cəhətdən də sübut etməyə çalışırdılar ki, narahat olmağa dəyməz. Çünki dünya yaranandan iqlim dəyişiklikləri olub. Onu da deyim ki, o dövrün məşhur alimləri iqlim dəyişikliyi ifadəsindən daha çox iqlim tərəddüdləri anlayışından istifadə edirdilər.

Yeri gəlmişkən, tarixdən də məlum olduğu kimi, vaxtilə Yer kürəsində böyük buzlaşma baş verib, dinozavrlar məhv olub. Sonra ayrı-ayrı dövrlərdə iqlim özünü müxtəlif cəhətdən göstərib. O ki qaldı sənayeləşməyə, sovet dövründə təhsil alanlar siyasi iqtisad anlayışı ilə yaxşı tanışdırlar. Çünki o dövrdə iqtisadiyyat artıq siyasətə də təsirini göstərməyə başlamışdı. Yəni kapitalın formalaşdırılması, onun dünya siyasətində rolu kimi məsələlərdən görünürdü ki, artıq iqlimin özü belə, müəyyən qrupların əlində, bir növ, alətə çevrilib.

İstənilən halda bizim də bir ölkə, bir dövlət, bir xalq olaraq bu dünyada sağ qalmaq məqsədimiz var. Bununla belə, hazırda biz dünyada gedən proseslərə təsir etmək gücündə deyilik. Nə G7-yə daxil deyilik, nə də qlobal bir gücə malikik. Amma istənilən halda regionda öz gücümüzü sübut edən bir dövlətə çevrilmişik. Bunun üçün isə çox böyük tarixi proses keçmişik, ağır sınaqlarla üzləşmişik. 1991-ci ildə müstəqilliyimizi əldə etdikdən sonra başımıza gəlməyən hadisə qalmayıb.

Fikrimi nəyə gətirmək istəyirəm? Əvvəlllər Moskvada, Tbilisidə iqlim dəyişiklikləri ilə bağlı keçirilən tədbirlərdə, eləcə də Dubayda təşkil olunan COP28-də iştirak etmişəm. Bu yaxınlarda isə Keniyada iqlim məslələrinə həsr olunmuş tədbirə qatılan nümayəndə heyətinin tərkibində olmuşam. Hətta COP28-də bütün iştirakçı ölkələrin pavilyonlarına baş çəkir, orada gedən söhbətlərlə, müzakirələrlə yaxından maraqlanır, yeni nəsə əxz etməyə, öyrənməyə çalışırdım.

Qeyd etmək istəyirəm ki, COP29 kimi mötəbər tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərar dünya ictimaiyyəti tərəfindən heç də birmənalı qarşılanmadı. Fransadan savayı, digər bir neçə ölkə də iddia etməyə başladı ki, bəs Azərbaycan neft-qaz hasilatçısıdır. Mən bu kimi məsələlərdə polemikaya girmişəm, bir çox hallarda, hətta dəstək də almışam. İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin əldə olunmasında Azərbaycanın rolunu onların diqqətinə çatdırmışam. Demişəm ki, cəbhədə hərəkət edən hər 4 tankın, hər 4 təyyarənin 3-ü məhz Bakı nefti ilə hərəkət edib. Yəni biz faktiki olaraq öz torpaqlarımızın neftlə çirklənməsini qəbul etmişik. İntensiv olaraq çıxardığımız neftin hesabına isə dünyanı faşizm kimi bir bəladan xilas etmişik.

Daha sonra 1991-ci ildə sovet sistemi dağılanda bu quruluş bizə bir çox problemləri miras qoydu. İndi biz neftdən əldə etdiyimiz vəsaiti özümüzə sərf etmək əvəzinə onun müəyyən hissəsini Abşeron yarımadasının neftlə çirklənmiş torpaqlarımızın təmizlənməsinə xərcləmək məcburiyyəti qarşısında qalmışıq. Çox təəssüf ki, heç kim nəyi nəyə görə qurban verdiyimizi düşünmək belə istəmir. Bununla yanaşı, 1991-ci ildən etibarən 10 min kvadratkilometr ərazimiz işğala məruz qaldı. Həmin ərazilərdə 60 min hektar yaşıllıq sahələri məhv edildi. Beynəlxalq hüquqi normalar çərçivəsində böyük qurbanlar hesabına ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa edə bildik. İndi isə həmin ərazilərdə Ermənistanın törətdiyi ekoloji terrorun nəticələrini aradan qaldırmaqla məşğuluq. Bildiyiniz kimi, cənab Prezident həmin əraziləri “yaşıl zona” elan edib. Yaşıllığı məhv edilmiş 60 min hektar ərazini növbəti 20 ildə bərpa etməli olacağıq. Bütövlükdə, Qafqazın ekologiyasına vurulmuş yaranı Azərbaycan sağaldacaq. Təəssüf ki, məsələnin bu tərəfi heç kəsi maraqlandırmır.

**Gülşən AXUNDOVA:**

İqlim dəyişiklikləri 1800-cü ildən özünü göstərməyə başlayıb. Məhz həmin dövrdən etibarən bu barədə müəyyən məlumatlar verilib. Bu proses, ümumiyyətlə, bir neçə onilliklər və ya daha çox müddət ərzində orta hava şəraitinin əhəmiyyətli dəyişməsi – məsələn, ətraf mühitin daha isti, nəm və ya daha quru olması kimi müəyyən edilir. Bu, iqlim dəyişikliyini təbii hava dəyişkənliyindən fərqləndirən uzunmüddətli tendensiyadır. İqlim dəyişikliyi özünü böyük daşqınlar, şiddətli fırtınalar, ölümcül istilik kimi hallarla göstərir və bərabər olmasa da, hər bir canlı tərəfindən yaşanır. Bunun da yaranmasının müxtəlif səbəbləri vardır.



COP (Conference of the Parties) Tərəflərin Konfransını (TK) ifadə edir və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına (UNFCCC) iqlimə diqqət yetirən beynəlxalq toplantısına istinad edir. COP UNFCCC-nin əsas qərar qəbuledici orqanıdır. Artıq iqlim sammitləri kimi tanınan 28 beynəlxalq konfrans keçirilib. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (İDÇK), ya da ingilis dilində UNFCCC, atmosferdə istixana qazlarının konsentrasiyalarını sabitləşdirməklə “insanların iqlim sisteminə təhlükəli müdaxiləsi” ilə mübarizə aparmaq üçün ölkələr arasında beynəlxalq müqavilədir.

Hələ 1896-cı ildə isveçli iqlimşünas alim Svante Arrenius demişdi ki, sənaye inkişaf etdikcə havaya buraxılan karbon emissiyaları da artacaq. Məlum olduğu kimi, 1800-cü ildən əvvəl əhali, əsasən, ticarət və kənd təsərrüfatı ilə məşğul olurdu. Sonralar isə texnika inkişaf etdikcə havaya buraxılan emissiyaların həcmi artmağa başladı. Emissiyalar su buxarıdır, karbon, metan qazıdır. Bunlar havaya qalxaraq Yer kürəsini yorğan kimi bürüyür. Əvvəllər də buna istixana effekti deyiblər. Amma bununla belə, o zaman atmosferdə istixana effekti indiki qədər deyildi. Bir məsələni də qeyd edim ki, Yer kürəsindən o tərəfə hava çox soyuqdur. Temperaturun tənzimlənməsində istixana effektinin mühüm rolu var. Hazırda isə karbon qazının artması elə bir səviyyəyə çatıb ki, artıq içəridən temperatur mübadiləsinə mane olur. Ona görə də qlobal istiləşmə yaranır. Alimlər sübut ediblər ki, 2011-2020-ci illər planetimizdə ən isti dövr olub. Qlobal istiləşmə isə buzlaqların əriməsinə, sel və daşqınlara, çayların öz məcrasından çıxmasına gətirib çıxarır.

Azərbaycan da iqlim dəyişikliyinə qarşı çox həssasdır. Hər şeydən əvvəl, iqlim dəyişikliyi Azərbaycanda kənd təsərrüfatına torpaq və əkin sahələrinin itirilməsi, istehsal zonalarının dəyişməsi və daşqınlar nəticəsində məhsuldarlığın azalması kimi hadisələrlə təsir edir. Eyni zamanda, bu proses ölkəmizin şirin su ehtiyatlarının itirilməsinə, daşqınların artmasına və Xəzər dənizində suyun səviyyəsinin azalmasına səbəb olur. Bundan əlavə, iqlim dəyişikliyi havanın çirklənməsi və əhalinin rifahına təsir edən istiliklə bağlı xəstəliklər səbəbindən insanların sağlamlığı üçün risklər yaradır. İqlim dəyişiklikləri, həmçinin Azərbaycanda turizmə və sahil infrastrukturuna təsir edir, daşqınların törətdiyi fəsadlara və sahilyanı ərazilərdə ölkə iqtisadiyyatının şaxələndirilməsi səyləri üçün həyati əhəmiyyət kəsb edən problemlərə gətirib çıxarır.

Artıq 10 ilə yaxındır ki, mən iqlim dəyişiklikləri məsələsi ilə məşğulam. Bir neçə beynəlxalq şəbəkənin üzvüyəm. Həmin qurumların tədbirlərində müntəzəm şəkildə iştirak edirəm. Ötən ilin dekabr ayında Dubayda keçirilən COP28-ə qədər heç kim belə bir mötəbər tədbirin Azərbaycanda da keçirilə biləcəyini düşünmürdü. Onu da qeyd etmək istəyirəm ki, COP28 böyük bir təntənə ilə keçirildi. Orada dünyanın bir sıra ölkələrinin dövlət və hökumət başçıları iştirak edirdi. Həmin tədbirdə möhtərəm Prezidentimiz cənab İlham Əliyev, Prezidentin köməkçisi Hikmət Hacıyev və digər rəsmi şəxslərin iştirakı isə bizim üçün olduqca qürurverici idi.

Toplantının gedişində növbəti COP-un harada keçiriləcəyi müzakirə olunarkən namizəd ölkələrlə yanaşı, Ermənistanın da adı çəkilirdi. Müəyyən danışıqlardan sonra COP29-un Azərbaycanda keçirilməsi təklif olundu. Bu barədə qərar yekdilliklə qəbul edildi. Hətta Ermənistan da öz namizədliyini ölkəmizin xeyrinə geri götürdü. Azərbaycan hökuməti ilk gündən tədbirə hazırlıqlara start verdi. Cənab Prezident tərəfindən Təşkilat Komitəsi yaradıldı. Artıq komitənin bir neçə iclası keçirilib. Yeri gəlmişkən, bir məsələni də qeyd edim ki, indiyə qədər Azərbaycanın qeyri-hökumət təşkilatları müxtəlif ekoloji layihələr reallaşdırıb. Bunlar, əsasən, tullantıların idarə olunması, su və quraqlıqla əlaqədar olsa da, QHT-lər tərəfindən COP-la əlaqədar layihə həyata keçirilməmişdi. Artıq Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi bu istiqamətdə mühüm işlər görürür. İnşallah bu yaxınlarda QHT-lər COP-la bağlı layihələrini dövlətə təqdim edəcəklər. Burada əsas söhbət maarifləndirmədən gedir. Bilirik ki, əhalinin çox hissəsi COP-la, iqlim dəyişiklikləri ilə bağlı bir o qədər də məlumatlı deyil.

COP29-da, əsasən, üç məsələ müzakirə olunacaq. Onlar atmosferə buraxılan karbon emissiyalarının azaldılması, adaptasiya və maliyyə ilə bağlıdır. Yeri gəlmişkən, bu məsələlər arasında adaptasiya xüsusi aktuallıq kəsb edir. Məsələn, kənd yerlərində yaşayanlar dağdan gələ bilən selin qarşısını almaq üçün öncədən hazırlıqlı olmalıdırlar. Yəni selin törədə biləcəyi fəlakətin qarşısını almaq üçün əvvəlcədən qum kisələri hazırlamalıdırlar. Bu kimi misalları çox çəkmək olar. Sözümün canı budur ki, hər bir region iqlimlə bağlı məsələlərdə özünə uyğun adaptasiya olunmalıdır ki, əhali əziyyət çəkməsin.

COP29-un Azərbaycanda keçirilməsi həm ölkəmiz, həm də bütün dünya üçün böyük əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl, bu mötəbər toplantı Azərbaycanın nüfuzunu zirvələrə qaldıracaq. Eyni zamanda, tədbir dünyanın diqqətini Azərbaycana yönəldəcək və onun davamlı inkişaf prinsiplərinə bağlılığını nümayiş etdirəcək. Bu, həm də ölkə üçün iqlim dəyişikliyi ilə mübarizəyə sadiqliyini nümayiş etdirmək və “yaşıl” texnologiyalara investisiya cəlb etmək üçün fürsət yaradacaq. Bir sözlə, COP29 “yaşıl” texnologiyaların və investisiyaların inkişafı üçün katalizator olacaq, ölkəmizdə yeni biznes imkanlarının və iş yerlərinin yaradılmasına yol açacaq.

Ən əsası isə, COP29 iqlim dəyişikliyi problemləri haqqında ictimaiyyətin məlumatlılığının artırılmasına kömək göstərəcək və vətəndaşlarımızı ətraf mühitin mühafizəsi fəaliyyətlərində iştiraka təşviq edəcək. Bununla yanaşı, bu mötəbər toplantı iqlim dəyişikliyi məsələləri üzrə dünya ölkələri arasında dialoq üçün platforma olacaq, qlobal problemin həlli yollarını tapmağa kömək edəcək. Eyni zamanda, düşünürəm ki, ölkələrin istixana qazı emissiyalarını azaltmaq ambisiyalarının artırılması baxımından COP29 bütün dünya dövlətləri üçün bu istiqamətdə hədəflərini qəbul etməyə təkan verə bilər. Azərbaycanın evsahibliyi etdiyi tədbir “yaşıl” iqtisadiyyatda ən yaxşı təcrübə və texnologiyaların nümayişi üçün platforma olacaq.

COP29 Azərbaycanda turizmin inkişafına da mühüm töhfə verə bilər. Belə ki, tədbirin keçirildiyi günlərdə ölkəyə çoxsaylı qonaqların gəlməsi turizm sənayesinin inkişafına təkan verəcək. Xüsusən də, BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflər Konfransının 29-cu sessiyası Azərbaycanın planetin gələcəyini düşünən məsuliyyətli ölkə olduğunu bütün dünyaya nümayiş etdirəcək.

Ümumilikdə isə, COP29-a evsahibliyi etmək Azərbaycan üçün ekoloji təşəbbüsləri nümayiş etdirmək, eləcə də iqlim dəyişikliyi, davamlılıq və biomüxtəlifliyin qorunması ilə bağlı qlobal müzakirələrə töhfə vermək üçün platforma təmin edəcək. Ən nəhayət, COP29-un Azərbaycanda keçirilməsi həm ölkə, həm də dünya üçün bir çox müsbət nəticələrlə yadda qalacaq.

**(ardı 9-cu səhifədə)**

# “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunun Nizamnaməsi

(əvvəli 6-cı səhifədə)

7.13. Pedaqoji işçilərə fəxri adların verilməsi Azərbaycan Respublikası Prezidentinin aktları ilə tənzimlənir.

7.14. Professor-müəllim heyətinə və elmi işçilərə hərbi və əmək intizamını pozduqlarına görə intizam tənbehi tədbirləri hərbi qulluqçulara münasibətdə Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam nizamnaməsi”ndə, digər işçilərə münasibətdə Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada tətbiq edilir.

7.15. Professor-müəllim heyətinin və elmi işçilərin beynəlxalq tədbirlərdə iştirakına, onların mediada İnstitut adından çıxışlarına Daxili Qoşunların komandanı razılıq verir.

7.16. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, xarici ölkələrin ali hərbi təhsil müəssisələrində Daxili Qoşunlara ayrılmış yerlərdə təhsil almaq məqsədilə İnstitutun kursantları həmin ölkəyə Daxili Qoşunların komandanı ilə razılaşdırmaqla ezam edilə bilərlər.

7.17. Dəyişən heyət İnstitutda təhsil alan kursantlar və dinləyicilərdir.

7.18. Kursantlar – İnstitutda ali təhsilin bakalavriat səviyyəsində təhsil alan, zabit hərbi rütbəsi olmayan hərbi qulluqçulardır.

7.19. Dinləyicilər – İnstitutda əlavə təhsil alan hərbi qulluqçulardır.

7.20. Dəyişən heyətin tərkibinə daxil olan hərbi qulluqçuların pul, əşya, ərzaq, tibbi xidmət və yaşayış sahəsi (yataqxana) ilə təminatı dövlət tərəfindən həyata keçirilir.

7.21. Dəyişən heyətin təhsil müddətində hüquq və vəzifələri bu Nizamnamənin 7.4-cü bəndində nəzərdə tutulan normativ hüquqi aktlarla müəyyən olunur.

7.22. Hərbi liseylərin məzunları və hərbi rütbəsi olmayan mülki şəxslər sırasından İnstituta qəbul edilmiş kursantlara “əsgər” hərbi rütbəsi verilir. İnstituta qəbul olunana qədər həqiqi hərbi xidmət keçmiş və hərbi rütbə almış kursantlar üçün həmin hərbi rütbələr saxlanılır.

7.23. Taqım komandirinin müavini, tədris qruplarının, manqalarının komandirləri İnstitut rektorunun əmri ilə müvafiq kursun kursantları arasından təyin olunurlar. Bu vəzifələrə təyin edilmiş kursantlara qanuna müvafiq qaydada “kiçik çavuş”, “çavuş” və “baş çavuş” hərbi rütbəsi verilir.

7.24. Dəyişən heyətdən olan hərbi qulluqçular təhsildə əldə etdikləri yüksək göstəricilərə, elmi tədqiqat işlərində fəal iştiraka və hərbi xidməti borcun nümunəvi yerinə yetirilməsinə görə Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam nizamnaməsi”ndə və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin normativ hüquqi aktlarında nəzərdə tutulmuş qaydada həvəsləndirilirlər.

7.25. Hərbi və tədris intizamını pozduqlarına görə dəyişən heyətdən olan hərbi qulluqçulara Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam nizamnaməsi”ndə nəzərdə tutulmuş qaydada intizam tənbehi tədbirləri tətbiq edilir.

7.26. Kursantlar və dinləyicilər aşağıdakı əsaslardan biri olduqda İnstitutdan xaric edilirlər:

7.26.1. öz arzusu ilə;

7.26.2. digər ali təhsil müəssisəsinə keçirilməsi ilə əlaqədar (kursantlara münasibətdə);

7.26.3. səhhətinə görə (hərbi-həkim komissiyasının qərarına əsasən);

7.26.4. təhsildə müvəffəqiyyətsizliyə görə;

7.26.5. semestr ərzində tədris planında nəzərdə tutulmuş məşğələlərin ümumi saat hesabının 30 faizdən çoxunda üzrsüz səbəbdən iştirak etmədiyinə görə;

7.26.6. hərbi intizamı və ya İnstitutun daxili intizam qaydalarını kobud şəkildə, yaxud dəfələrlə pozduğuna görə (Ali İntizam Şurasının qərarı əsasında);

7.26.7. hərbi qulluqçu şərəfini ləkələyən hərəkətlər törətdiyinə görə (Ali İntizam Şurasının qərarı əsasında);

7.26.8. törətdiyi cinayət əməlinə görə məhkum olunduqda.

7.27. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, müvəffəqiyyətsizliyə, təhsili davam etdirmək istəmədiyinə və intizamsızlığa görə İnstitutdan xaric edilən (18 yaşınadək və ya xəstəliyi ilə əlaqədar hərbi xidmətə yararsız hesab olunduğuna görə xaric edilən şəxslər istisna olmaqla) kursantlar müddətli həqiqi hərbi xidmət keçmək üçün hərbi hissələrə göndərilirlər.

7.28. Dəyişən heyət tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə dəyişən heyətin təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

7.29. Dəyişən heyətdən olan hərbi qulluqçunun İnstitutdan xaric edilməsi İnstitutun rektorunun təqdimatına əsasən Daxili Qoşunların komandanının əmri ilə həyata keçirilir.

7.30. İnstitutda təhsilini başa vurmayan şəxslərə, onların müraciəti əsasında, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”ndə elektron sənəd formasında yaradılan arayış verilir.

7.31. İnstitutda ali təhsilin bakalavriat səviyyəsini bitirmiş kursantlara “bakalavr” ali peşə-ixtisas dərəcəsi, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”ndə elektron sənəd formasında yaradılan təhsil haqqında dövlət sənədi – diplom, həmçinin İnstitut tərəfindən döş nişanı və Azərbaycan Respublikası daxili işlər nazirinin əmri ilə “leytenant” hərbi rütbəsi verilir.

7.32. Əlavə təhsil üzrə “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhsil proqramını mənimsəmiş və imtahanlarda müvəffəqiyyət qazanmış dəyişən heyətə əlavə təhsilin istiqaməti üzrə “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq sənəd verilir.

**8. Daimi və dəyişən heyətin vəzifələri və hüquqları**

8.1. Daimi heyətdən olan professor-müəllim heyətinin və elmi işçilərin vəzifələri aşağıdakılardır:

8.1.1. təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

8.1.2. təhsil proqramlarının (kurikulumların) mənimsənilməsini təmin etmək, keyfiyyətli təhsil vermək;

8.1.3. dəyişən heyətin tədris materiallarını mənimsəməsini təmin edən üsul və vasitələri seçmək, qabaqcıl pedaqoji təcrübəni, müasir interaktiv təlim metodlarını, innovasiyaları öyrənmək və tətbiq etmək, əlavə məşğələlər keçirmək;

8.1.4. ixtisas və elmi-pedaqoji səviyyələrini yüksəltmək;

8.1.5. elmi tədqiqatla məşğul olmaq, elmi tədqiqat işlərinin nəticələrindən Elmi Şuranın tövsiyəsi ilə tədris prosesində istifadə etmək və bu nəticələrin Daxili Qoşunların praktiki fəaliyyətində tətbiq olunmasına kömək göstərmək;

8.1.6. dərslik və dərs vəsaitlərinin, tədrisin qabaqcıl forma və metodlarını təmin edən elmi-metodiki materialların işlənilib hazırlanmasında, müasir texniki vasitələrin tətbiqində iştirak etmək;

8.1.7. vətəndaşlıq və xidməti borcunu ləyaqətlə yerinə yetirmək;

8.1.8. dəyişən heyətə Azərbaycan Respublikasının müstəqilliyinə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamaq;

8.1.9. etik davranış qaydalarına, pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq və ziyalılıq nümunəsi göstərmək;

8.1.10. attestasiyadan keçmək;

8.1.11. dəyişən heyətdə fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq;

8.1.12. dəyişən heyəti elmi fəaliyyətə cəlb etmək;

8.1.13. dəyişən heyətin fərdi keyfiyyətlərini öyrənmək, şərəf və ləyaqətinə hörmətlə yanaşmaq, onlardan dərs tapşırıqlarının yerinə yetirilməsini və hərbi nizam-intizama riayət olunmasını tələb etmək;

8.1.14. dəyişən heyəti zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək, onların təhlükəsizliyinin və sağlamlığının mühafizəsində iştirak etmək;

8.1.15. dəyişən heyətin müstəqil hazırlığına, tədris materiallarını mənimsəməsinə köməklik göstərmək;

8.1.16. daxili intizam qaydalarına əməl etmək və əmək müqaviləsi ilə müəyyənləşdirilmiş əmək funksiyalarını yerinə yetirmək;

8.1.17. İnstitutun rəhbərliyi, psixoloqu və həmkarları ilə əməkdaşlıq etmək, dəyişən heyətin təlimi və inkişafı ilə bağlı məsləhətləşmələr aparmaq;

8.1.18. bu Nizamnamədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

8.2. Daimi heyətdən olan professor-müəllim heyətinin və elmi işçilərin hüquqları aşağıdakılardır:

8.2.1. normal əmək, elmi-pedaqoji iş və təhsil şəraiti ilə, o cümlədən müasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq;

8.2.2. bu Nizamnaməyə uyğun olaraq təhsil prosesinin təşkilində və idarə olunmasında iştirak etmək, təkliflər irəli sürmək;

8.2.3. İnstitutda vəzifə tutmaq, seçkili vəzifələrə seçmək və seçilmək;

8.2.4. əlavə təhsil almaq, elmi dərəcəsini yüksəltmək;

8.2.5. qanunlara və Azərbaycan Respublikası Prezidentinin aktlarına uyğun olaraq mükafatlandırılmaq və təltif olunmaq;

8.2.6. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada Daxili Qoşunların əməli fəaliyyətini əks etdirən aidiyyəti materiallarla tanış olmaq;

8.2.7. əvəzçilik yolu ilə elmi və pedaqoji fəaliyyətlə məşğul olmaq;

8.2.8. şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək;

8.2.9. tədrisin formasını, metodlarını və vasitələrini sərbəst seçmək, tədris-metodiki vəsaitlərlə təmin olunmaq;

8.2.10. bu Nizamnamədə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

8.3. Dəyişən heyətin vəzifələri aşağıdakılardır:

8.3.1. dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;

8.3.2. təhsil proqramlarında (kurikulumlarda) nəzərdə tutulmuş imtahanları vermək;

8.3.3. pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

8.3.4. təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək, hərbi andın, hərbi nizamnamələrin, Azərbaycan Respublikası daxili işlər nazirinin və Daxili Qoşunların komandanının əmr, təlimat, göstəriş və sərəncamlarının, bu Nizamnamənin, habelə İnstitutun daxili intizam qaydalarının tələblərini bilmək və yerinə yetirmək;

8.3.5. dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;

8.3.6. məxfilik qaydalarına əməl etmək;

8.3.7. İnstitutun əmlakına qayğı ilə yanaşmaq;

8.3.8. üzrsüz səbəblərdən dərsdənyayınma hallarına yol verməmək, verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirmək;

8.3.9. sağlam həyat tərzi keçirmək;

8.3.10. bu Nizamnamədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

8.4. Dəyişən heyətin aşağıdakı hüquqları vardır:

8.4.1. mənəvi-psixoloji cəhətdən sağlam pedaqoji mühitdə dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;

8.4.2. İnstitutun mövcud infrastrukturundan (tədris, elmi tədqiqat, informasiya, mədəni-məişət xidmətlərindən, idman kompleksindən, tibb məntəqəsindən, yataqxanadan, laboratoriyadan, kitabxanadan) istifadə etmək;

8.4.3. şərəf və ləyaqəti aşağılayan, fiziki, mənəvi və psixoloji zorakılıq hallarından, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;

8.4.4. təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;

8.4.5. İnstitutun elmi, ictimai, sosial və mədəni həyatında, elmi cəmiyyətlərin, dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək;

8.4.6. təhsilin, intizamın və məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı məsələlərin müzakirəsində, Elmi Şuranın işində, İnstitutda fəaliyyət göstərən özünüidarəetmə orqanlarında, hərbi-elmi cəmiyyətin işində və idman bölmələrində iştirak etmək;

8.4.7. həyat və sağlamlığı üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;

8.4.8. təhsillə bağlı inkişafyönlü tədbirlərdə (olimpiadalarda, bilik yarışlarında, fənn müsabiqələrində, konfrans, seminar, proqram və layihələrdə) iştirak etmək;

8.4.9. biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;

8.4.10. “Psixoloji yardım haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;

8.4.11. bu Nizamnamədə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

**9. Maliyyə-təsərrüfat fəaliyyəti**

9.1. İnstitut dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

9.2. İnstitut maddi dəyərlilərin, pul vəsaitinin vəziyyəti və onlardan istifadə barədə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Baş İdarəsi qarşısında hesabat verir.

9.3. İnstitutun maddi-tədris bazası müəyyən olunmuş ixtisaslar üzrə tədris planlarına, proqramlarına və müasir tədris metodikasına uyğun olaraq, dəyişən şəxsi heyətin hazırlığını təmin etmək üçün nəzərdə tutulmuş maddi və texniki vasitələr kompleksidir.

9.4. İnstitutun maddi-tədris bazasını torpaq sahələri, binalar, tikililər, müxtəlif qurğular, silah və hərbi texnika, hərbi tədris əmlakı, laboratoriya avadanlığı, tədrisin texniki vasitələri, tədris-metodiki materiallar, elmi və bədii ədəbiyyat, xüsusi texnika, nəqliyyat vasitələri, avadanlıq, tədris-idman bazaları, təlim mərkəzi və digər hərbi obyektlər, habelə başqa qiymətli maddi-texniki təchizat vasitələri təşkil edir.

9.5. İnstitutun maddi-tədris bazası dövlət əmlakı hesab olunur və ondan səmərəli istifadə edilməlidir.

9.6. İnstitutun istifadə etdiyi bina və qurğuların, torpaq sahələrinin xidməti təyinatının dəyişdirilməsinə Daxili Qoşunların komandanının razılığı olmadan yol verilmir.

9.7. İnstitutun maddi-tədris bazasının inkişafı və təkmilləşdirilməsi Daxili Qoşunların komandanı tərəfindən təsdiq edilmiş perspektiv inkişaf planları və cari planlar əsasında həyata keçirilir.

**10. Beynəlxalq əməkdaşlıq**

10.1. İnstitutun xarici əlaqələri və beynəlxalq əməkdaşlığı, həmçinin kadr hazırlığı sahəsində beynəlxalq əməkdaşlığı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, o cümlədən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə xarici ölkələrin dövlət orqanları arasında bağlanılmış sazişlər əsasında həyata keçirilir.

10.2. İnstitutun ali təhsil sahəsində beynəlxalq əlaqələri “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

**11. İnstitutda uçot və hesabat**

11.1. İnstitut “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

11.2. İnstitut “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

11.3. İnstitut statistik və maliyyə hesabatlarını Daxili Qoşunların komandanına təqdim edir.

**12. İnstitutun yenidən təşkili və ləğvi**

12.1. İnstitutun yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

12.2. İnstitut ləğv edildikdə onun əmlakına Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq sərəncam verilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 22 may 2024-cü il**

# COP29: Azərbaycanın “yaşıl” gələcəyə töhfələri artır

(əvvəli 8-ci səhifədə)

**Pərvanə VƏLİYEVA:**

– COP29-un Azərbaycanda keçirilməsi həm “yaşıl enerji”yə keçid üçün yeni im-



kanlar yaradır, həm də ölkəmizin dünya miqyasında olan nüfuzunu göstərir. Çünki bu tədbir ən mühüm beynəlxalq tədbirlərdən biridir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev bütün fəaliyyətində insan amilini əsas məqsəd kimi qarşıya qoyur. Belə konfransın və “yaşıl enerji”yə keçidin əsas məqsədi də məhz Azərbaycan vətəndaşının sağlamlığının qorunmasına, həm də dövlətimizin dünyada söz sahibi olmasına göstərilən yorulmaz səydir. Şübhəsiz ki, bir çox tədbirlər kimi, ölkəmiz COP29-u da uğurla həyata keçirəcək və özünün yüksək təşkilatçılıq bacarığını, insanların sağlamlığına göstərdiyi qayğını dünyaya bir daha nümayiş etdirəcək.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Bakıda keçirilən beynəlxalq tədbirlərin sırasına nəzər salsaq, COP29 səviyyəsində genişmiqyaslı bir layihənin olduğunu deyə bilmərik. Əslində, ölkəmiz bundan faydalanaraq, ilk növbədə, öz həqiqətlərini bütün dünyaya çatdıracaq. Başqa sözlə, 30 illik işğal dövründə erməni vəhşiliyini bütün dünyanın diqqətinə yönəldəcək, Vətən müharibəsində erməni faşizmi üzərindəki ədalətli və parlaq qələbəmiz barədə söhbət açılacaq, Azərbaycanın sosial-iqtisadi uğurları bir daha vurğulanacaq. Eyni zamanda respublikamıza gələn insanlar Azərbaycanı və azərbaycanlıları daha yaxından tanıyacaq, yanlış təbliğat vasitəsi ilə onlara aşılanmış neqativ baxışları pozitiv düşüncə ilə əvəzləyəcək.

Təbii ki, COP29-dan sonra geriyə qayıdan insanlar öz ölkələrində əhatələrində olanlara Azərbaycan və azərbaycanlılar barəsində gerçəkləri çatdıracaq, ölkəmiz və millətimiz haqqında əsl həqiqətləri danışacaqlar. Belə nüfuzlu konfransda iştirak edənlər ölkəmizdə iqlim dəyişiklərі ilə bağlı görülən işlərlə yaxından tanış olacaq, “yaşıl enerji” istehsalı istiqamətində reallaşdırılan layihələr barədə məlumat alacaqlar.

Respublikamız COP29-a ciddi hazırlaşır. Cari ilin fevral ayında 80-dən çox xarici QHT-in iştirakı ilə adıçəkilən konfransdan gözləntilərlə bağlı qlobal məsləhətləşmələr keçirilib. Afrika Səhiyyə Təşkilatları Assosasiyası ilə danışıqlar nəticəsində 109 xarici QHT-in Azərbaycanın COP29-a sədrliyinə dəstək bəyanatı verməsi reallaşdırılıb. Afrikadan olan QHT-lərlə birgə onlayn platforma üzərində Afrika-Asiya Konsorsiumu yaradılıb və COP29-la bağlı ayda bir dəfə görüşlərin keçirilməsinə başlanılıb, eyni zamanda QHT-lərin məlumatlılığının artırılması məqsədilə vebinarlar təşkil edilib.

Yeri gəlmişkən, COP29-un keçirilməsi ilə əlaqədar yaradılan Təşkilat Komitəsinin üzvü, eyni zamanda, “Environmental Protection First” Koalisiyasının həmtəsisçisi kimi cari ilin mart ayında adıçəkilən Təşkilat Komitəsinin iclasında “Xarici QHT-lərlə əməkdaşlıq” mövzusunda çıxış etmiş, elə həmin ay BMT-in Cenevrədəki iqamətgahında keçirilən insan hüquqları üzrə 55-ci sessiyası çərçivəsində ətraf mühit və iqlim ədaləti ilə bağlı sessiyalarda bu mövzuda fikirlərimi bildirmişəm. Bir neçə gün bundan əvvəl isə Keniyanın Nairobi şəhərində reallaşan BMT-nin Vətəndaş Cəmiyyəti Konfransında, habelə Kenya QHT-ləri ilə əməkdaşlıq perspektivləri barədə görüşdə iştirak etmiş, bu ölkə mətbuatına müsahibə vermişəm.

COP29-a hazırlıq çərçivəsində İtaliyanın Roma şəhərində keçirilən G7 ölkələrinin vətəndaş cəmiyyəti sammitinə də qoşularaq paneldə spiker kimi çıxış etmişik. Təşkilatımız səhiyyə sahəsində əməkdaşlıq etdiyi QHT-lərin dəvəti ilə bu koalisiyaya üzv seçilərək qurumun “İqlim və ətraf mühit ədaləti” adlı işçi qrupunda fəaliyyət göstərmişik.

Qeyd edim ki, sammit çərçivəsində ölkəmizi tanıtmaq, Azərbaycanın COP29-a sədrliyi barədə müsbət mesajlar yaymaq, C7 adından COP29-a dəstək bəyanatının 8 ölkə-




dən 30 QHT nümayəndəsi tərəfindən imzalanması təşəbbüslərimiz müsbət nəticələnib, Qərb QHT-ləri ilə yeni əməkdaşlıqlar qurmaq və xarici QHT-lərlə şəbəkəmizi genişləndirmək istiqamətində də uğurlu addımlar atılıb. Bütün bunlarla yanaşı, C7 ilə dayanıqlı əməkdaşlıq çərçivəsində təşkilatımızın iyunun 13-15-də Bari şəhərində keçiriləcək G7 Liderlər Sammitində iştirakı nəzərdə tutulub.

Burada bir məqama da toxunmaq istərdim. Belə ki, 2009-cu il keçirilən COP15-də inkişaf etmiş dövlətlər tərəfindən hər il iqlim maliyyəsinə 100 milyard dollar vəsait yığılması haqqında qərar verildi. Bu vəsait dövlət büdcələrindən, özəl sektordan və donor təşkilatlar kimi digər alternativ mənbələrdən toplanmalı idi. Lakin bu hədəfə çatmaqda heç bir uğur əldə edilmədi. Yeri gəlmişkən, maliyyə üzrə qiymətləndirmə isə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən təmin edilmişdi. Yığılan vəsaitin nəzərdə tutulandan az olması isə iqlim maliyyəsinin toplanılmasında dünya dövlətlərinin konsensual bir qərara gələ bilməməsinə gətirib çıxardı. COP27-də isə dünya dövlətlərinin konsensusa gəlməsi və bu məsələnin, yəni maliyyə axını mexanizminin birdəfəlik müəyyənləşdirilməsi barədə qərar verildi.

Ümumiyyətlə, maliyyə məsələsində mübahisəli məsələlər çoxdur. Məsələn, inkişaf etməkdə olan dövlətlər Paris Razılaşmasının həyata keçirilməsi ehtiyacından irəli gələrək maliyyənin daha da (100 milyarddan da çox) artırılmasının tərəfdarı olsalar da, inkişaf etmiş ölkələr isə iqlim maliyyəsində donor əsaslı ödəmələrin genişləndirilməsinin tərəfdarıdırlar. Yəni əməliyyatın konkret mexanizmlə deyil, dövlətin öz qərarına əsasən, illər üzrə daxili iqtisadi siyasətə uyğun olaraq, nəzərdə tutulan həcmdə ödənilməsinə üstünlük verirlər.

Lakin 2020-ci ildən bu yana COVİD-19 pandemiyası və müharibələr 54 ölkəni borc problemi ilə üzləşdirib. Kiçik ada dövlətlərinin borcu ilə iqlim dəyişikliyi fəsadları düz mütənasib olaraq artmaqda davam edib. Bu ölkələr tərəfindən iqlim dəyişikliyi proqramları üçün aldıqları vəsaitdən 18 dəfə çox borc ödənilib. Afrika dövlətlərinin borclarının Qərb maliyyə qurumlarına Çinə olan borclarından 3 dəfə artıq olduğu müəyyənləşdirilib.

Bu fikri belə bir fakdan da görə bilərik. Asiya dünya əhalisinin 60 faizini təşkil edir. Amma dünyanın qlobal iqlim maliyyəsindən cəmi 25 faiz əldə edə bilir. Beləliklə, Qlobal Cənub iqlim böhranının aradan qaldırılması üçün aldığı maliyyədən 5 qat daha çox borc ödəyir.

Deməli, yığılan maliyyə kreditlər şəklində verilir, bu da ədalətsizliyin başqa bir növüdür. Maliyyə vəsaiti iqlimin adaptasiya və uyğunlaşma fəaliyyətləri ilə, “yaşıl iqtisadiyyat”a keçidlə əlaqəli layihələrə ayrılır. Lakin onu almaq üçün də müraciət edən qurum çətin və vaxt alan uzun akkreditasiya prosedurundan keçməlidir.

Məsələ burasındadır ki, fondlar tərəfindən vəsait layihə təklifi əsasında kredit mexanizmləri ilə və ya qrantlar şəklində verilir. Vəsaitin böyük hissəsi kredit mexanizmləri ilə ayrılır. Bunun üçün isə təklifi formalaşdırmaq lazımdır. Əlavə olaraq isə bütün fondlarda olduğu kimi, bu fondlarda da birgə maliyyələşmə tələbi var. Məsələn, ümumi layihənin xərci 1 milyon dollardırsa, onun 300-400 min dolları müraciət edən ölkə (qurum) tərəfindən qarşılanmalıdır. Aidiyyatı qurum öhdəliyi təsdiq edən sənədi fonda verməlidir.

Məhz bu səbəbdən Yaşıl İqlim Fondu dünyada ən az inkişaf etmiş 37 ölkədən cəmi 16-na ötən illərdə vəsait ayırıb. Ən ehtiyaclı olan Eritreya, Somali, Yəmən kimi ölkələrdə maliyyə potensialı, layihə yazmaq bacarığı və s. digər məsələlərə görə, bu dəstəkdən faydalanılmayıb. Halbuki qazıntı yanacağına malik olmayan bu dövlətlər iqlim dəyişikliyinə ən az məsul ölkə olsalar da, onun fəsadlarından (daşqın, tufan, istiləşmə, su qıtlığı, ərzaq çatışmazlığı) ən çox təsirləniblər.

OECD qiymətləndirməsinə görə, dövlətlər tərəfindən ayrılan vəsaitin 70 faizdən çoxu qrant mexanizmi şəklində deyil, kredit formasında verilir. Əlbəttə, kreditə əsaslanan maliyyə mexanizmlərinin istifadəsinin artırılması bir çox inkişaf etməkdə olan ölkələrin borclarının yüksəlməsinə və iqlim ədalətsizliyinə gətirib çıxarır.

***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ,***
***Elşən AĞALAR (foto)***
***XQ***

Azərbaycanda Tacikistan Mədəniyyəti Günləri

# Tacik dostların Bakı təqdimatları

**Xəbər verildiyi kimi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə keçirilən Tacikistan Mədəniyyəti Günlərində iştirak etmək üçün qardaş ölkənin mədəniyyət naziri xanım Matlubaxon Sattoriyenin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir. Mədəniyyət naziri Adil Kərimli tacikistanlı həmkarı ilə görüşüb.**




Nazirlikdən bildirilib ki, görüşdə Adil Kərimli ölkəmizdə Tacikistan Mədəniyyəti Günlərinin keçirilməsini əlamətdar hadisə kimi səciyyələndirib. Qeyd olunub ki, iki ölkə arasında mədəni-ədəbi əlaqələrin qədim tarixi var. Hazırda dövlət başçılarımız arasında olan dostluq münasibətləri, yüksək səviyyəli qarşılıqlı səfərlər mədəni əməkdaşlığın da genişlənməsini təmin edib. Bakıda keçirilmiş VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Tacikistan nümayəndə heyətinin fəal iştirakına görə həmkarına minnətdarlığını bildirən nazir ICESCO-nun Azərbaycanda regional nümayəndəliyinin açılması ilə bağlı hazırlıq işləri barədə məlumat verib.

Tacikistanın mədəniyyət naziri xanım Matlubahon Sattoriyen Mədəniyyət günlərinin yüksək səviyyədə təşkilinə və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Onun açılış mərasimində də qeyd etdiyi kimi, Mədəniyyət Günləri üçün respublika incəsənət xadimlərinin konsert proqramını, rəssamların və xalq sənətkarlarının sərgisini, Tacikistan xalqının tarixindən, mədəniyyətindən, adətlərindən və bənzərsiz təbiəti olan Düşənbə şəhərinin cəlbedici obrazından bəhs edən milli geyimləri, bədii və tarixi filmləri özləri ilə Bakıya gətiriblər. Bütün bunlar mədəniyyətin xalqlarımızı yaxınlaşdıran əsas amil olduğunu, eyni zamanda, iki ölkənin ortaq mənəvi dəyərləri bölüşdüyünü göstərir.

Söhbət zamanı Matlubaxon Sattoriyen iki ölkə arasında incəsənət təhsili sahəsində tələbə mübadiləsinin də əhəmiyyətli olacağını qeyd edib. O, həmçinin gələn il Tacikistanda Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi təklifini səsləndirib. Xanım nazir azərbaycanlı həmkarını Tacikistana rəsmi səfərə dəvət edib.

Tacikistan Mədəniyyəti Günləri bir daha göstərdi ki, xalqlarımız bir-birinin musiqi incəsənətinə xüsusilə böyük sevgi bəsləyirlər. Elə açılış konsert proqramında Azərbaycan musiqilərinə də yer ayrılması həmin sevginin təzahürü idi. Tacik ifaçıların səsləndirdiyi "Ayrılıq olmayaydı" və "Sevgili canan" mahnıları böyük coşqu ilə alqışlanıb.

"Güzgü" detektiv bədii filmi təqdim ediləcək. Günahların bədəli və insan duyğularından bəhs edən ekran əsərinin rejissoru Nosir Saidovdur.

Tacikistan Respublikasının mədəniyyət naziri Matlubahon Sattoriyen dünən Azərbaycan Milli İncəsənət Muzeyini ziyarət edib.

Tacikistanlı qonaqların bir qrupu Vəcihə Səmədova adına Sərgi Salonunda "KARVAN" art qrupunun təşkilatçılığı ilə "Portal 13" adlı sərgi ilə tanış olub. Tacikistan Rəssamlar İttifaqının sədri Nərgiz Həmidova azərbaycanlı həmkarlarını salamlayaraq, təsviri sənət ustalarının yaradıcılıq əlaqələrindən danışıb. Xatırladılıb ki, mədəniyyət günləri çərçivəsində Heydər Əliyev Mərkəzində "Tacikistan rəssamlarının rəsm əsərləri, xalq sənətkarlıq nümunələri və milli geyimləri" sərgisi bu baxımdan mənəvi körpü rolu oynayıb. Həmin sərgidə tanınmış tacik rəssamların 30-a yaxın əsəri, eləcə də dekorativ və tətbiqi sənət nümunələri ekspozisiyanın bəzəyi olub.

Azərbaycanda Tacikistan Mədəniyyəti Günlərinin son akkordları ulu Nizami yurdu Gəncədə vurulacaq ki, bu da daha geniş kütlənin taciklərin zəngin mədəniyyəti ilə tanış olmasına şərait yaradacaq. Orada F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında qardaş ölkənin incəsənət ustaları geniş proqram təqdim edəcəklər. Konsertdə Tacikistan Xalq artistləri Mirəli Dostizoda, Rüstəm Dulloyev, Raxmatullo Hoşimov, Əməkdar artistlər Sitorai Karomatullo, Davlat Nəzriyev, Güləsal Pulodova, Məhəmmədrafi Karomatullo, Fotimai Məşrabin, Fəxriddini Malikin, Nigina Amonkulova, Haknazar Alovatov, eləcə də Qafar Vəlamatzadə adına Dövlət Əməkdar Rəqs Ansamblı, "Lola", "Zebo" və "Parastu", "Gül-rez", "Cahonoro", "Bazmoro" rəqs ansamblları və başqaları çıxış edəcəklər.



Paytaxtın Nizami Kino Mərkəzində isə Tacik Kinosu Günləri keçirilib. Sənətsevərlər üçün öncə məşhur tarixi ekran əsərləri – "Rüstəm və Söhrab", "Şöhrətlənən Sarəzm" bədii filmləri nümayiş etdirilib. Dünən isə "Tacikfilm", Komil Yormatov adına "Soqdsinamo" dövlət kino şirkəti və "Futura Maqnum" prodüser mərkəzinin birgə istehsalı olan "Tale" ("Fortuna") filmi göstərilib. İzləyicilər bir sıra beynəlxalq festivallarda fərqlənmiş bu kinolentdə 1990-cı illərin çətin siyasi və iqtisadi böhran dövründə iki dostun – Kahar və Mannanın dramatik həyat hekayəsi ilə tanış olublar. Baş rollarda Abdulmumin Şərifi, Salahuddin Şükürzadə və başqaları oynayıblar.

Qeyd edək ki, bu gün axşam tacik kinematoqrafiyasının çox populyar olan

**Ə.ƏLİYEV**
**XQ**

# Əməkdar jurnalist, tanınmış türkoloq əbədiyyətə qovuşdu

**Azərbaycan jurnalistikasına, elmi-mədəni ictimaiyyətinə ağır itki üz verib. Azərbaycan Jurnalistlər Birliyinin katibi, Bakı Dövlət Universitetinin professoru, tanınmış türkoloq, Əməkdar jurnalist Ramiz Əskər ömrünün 70-ci ilində kəskin ürək çatışmazlığından dünyasını dəyişib.**



Ramiz Baxşəli oğlu Əskər 1954-cü ildə Qərbi Azərbaycanın Gümrü bölgəsinin Qaraçanta kəndində doğulub, orta təhsilini burada alıb. O, 1972-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olub, 1975-ci ildən ali təhsilini M.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsində davam etdirib. 1978-ci ildə yüksək ixtisaslı jurnalist kimi Azərbaycana qayıdan Ramiz Əskər 1983-cü ilədək "Azərbaycanın səsi" radiosunda redaktor işləyib. Sonrakı illərdə o, Azərbaycan, türk, ərəb, fars, ingilis, fransız, alman dillərində çıxmış "Azərbaycan bugün" jurnalının və latın, kiril, ərəb əlifbaları ilə buraxılmış "Odlar yurdu" qəzetinin baş redaktoru kimi ölkəmizin xaricdə tanıdılması, Azərbaycan diasporunun Vətənlə əlaqələrinin gücləndirilməsi sahəsində mətbu sözün təsirinin artırılmasına jurnalist töhfəsini verib.

Ötən dövrdə beynəlxalq jurnalistika sahəsində təcrübəli media mütəxəssisi kimi yetişmiş Ramiz Əskər müstəqilliyin ilk illərində Türkiyənin "Hürriyət" qəzetinin, bu ölkənin Beynəlxalq Xəbər Agentliyinin və "Yeni forum" jurnalının Azərbaycan üzrə müxbiri olub. Həmkarımız 1993–1997-ci illərdə Xarici Turizm Şurasının idarə rəisi, "XXI əsr" qəzetinin baş redaktoru, "Xalq qəzeti" baş redaktorunun müavini vəzifələrində çalışıb, Azərbaycan Jurnalistlər Birliyinin katibi seçilib.

Sonrakı illərdə elmi fəaliyyət sahəsinə keçən tədqiqatçı-jurnalist 2003-2006-cı illərdə Bakı Dövlət Universitetinin türkologiya kafedrasında çalışıb. Filologiya üzrə namizədlik və dokorluq dissertasiyaları müdafiə etmiş türkoloq Azərbaycan və rus dillərində türk mədəniyyət tarixi, türkologiyanın əsasları fənlərini tədris edib, "Divanü lüğat-it-türk", "Kitabi-Dədə Qorqud", "Qutadğu Bilig", "Manas" kurslarını aparıb. O, 2007–2012-ci illərdə BDU filologiya fakültəsində bədii tərcümə elmi-tədqiqat laboratoriyasına rəhbərlik edib.

Professor Ramiz Əskər 2012-ci ildə türk xalqları ədəbiyyatı, 2016-cı ildə isə türkologiya kafedralarının müdiri seçilib. 2023-cü ildən Türkoloji Araşdırmalar Mərkəzinin rəhbəri olan alim 80-ə yaxın beynəlxalq simpozium və konfransda iştirak edib. O, Azərbaycanda və dünyanın müxtəlif ölkələrində çapdan çıxmış 94 kitabın, xeyli sayda tərcümə ədəbiyyatının müəllifi kimi də tanınıb.

Azərbaycan jurnalistikasının və elminin inkişafında xidmətlərinə görə Ramiz Əskər 2010-cu ildə Əməkdar jurnalist fəxri adına, 2014-cü ildə "Şöhrət" ordeninə, 2024-cü ildə II dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görülüb. Soydaşımız 2022-ci ildə Özbəkistanın "Dostluq" ordeni ilə də təltif edilib.

Zəngin və mənalı ömür yaşayan, jurnalistik və elmi fəaliyyəti ilə xalqımıza, bütün türk dünyasına layiqli xidmət göstərən həmkarımızın və dostumuzun dünyasını dəyişməsi onun bir çox arzu və istəklərini yarımçıq qoydu. Bu ağır itkini hədsiz kədərlə qarşılayır, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk.

Allah rəhmət eləsin!

**Azərbaycan Mətbuat Şurasının İdarə Heyəti**
**"Xalq qəzeti"nin kollektivi**

# İlin Buker Mükafatçısı

**Alman yazıçısı Cenni Erpenbek ingilis dilində işıq üzü görən "Kairos" romanına görə 2024-cü ilin nüfuzlu Beynəlxalq Buker Mükafatına layiq görülüb.**




Qalib 50 min funt-sterlinq (təxminən 63,5 min dollar) məbləğində mükafat alacaq. Qaydalara uyğun olaraq, Erpenbek pul mükafatını kitabın ingilis dilinə tərcüməçisi, alman şairi Mixael Hofman ilə bölüşməlidir.

Qeyd edək ki, bu mukafatı ötən il irlandiyalı yazıçı Pol Linç "Peyğəmbərin nəğməsi" romanına görə qazanmışdı.

# İçərişəhərdə yeni "Xəzinə"

**Paytaxtın "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşəbbüsü, "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin dəstəyi ilə Azərbaycanda zərgərlik sənəti və numizmatika nümunələrinə həsr edilən "Xəzinə" muzey ekspozisiyası açılıb.**



UNESCO-nun ümumdünya mədəni irs siyahısına daxil edilmiş Şirvanşahlar Sarayı Kompleksində ziyarətçilərə təqdim olunan qədim dövrlərə aid bəzək məmulatları, pul nişanları, eləcə də müasir dövlətimizin iqtisadi qüdrətinin göstəricilərindən biri hesab edilən, ən yeni texnologiyalar əsasında hazırlanmış sikkələr ölkəmizin qədim zərgərlik ənənələrinin və numizmatika irsinin təbliği baxımından mühüm əhəmiyyət daşıdığının bariz göstəricisidir. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə ekspozisiyanın açılış mərasimində də bildirib ki, bir çoxu ilk dəfə nümayiş olunan nümunələr antik dövrdən XX əsrə qədər böyük bir zamanı əhatə edir. Sərgilənən 100 yaxın eksponatın hamısı maddi-mədəni irsimizin daşıyıcısıdır, onlardan an dəyərlisi isə eramızdan əvvəl II minilliyə aid tunc kəmərdir.

"AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov isə ölkəmizdə milli zərgərlik sənətinə həsr olunmuş muzey ekspozisiyasının ilk dəfə yaradılmasına diqqət çəkib. Qədim qala divarları ilə əhatə olunmuş əsrarəngiz İçərişəhərdə qədim dövrlərdən üzübəri ərsəyə gətirilmiş zərgərlik və numizmatika nümunələri hərəsi bir tarixin yadigarıdır. QSC sədrinin sözlərinə görə, bu, bir tərəfdən, milli-mənəvi dəyərlərimizə hörmət və ehtiramı, digər tərəfdən, keçmiş dövrlərdən formalaşmış milli zərgərlik ənənələrimizin yaşadılması və təbliğinə verdiyimiz önəmi özündə ehtiva edir. Zakir İbrahimov "Xəzinə" muzey ekspozisiyasının həm vətəndaşlarımızın, həm də ölkəmizə səfər edən xarici qonaqların daim ziyarət etdiyi turistik obyektlərdən birinə çevriləcəyinə, sərgilənən eksponatların isə hər kəsin böyük marağına səbəb olacağına əminliyinə ifadə edib.

Mərasim çərçivəsində, həmçinin "AzerGold" QSC-nin İçərişəhərə həsr etdiyi qızıl sikkə kolleksiyasının təqdimatı olub. Maraqlıdır ki, "İçərişəhər" qızıl sikkə nümunəsində təkcə paytaxt Bakının deyil, ümumilikdə Azərbaycan memarlığının inciləri hesab edilən Şirvanşahlar Sarayı, Qız Qalası, Şah məscidi, Qoşa Qala qapıları, eləcə də İçərişəhərin memarlıq ansamblına daxil olan digər abidələr öz əksini tapıb.

Sonra tədbir iştirakçıları "Xəzinə" muzey ekspozisiyasında yer alanın zərgərlik sənəti və zəngin numizmatika nümunələri ilə yaxından tanış oldular.

**XQ**

# "Karvan"ın rənglər aləmi

**Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına Sərgi Salonunda "KARVAN" art qrupunun təşkilatçılığı ilə "Portal 13" adlı sərginin açılışı olub.**



Mərasimdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa və sədr müavini, Əməkdar rəssam Ülviyyə Həmzəyeva, Tacikistan Rəssamlar İttifaqının sədri Nərgiz Həmidova və başqaları iştirak ediblər.

Tacikistan Rəssamlar İttifaqının sədri Nərgiz Həmidova burada çoxsaylı sənətsevərləri görməkdən məmnunluğunu bildirib. Azərbaycan və Tacikistan arasında mədəni əməkdaşlığın bundan sonra da yüksək səviyyədə inkişaf edəcəyinə inamını bildirib.

Qeyd edək ki, sərgi "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində, Mədəniyyət Nazirliyi, Rəssamlar İttifaqı və Azərbaycan Dövlət Rəsm Qalereyasının dəstəyi ilə təşkil olunub. Mayın 25-nə qədər nümayiş olunacaq ekspozisiya "Portal 13" adlanır. "Qapı", "giriş" mənasını verən bu ad elə ilk andan seyrçilərini sanki başqa aləmə aparır. Sərginin kuratoru sənətşünas Xanım Rzayevadır.

2022-ci ildə rəssam Cavid Məmmədovun təşəbbüsü ilə yaradılan "KARVAN" art qrupunun əsas məqsədi, sərgidən də göründüyü kimi, incəsənət sahəsində fərqli yaradıcılıq tərzində işləyən, insanların bədii zövqünə təsir etməklə cəmiyyətə pozitiv enerji impulsları ötürmək niyyətində olan düşüncə sahiblərini bir araya gətirməkdir. "KARVAN" art qrupu hazırda Azərbaycanda və xaricdə tanınan, özünəməxsus texnikası, üslubu, gözəllik idealları ilə sənət əsərlərini ortaya qoyan 13 yaradıcı şəxsi bir araya gətirib.

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev XQ-yə açıqlamasında bildirdi:**

– Mən "KARVAN"çıların ilk sərgilərində də iştirak etmişəm. Burada da rəssamların çəkdikləri əsərlərdə kifayət qədər yenilik müşahidə olunur. Müxtəlif janrlarda işlənilən əsərlər maraq doğurur. Düzünü desəm, ilk sərgidən fərqli olaraq, bu dəfə daha çox düşündürücü elementlərə rast gəldim. Tablo ilə tamaşaçı arasında ünsiyyət yaradan bu əsərlər insanların sənət zövqünün və dünyagörüşünün xeyli zənginləşməsinə kömək edir.

**Fidan HÜQUQQIZI,**
**Elşən AĞALAROV (foto)**
**XQ**

# Azərbaycanlı alimin kitabı Daşkənddə

**Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Özbək Dilinin İnkişafı Fondunun (ÖDİF) və Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin təşkilatçılığı, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) iştirakı ilə filologiya elmləri doktoru dosent Elçin İbrahimovun "Türk xalqlarının ümumi əlifbası, imlası və əlaqə dili" adlı əsərinin özbək dilində nəşrinin təqdimatı keçirilib.**




Tədbiri ÖDİF-in direktoru, filologiya elmləri doktoru Əzizcan Eminov açaraq Özbəkistan Respublikasının dil siyasətindən bəhs edib, ölkədə digər qardaş türk dillərinə də böyük marağın olduğunu bildirib.

AMM-nin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Kərimulla Məmmədzadə türk dillərinin populyarlaşdırılması, təbliği və tədrisinin vacibliyini qeyd edib, bu sahədə gerçəkləşdirilən layihələrdən söz açıb. Mərkəzin təşəbbüsü ilə Özbəkistanın bir neçə ali məktəbində Azərbaycan dilinin tədrisinə başlanıldığını vurğulayan K.Məmmədzadə gələcəkdə bunun daha da genişləndirilməsi istiqamətində işlərin aparıldığını, dil tədris vəsaitlərinin, danışıq kitabları və lüğətlərin çap edildiyini, dil kurslarının təşkil olunduğunu qeyd edib.

"Özbəkistan–Azərbaycan" Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinov, universitetin yanında Dövlət Dilinin Tədrisi və İxtisaslaşdırma Mərkəzinin direktoru, dosent İnamcan Azimov, Özbəkistan Dövlət Sənət və Mədəniyyət Universitetinin professoru Marufcan Yoldaşov təqdimatı keçirilən nəşrin Özbəkistanda aktual olan bir probləmə toxunduğunu qeyd edərək, bu əsərin ana dilinin istifadəsi, imlası və əlifbası məsələləri sahəsində çalışan mütəxəssislər, tədqiqatçılar, tələbələr üçün çox dəyərli bir mənbə olduğunu vurğulayıblar.

Elçin İbrahimov əsərin kitabın Özbəkistanda çapının ana dilinin istifadəsində mövcud problemlərin aradan qaldırılması istiqamətində lazımlı mənbə olacağına ümid etdiyini söyləyib, nəşrin ərsəyə gəlməsində zəhməti olan hər kəsə minnətdarlığını bildirib.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**
**Daşkənd**

## “Simurq Kompani” ASC-nin 2023-cü il dekabrın 31-nə audit yoxlamasının nəticəsi barədə yekun maliyyə hesabatı

(manatla)

| Aktivlər | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| *Uzunmüddətli aktivlər* | 526945,07 | 702152,57 |
| Torpaq, tikili və avadanlıqlar | 526945,07 | 702152,57 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **526945,07** | **702152,57** |
| *Qısamüddətli aktivlər* | 2027,84 | 8873,54 |
| Ehtiyatlar | 1763,97 | 8873,54 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 263,87 | |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **2027,84** | **8873,54** |
| **CƏMİ AKTİVLƏR** | **528972,91** | **711026,11** |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 107138,40 | 107138,40 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | -283243,00 | -233483,00 |
| **CƏMİ KAPİTAL** | **-176104,60** | **-126344,60** |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **0,00** | **0,00** |
| Qısamüddətli öhdəliklər | 705077,51 | 837370,71 |
| Qısamüddətli kreditor borcları | 44129,64 | 7922,84 |
| Sair qısamüddətli öhdəliklər | 660947,87 | 829447,87 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **705077,51** | **837370,71** |
| CƏMİ ÖHDƏLİKLƏR | 705077,51 | 837370,71 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **528972,91** | **711026,11** |

**Məcmu Gəlirlər Haqqında Hesabat**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 1248700 | 1310600.00 |
| Satışın maya dəyəri | 1281796,75 | 1543617.00 |
| **Ümumi mənfəət** | **-33096,75** | **-233017.00** |
| Sair əməliyyat gəlirləri | 2760 | 2760.00 |
| Sair əməliyyat üzrə xərclər | 19423,25 | 3226.00 |
| **Sair əməliyyat (mənfəəti)** | **-16663,25** | **-466.00** |
| **Vergitutmadan əvvəl sair əməliyyatdan mənfəət (zərər)** | **-49760.00** | **-233483.00** |

**Kapitalda dəyişikliklər hesabatı**

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|
| 2023-cü il yanvarın 1-nə qalıq | 107138,40 | 0 | -233483.00 | -126344,60 |
| 2023-cü il üzrə xalis mənfəət (zərər) | | | -49760.00 | -49760.00 |
| 2023-cü il dekabrın 31-nə qalıq | 107138,40 | 0 | -283243.00 | -176104,60 |

## “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti

balansında olan binalarda müxtəlif havalandırma, soyutma və isitmə avadanlıqlarına il ərzində texniki qulluq göstərilməsi üçün satınalma müsabiqəsi elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 6 iyun 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3704).

Ünvan – AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

# Cüdoçumuz Dünya birincisidir

## *Hidayət Heydərovun yolu Paris Olimpiya zirvəsinədir*

**Son dövrlər yüksəlişdə olan Azərbaycan cüdosu növbəti böyük uğura imza atdı. Hidayət Heydərov Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilmiş dünya çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq çempion adını qazandı. 11 ildən, yəni Elxan Məmmədlidən sonra Heydərovun belə bir uğura imza atması xalqımıza, idman ictimaiyyətimizə son dərəcə böyük sevinc bəxş etdi. “Xalq qəzeti”nin kollektivi olaraq idmançımızı təbrik edirik.**



Qarşıdan ən böyük yarış – “Paris-2024” gəlir. H.Heydərov açıqlamalarında iddialı danışır. O, Yay Olimpiya Oyunlarının qalibi olacağına dair kifayət qədər nikbin fikirlər səsləndirir. Onun özünə bu qədər əminliyi sevindiricidir. Arzu edək ki, gücü və qüvvəsi ilə yanaşı, idman xoşbəxtliyi və şansı sahəsində sözünün üstündə dursun. Yəqin, razılaşarsınız ki, idmanda bəxt amili çox vacibdir. Uca Tanrı Hidayətdən hidayətini əsirgəməsin. İnşallah, dördilliyin ən böyük idman hadisəsində də Vətənimizin bayrağını ən yüksəyə ucaldar.

Hidayətin 26 yaşı var. İdmançı karyerasının ən gözəl çağlarını yaşayır. Gənclik şövqünün verdiyi imkanlar ona indiyədək çoxsaylı titullar qazandırıb. Amma özünün də söylədiyi kimi, dünya çempionu olmaq bir başqa hiss və duyğudur. Həm dünya, həm də Avropa çempionu olmaq. Onu da deyək ki, Hidayət indiyədək 4 dəfə qitənin ən yaxşısı adını qazanıb.



Digər tərəfdən, Heydərovu idman şansının heç də hər zaman üzünə güldüyü idmançı saymaq mümkün deyil. Nəzərə alaq ki, indiyədək üç dəfə dünya çempionatının yarımfinalında uğursuzluqla üzləşib. Bəlkə də, bu, ulduz xəstəliyini yaşamamaq baxımından çox yaxşıdır. Axı, bir qayda olaraq, gənc yaşlarında qazanılan böyük uğur idmançılarımızda başgicəllənməsi yaşadır.

Bununla bağlı çoxsaylı misallar var...

Hidayət həm Avropa, həm dünya, həm də Olimpiya çempionu olan cüdoçu kimi Azərbaycanın idman tarixinə düşəcəyini bildirir. Düşsün, 16 ildən – Elnur Məmmədlinin 2008-ci ildə Pekin Yay Olimpiya Oyunlarında qazandığı parlaq zəfərdən sonra müstəqil Azərbaycanın cüdo üzrə daha bir Olimpiya çempionu olsun. Həm də ona görə olsun ki, Heydərovun ilkləri reallaşdırmaq əzmi var.

Biz arzu edirik ki, Heydərov ən azı ikiqat Olimpiya çempionu olsun. Yəni, ondan daha artığını gözləyirik. Çünki hazırda belə bir titullu idmançımız yoxdur. Hidayət bunu gerçəyə çevirmək üçün çox yaxşı potensiala, ən əsası kifayət qədər vaxta malikdir. Yaşının azlığı gələcəkdə fiziki göstəricilərini sabit saxlamağa imkan verəcək. Axı idmanda yaş da mühüm amildir.

Bildirdiyimiz kimi, Hidayət Heydərov dünya çempionu adını qazananadək çoxsaylı yarışlarda qalib olub. 4 dəfə Avropa çempionluğunu, 3 dəfə dünya bürüncü ilə kifayətləndiyini diqqətə çatdırdıq. Bu sıraya qitə birinciliklərindəki gümüş və bürünclər də əlavə etmək mümkündür. Üstəlik, Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında qızıl, Minskdəki Avropa Oyunlarında bürünc, Yay Universiadalarında gümüş və bürünc medalları var.

Yəni, idmançımız zirvəyə doğru aramla yol alıb və almaqdadır. Deməli, Hidayət yalnız istedadı hesabına deyil, həm də zəhməti və əməksevərliyi hesabına öndədir. Buna görə ona yalnız Azərbaycanda deyil, ümumən dünyanın böyük cüdo ailəsində hörmət və rəğbət var. O ailədə ki, ölkəmizin orada, digər fərdi qarşıdurmalı idman sahələrində olduğu kimi, bir o qədər güclü təmsilçiliyinin olduğunu söyləyə bilmərik və fikrimizcə, durumu, müəyyən mənada, təbii qarşılamaq mümkündür.

Nəzərə alaq ki, yapon döyüş növü olan cüdo beynəlxalq miqyasda çox populyardır. Bu populyarlıq isə dünyanın hər yerində güclülərin yetişməsinə şərait yaradır. Nəticədə rəqabət də yüksəkdir. Əlbəttə, yaponların hegemonluğunu xüsusi vurğulamalıyıq. Yeri gəlmişkən, Hidayət dünya çempionatının finalında yaponiyalı həmkarını məğlubiyyətə uğradıb. Əbəs yerə deyil ki, o, məhz yapon idmançı üzərində qələbə qazanaraq dünya çempionluğunu arzuladığını bildirib. Görünür, “gündoğar ölkə”nin təmsilçilərinin üstünlüklərini qəbul edir. Biz də Hidayətin üstün olan tərəf – sırf yapon cüdoçu üzərində qələbə qazanaraq, yüksək titula sahiblənməsinə çox sevindik. Qələbəni, belə demək mümkünsə, tam leqallaşdıran amil elə məhz budur.

Bəli, Hidayət Heydərov Azərbaycanda olduğu kimi, dünyada da sevilir. Onu bir qədər gənc ikən Avropa birinciliyini qazanmasını xatırlayırıq. Çempionluğuna rəng qatan uzun saç düzümü idi. O zaman ölkəmizin idmançıları, xüsusən cüdoçuları üçün bu imicdəki yeniliyin daha parlaq əməli nəticələrdə özünü göstərəcəyini düşünmüşdük. Zənnimizdə yanılmadıq. Üstəlik, bu yeniliyə idmançımızın qələbə sevincini özünəxas emossionallıqla qeyd etməsi bir başqa ruh qazandırırdı.

Ümumən, hesab edirik ki, Hidayətin qələbələrə sevinmə tərzində də cüdonu hər kəsə, xüsusən yeniyetmə və gənclərə sevdirən cəhətlər çoxdur. Başqa cür ola bilməz, çünki idman eyni zamanda sevinci aşıb-daşdıran ruh işidir. Fiziki və mənəvi baxımdan sağlam olan bədənin gördüyü böyük ruh işi. O ruhda Vətənə, millətə, xalqa sevgi hissi, misilsiz bağlantı var. Hidayətin Azərbaycan Himninin sədaları altında axan göz yaşları ilə yoğrulmuş bağlantı.

Ruhun, əzmin, iradən hər zaman diri, yolun açıq, şansın bol olsun, çempion! Daha böyük zirvələrə doğru!

***Əvəz RÜSTƏMOV***
***XQ***

## “SURAXANI MAŞINQAYIRMA ZAVODU” ASC-nin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

*(manatla)*

| AKTİVLƏR | 2023-cü il | 2022-ci il |
|---|---|---|
| *Uzunmüddətli aktivlər* | | |
| Qeyri-maddi aktivlər | 22.472 | 10.472 |
| Torpaq, tikili və avadanlıqlar | 5.498.029 | 4.976.964 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | 5.520.501 | 4.987.436 |
| *Qısamüddətli aktivlər* | | |
| Ehtiyatlar | 3.087.854 | 4.489.245 |
| Qısamüddətli debitor borcları | 1.551.623 | 62.700 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 21.033 | 49.509 |
| Sair qısamüddətli aktivlər | 218.541 | 225.126 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | 4.879.051 | 4.826.580 |
| **CƏMİ AKTİVLƏR** | **10.399.552** | **9.814.016** |
| **KAPİTAL** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 4.744.914 | 4.744.914 |
| Kapital ehtiyyatları | 57.095 | 57.095 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 495.148 | 249.567 |
| **CƏMİ KAPİTAL** | **5.297.157** | **5.051.576** |
| **ÖHDƏLİKLƏR** | | |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Sair uzunmüddətli öhdəliklər | 4.073.000 | 4.073.000 |
| CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | **4.073.000** | **4.073.000** |
| *Qısamüddətli öhdəliklər* | | |
| Qısamüddətli faiz yaradan öhdəliklər | 80.948 | 249.000 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 86.402 | 55.603 |
| Qısamüddətli kreditor borcları | 517.173 | 113.790 |
| Sair qısamüddətli öhdəliklər | 344.873 | 271.047 |
| CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | 1.029.395 | 689.440 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **5.102.395** | **4.762.440** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **10.399.552** | **9.814.016** |

**MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 8.326.790 | 7.685.093 |
| Satışın maya dəyəri | -6.775.341 | -5.995.727 |
| **Ümumi mənfəət** | **1.551.448** | **1.689.366** |
| Digər əməliyyat gəlirləri | 8.624 | 1.907 |
| Ümumi və administrativ xərclər | -933.743 | -1.124.258 |
| Sair əməliyyat xərcləri | -42.080 | -65.256 |
| **Əməliyyat mənfəəti (zərəri)** | **584.250** | **501.759** |
| Maliyyə xərcləri | -34.270 | -31.279 |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | **549.980** | **470.480** |
| Mənfəət vergisi | -109.996 | -94.096 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **439.984** | **376.384** |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI**

| | **Nizamnamə kapitalı** | **Kapital ehtiyatları** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
|---|---|---|---|---|
| **2021-ci il dekabrın 31-nə qalıq** | **4.744.914** | **57.095** | **194.183** | **4.996.192** |
| 2022-ci il üzrə xalis mənfəət | | | 376.384 | 376.384 |
| Elan olunmuş dividend | | | -321.000 | -321.000 |
| Kapital ehtiyyatlarından istifadə | | | | - |
| **2022-ci il dekabrın 31-nə qalıq** | **4.744.914** | **57.095** | **249.567** | **5.051.576** |
| 2023-cü ilin kapital ehtiyatlarında düzəlişlər | | | | - |
| 2023-cü il üzrə xalis mənfəət | | | 439.984 | 439.984 |
| Elan olunmuş dividend | | | -144.444 | -144.444 |
| Kapital ehtiyyatlarından istifadə | | -49.959 | | -49.959 |
| **2023-cü il dekabrın 31-nə qalıq** | **4.744.914** | **7.136** | **545.107** | **5.297.157** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

| | | |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə mənfəət /zərər | 439.984 | 376.384 |
| Düzəlişlər | | |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər (amortizasiya) | 175.600 | 50.000 |
| Hesablanmış mənfəət verisi | 109.996 | 94.096 |
| Maliyyə xərcləri | 34.270 | 31.279 |
| Dövriyyə kapitalında dəyişikliklər: | | |
| · Ehtiyatlar üzrə (artım)/azalma | 1.401.391 | -1.332.973 |
| · Əməliyyat debitor borclarında və gələcək dövrün xərclərində (artım) / azalma / | -1.488.923 | 113.100 |
| · Sair qısamüddətli aktivlərdə (artım)/ azalma | 6.585 | -170.456 |
| · Cari vergi öhdəliklərində artım/ (azalma) | 30.799 | -144.035 |
| · Ehtiyyatların və xərclərin artımı/ (azalması) | 73.826 | 99.484 |
| · Əməliyyat kreditor borclarında artım/ (azalma) | 403.383 | -146.907 |
| · Ödənilmiş mənfəət vergisi | -109.996 | -94.096 |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | **1.076.913** | **-1.124.124** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Uzunmüddətli maddi və qeyri- maddi aktivlərin əldə edilməsi | -708.663 | -2.446.260 |
| Uzunmüddətli maddi və qeyri- maddi aktivlərin satışından gəlirlər | | 32 |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **-708.663** | **-2.446.228** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Kapital ehtiyyatlarından digər istifadə | -49.959 | |
| Dividendlərin verilməsi | -144.444 | |
| Banklardan kredit şəklində alınmış məbləğlərin ödənilməsi | -177.052 | 49.037 |
| Banklardan alınmış kreditlər | 9.000 | |
| Maliyyələşdirmə üzrə fəaliyyətlə əlaqədar sair daxilolmalar | | -321.000 |
| Maliyyə xərcləri | -34.270 | -31.279 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **-396.726** | **-303.242** |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | | |
| **Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri** | | |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **49.509** | **3.923.103** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **21.033** | **49.509** |

**“SURAXANI MAŞINQAYIRMA ZAVODU” ASC-nin təsisçilərinə**

Mən, “SURAXANI MAŞINQAYIRMA ZAVODU” ASC-nin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti, mənfəət və zərər, məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Məncə, əlavə edilmiş maliyyə hesabatları ASC-nin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yaradır*).

Audit, təqdim olunmuş sənədlər əsasında aparılmışdır.

Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

**Rəy üçün əsaslar**

Mən, auditi Beynəlxalq audit standartlarına (BAS-lara) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatım “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid etik normaların tələblərinə uyğun olaraq ASC-dən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Məncə, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik, maliyyə hesabatlarının BAS-lara (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik ASC-ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, ASC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə rəhbərlik məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər ASC-nin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim də daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu şəkildə istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

Sərbəst auditor– K.Ə.Alıyev, Bakı şəhəri, Nizami küçəsi 102. 10 may 2024-cü il.

## “İsmayıllı Tikinti – 27” ASC səhmdarlarının nəzərinə!

6 iyul 2024-cü il saat 12.00-da “İsmayıllı Tikinti - 27” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi.
2. Səhmdarlara dividendlərin verilməsi.

Səhmdarların iştirakı vacibdir.

Telefon-055-347-80-89.

Ünvan- İsmayıllı şəhəri, Mübariz Orucov küçəsi 100.

## “Çörək Nəqliyyat “ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da “Çörək Nəqliyyat “ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı Bakı şəhəri, Qara Qarayev prospektində yerləşən “Sevinc “ yay kinoteatrının binasında keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1.Cəmiyyətin 2023-cü il üçün hesabatının müzakirəsi və təsdiqi.

**QEYD**-səhmdarlar yığıncağın gündəliyinin materialları ilə yığıncaqda tanış ola bilərlər.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 107 (30511) 23 may 2024-cü il, cümə axşamı

İDMAN

## U-23 millimiz qitə çempionudur

**Bakıda keçirilən U-23 Avropa çempionatında yunan-Roma güləşi üzrə yarışa yekun vurulub.**



Millimiz qitə birinciliyində uğurlu çıxış edərək tarixi nəticəyə imza atıb. Belə ki, 3 qızıl, 1 gümüş və 4 bürünc medal qazanan yığmamız 163 xal toplayaraq ilk dəfə komanda hesabında U-23 Avropa çempionu olub.

Xatırladaq ki, komandamızın tərkibində Ziya Babaşov (63 kq), Xasay Həsənli (77 kq), Qurban Qurbanov (82 kq) qızıl, Nihad Quluzadə (60 kq) gümüş, Rəşad Məmmədov (55 kq), Ruslan Nurullayev (72 kq), Laçın Vəliyev (87 kq) və Murad Əhmədiyev (97 kq) isə bürünc medal qazanıblar.

## Bakıda Dünya minifutbolu

***Azərbaycanda minifutbol üzrə keçiriləcək dünya çempionatının vaxtı müəyyənləşib.***




Mundial 2025-ci ilin mayın 21-dən iyunun 1-dək Bakıda keçiriləcək.

Qeyd edək ki, Azərbaycanın minifutbol üzrə dünya çempionatına evsahibliyi etməsi ilə bağlı mayın 21-də müqavilə imzalanıb.

## Boksçularımız Olimpiya təsnifat turnirində

***Azərbaycan boksçuları Tailandın paytaxtı Banqkokda keçiriləcək II Dünya Olimpiya Təsnifat turnirində iştirak edəcəklər.***




Mayın 24-də start götürəcək turnirdə yığmamız 9 boksçu ilə təmsil olunacaq. Komandamızın heyətində Olimpiya lisenziyası uğrunda Şamil Əsgərov (57 kq), Malik Həsənov (63,5 kq), Sərxan Əliyev (71 kq), Alfonso Dominqes (92 kq), Marjona Savriyeva (50 kq), Zeynəb Rəhimova (54 kq), Məhsəti Həmzəyeva (57 kq), Şəhla Allahverdiyeva (66 kq) və Aynur Rzayeva (75 kq) mübarizə aparacaqlar.

Turnirdə 133 ölkə və Qaçqınlar komandasından 600-dən çox boksçunun iştirakı gözlənilir. Qeyd edək ki, yığmamızın heyətində artıq Nicat Hüseynov (51 kq), Murad Allahverdiyev (80 kq) və Məhəmməd Abdullayev (+92 kq) "Paris-2024"ə lisenziya qazanıblar.

## Üzgüçülərimiz 31 medal qazanıblar

***Azərbaycanın bədii üzgüçülük üzrə komandası beynəlxalq turnirdə 31 medal qazanıb.***




Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabidə keçirilən yarışda idmançılarımız, ümumilikdə 18 qızıl, 12 gümüş, 1 bürünc medala yiyələniblər.

Komandamız BƏƏ, Rusiya, Cənubi Afrika Respublikası, Tayvan, Sinqapur, Tunis və Türkiyənin bədii üzgüçülərinin də mübarizə apardığı beynəlxalq yarışda ən yüksək nəticəni göstəriblər.

Qeyd edək ki, turnirdə 8 ölkədən 15 klub və 200 dən çox idmançı iştirak edib.

***L.QURBANOVA***
***XQ***

Yurd yerlərimiz

# Ağsunun ağ günləri



*Qayaların alay-alay*
*Dolayların dolay-dolay, Ağsu!*
*Suyun gəlir Baba dağdan,*
*Qol götürür min irmaqdan.*
*Çöldə nemət, evdə ruzu, Ağsu!*
*Babaların su arzusu, Ağsu!*

***Xəlil Rza Ulutürk***

**"Ağsu" deyiləndə, yəqin ki, gözləriniz önünə ürək sərinlədən su, sürücülərin o qədər də sevmədiyi aşırımlar, göylərə yüksələn çinarlar gəlir və yadımıza şair Zülali Şirvaninin bu misraları düşür:**

*Qürbətdə deyirdin ki,*
*Zülali, Vətənim var,*
*Ensin gözünə qarə su,*
*Ağsu Vətən oldu!*

Tələbə dostlarım, iş yoldaşlarım da bu misraları dəfələrlə mənə xatırladıb, gülümsəyiblər. Hazırda Avstraliyada yaşayan dostum, gözəl jurnalist, Azərbaycan sevdalısı, yurdumuzun çox guşəsini gəzib-görmüş Süleyman Ünal bəy də mənə zəng edən zaman arabir bu qoşa misranı və Ağsunu yaddan çıxarmadığını isbatlayır.

Ağsunu görməmisizsə, gözləriniz önünə dağların ətəyində, geniş düzün yamaclara qovuşduğu xoş mənzərəli ərazidə qərar tutan bir şəhər gətirin. Mənbəyini uca zirvələrdən götürən çay şəhəri ikiyə bölür. Hər fəsildə gözəl olan rayonun ərazisində uca dağlar, gözəl meşələr, buz sulu bulaqlarla yanaşı, göz işlədikcə uzanıb gedən düzlər və hər cür nemət yetişən bağlar, əkin sahələri, sözün qısası, gəzib-görməli, zövq almalı yerlər var. Məmləkətimizdə təbiəti belə rəngarəng, zəngin məkan azdır.

Məktəb illərimi xatırlayanda o çağın Ağsunu köhnəlmiş kino lenti kimi xəyalımda canlanır. Hər zaman mənə mayak kimi görünən məktəbimiz, Nikolay vaxtında yeddi yumurtaya tikilən dəmir körpü (bu barədə bir rəvayət var), əbrişimlərə dolanan tənəklərin Günəşdən qızarmış iri salxımları, həftəsonu qələbəlik olan bazar və bir gecədə yanıb kül olan yeganə univermaq (indiki bələdiyyə binasının yerində), arxiv və digər binalar, qaratikan çəpərlər, bir də payız-qış aylarında sel sularının Ağsuçayın sərhədlərini aşdığı vahiməli günlər yaddaşımdan silinməyib.

O da yadımda qalıb ki, biz beşinci sinifdə oxuyanda ağsulular sovetin gur-gur gurultadığı bir vaxtda qiyam qaldırmışdılar (Çox guman ki, yeni nəsil bundan xəbərsizdi.)

Məlumat üçün deyək ki, Ağsu rayonu 1943-cü ildə təşkil edilib. 1963-cü ildə rayon ləğv edilərək onun ərazisi Kürdəmirə birləşdirilib. Əhali rayon mərkəzinə gedib-gəlmək, problemini həll etmək üçün bəzən bir neçə gün vaxt itirməli olub. Buna görə də ağsulular yuxarılara çox şikayət ediblər ki, Ağsunu Kürdəmirdən ayırın. Amma mərkəzdə şikayətlərə məhəl qoyulmayıb. Nəticədə əhali ayağa qalxıb, Ağsuya girən və oradan çıxan yollar bağlanıb, Ağsuçayın üstündən keçən magistral avtomobil yolunda hərəkət dayanıb. Aləm qarışıb...

Üsyanın səsi Moskvaya çatıb. Mərkəzdən gələn nümayəndələr ağsululara istəklərinin müsbət həll olunacağını bildiriblər...Nəhayət, 1965-ci ildə Ağsu yenidən müstəqil rayona çevrilib.

"Ağsu" toponimi haqqında dəqiq fikir yoxdur. Bəzi tədqiqatçılar "Ağsu" sözünün qədim "su" türk tayfalarının adı ilə bağlılığını, digərləri "böyük su", "saf su" anlamında olduğunu söyləyirlər.

Ağsunun adı ilə bağlı xalq arasında yayılmış rəvayət də ikinci fikirlə bağlıdır. Danışırlar ki, yayın qaynar günlərinin birində cənubdan üzü dağlara sarı bir karvan gəlir. Günəşin qovurduğu geniş düzdə nə bir göl, nə də bir çaya rast gəlməyən karvandakılar tezliklə sərin bulaq suyu içmək arzusu ilə tez-tez ilğım kimi görünən dağlara doğru baxırlar. Gün əyiləndə karvan dağın ətəyinə yetişir. Karvanbaşı burada gecələyəcəklərini söyləyir və bir neçə nəfərə ətrafı gəzib su tapmağı tapşırır. Onlardan biri bir qədər getdikdən sonra dağın ətəyindəki kolluqdan su şırıltısı eşidir. Oraya yüyürür və görür ki, dağın sinəsindən qaynayan sərin çeşmə xırda daşların üstü ilə axıb dərəyə tökülür...O, sevinclə: "ax, su, su!: (bəlkə də, "ağ su") – deyə qışqırır... O vaxtdan bu yoldan ötənlər həmin yerə "Axsu" yaxud "Ağsu" deyirlər. (Bilmirəm "həna"nın yeridir, ya yox, ancaq deyim ki, bu gün Ağsu əhalisi şirin suya həsrət kimidir. Çünki səhv etmirəmsə, yeddi-səkkiz il əvvəl "bəh-bəh"lə rayon mərkəzinə gətirilən su şordur, içməyə yararlı deyil...)

Ağsunun varlığı əsrləri ötür. Bunu Orta əsrin tarixi mənbələri də sübut edir. Əbu Bəkir əl Qütbi əl-Əhəri "Tarix-e Üveys" adlı əsərində yazır: "1265-ci ildə noqay Bərgə xanın qoşunu Şirvana yeridi və Ağsuya kimi gəldi".

Ağsu şəhərinin üç-dörd kilometrliyində "Xaraba şəhər" adlanan, təxminən 34 hektarlıq bir ərazi var. Bura, belə demək olarsa, zamanın sınaqları ilə üz-üzə qalmış Orta əsrlərin Ağsu – Yeni Şamaxı şəhəri olub.

Tarixçilər yazır ki, 1734 -cü ildə Nadirqulu xan Şamaxıya hücum edir və onu çətinliklə ələ keçirib dağıdır, yerli əhalini isə şah qoşunlarına ciddi müqavimət göstərdiyinə görə Ağsuya köçürür. Yeni Şamaxının da o vaxt salındığı bildirilir. (Bəzi məlumatlara görə, həmin şəhər 100–150 il əvvəl də şəhər kimi mövcud olub. Ola bilsin ki, Nadir şah orada geniş tikinti-abadlıq işləri apartdırıb...Hər halda, bu da tarixçilərin işidir). O vaxtdan Ağsu Yeni Şamaxı adlanıb.

9 il sonra Şirvanda İran əsarətinə qarşı üsyan baş verir. Üsyanın mərkəzlərindən biri Ağsu olduğuna görə şəhər dağıdılır. Ağa Məhəmməd şah Qacarın Azərbaycana hücumu zamanı da Ağsu şəhəri alt-üst edilir. Bundan sonra şəhərin tənəzzül dövrü başlanır... Beləliklə, Orta əsr Ağsu şəhəri getdikcə "Xaraba şəhər"ə çevrilir.

2010–2012-ci illərdə "Xaraba şəhər" ərazisində qazıntı işləri aparılıb. Qazıntı-axtarış zamanı şəhərin qala divarları, yaşayış evləri, Cümə məscidi, hamam, buzxana, su anbarları, su və kanalizasiya və s. aşkar olunub. 5 qazıntı sahəsindən 8 mindən çox qiymətli eksponat götürülüb. 2013 -cü ildə 3 qazıntı sahəsinin üstü örtülərək, içərisində sərgilər qurulub. 2019-cu il oktyabrın 23-də ölkə rəhbərinin sərəncamı ilə Orta əsr Ağsu şəhəri Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilib. Ötən ilin martında jurnalist və sənətşünas dostlarımla tarix-mədəniyyət qoruğunu gəzdik. Orada gördüklərim mənə zəhmətkeş və qəhrəman babalarımızın bu torpağın qorunması, yüksəlişi naminə necə böyük fədakarlıq göstərdiklərini aydınlatdı. Orta Əsr Ağsu şəhərindən qürur hissilə ayrıldım.

Hər dəfə dolaylardan enəndə bir qədər dayanıb, ilbəil böyüyən, sərhədlərini genişləndirən doğma Ağsumu seyr edirəm. Şəhəri ikiyə bölən Ağsuçaya, şəhərin yaşıl qolları uca əbrişimlərə, günəşin şəfəqləri altında müxtəlif rəngə çalan nar, üzüm və badam bağlarına, məktəbimizin binasına, müasir şirə zavodlarına, rayonun kəndlərinə uzanan asfalt yollara baxıram. Xəyalımdan keçir ki, Ağsunun ağ günləri başlanır...

***Səməd MƏLİKZADƏ***

Yada düşər xatirələr

# 50 ildən sonra doğma məktəbdə

**Bu günlərdə Gəncə şəhərində Mirzə Abbas Abbaszadə adına 20 nömrəli tam orta məktəbin 1974-cü il məzunları "Son zəng"dən 50 il sonra ilk dəfə doğma məktəbdə görüşüblər.**



23 məzun bir araya gələrək 50 il əvvəlki sinif otaqlarında, parta arxasında əyləşərək məktəb illəri ilə bağlı xatirələrini bölüşüb.

Səmimi keçən və duyğulu anların yaşandığı görüş zamanı məzunlar Dövlət himnini oxuyub, sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan, habelə dünyasını dəyişən müəllim və sinif yoldaşlarının xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Doğma məktəbə görüşə gələnlər arasında xarici ölkələrdə və Azərbaycanın müxtəlif şəhərlərində yaşayan məzunlar da var. Məsafələrin uzaqlığına baxmayaraq, ürəklərdəki yaxınlıq və doğmalıq onları Moskva, Mahaçqala, Ədirnə, Bakı və digər şəhərlərdən Gəncəyə gətirib.

Məzunlar sonra süfrə arxasında kövrək və unudulmaz xatirələrini bölüşüblər.

***XQ***

Hava

## Aranda yağmursuz, dağlarda yağış və duman...

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən Bakıda və Abşeron yarımadasında mayın 23-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək.***

Gecə 12-16°, gündüz 21-26° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 761 mm civə sütunu, nisbi rütubət gecə 60-70 , gündüz 50-55 faiz olacaq. Azərbaycanın rayonlarında əksər rayonlarda, əsasən, yağmursuz keçəcək. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 22-27°, dağlarda gecə 3-8°, gündüz 12-17° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## Şəhid övladları Şimali Kiprə gedəcəklər

**Dünən "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə "Türk dünyasının şəhid ailələri arasında əlaqələrin inkişafı" mövzusunda konfrans keçirilib.**




Birliyin sədri Sevinc Alızadə bildirib ki, qardaş Şimali Kipr Türk Cümhuriyyətindən ilk dəfə şəhid ailələrinin Azərbaycana səfəri iki ölkə arasında uğurla inkişaf edən əlaqələrdə mühüm körpüdür. O, layihəyə dəstək verdiyi üçün Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinə təşəkkür edib.

ŞKTC-nin "Şəhid Ailələri və Qazilər Dərnəyi"nin sədri Gürsel Benan, Milli Qəhrəman, şəhid general-mayor Polad Həşimovun həyat yoldaşı Ofeliya Salmanova, ŞKTC-nin Bakı Nümayəndəliyinin rəhbəri Ufuk Turganer, Azərbaycan–ŞKTR Dostluq Cəmiyyətinin sədri Orxan Həsənoğlu və başqaları çıxış edərək layihənin əhəmiyyətini vurğulayıblar.

Sonda "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi ilə İstanbul Texniki Universitetinin Şimali Kipr filialı və "Amerika Girne Universiteti" arasında əməkdaşlıq protokolları imzalanıb.

Razılaşmaya əsasən, Azərbaycandan 10 nəfər şəhid övladının İstanbul Texnik Universitetinin Şimali Kipr filialında, 20 nəfərin isə "Amerikan Girne Universiteti"ndə 14 gün müddətində yay məktəblərində iştirak edəcəklər. Xərcləri həmin ali məktəblər ödəyəcək.

**R.QURBANLI**
**XQ**

*"Danışan fotolar"*

## Ay ilə dənizin qovuşduğu an



*Foto "Facebook"da paylaşılıb*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi professor, Əməkdar jurnalist

**RAMİZ ƏSKƏRİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin professoru Əli və oğlu Samir Səfiyevə əzizləri

**FATMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3969
SİFARİŞ 1126
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00